www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 yanvar 2016-cı il Cümə axşamı № 20 (6341) Qiymәti 60 qəpik

## Xəbər

**Rusiyada azərbaycanlı gizir həmyerlisi olan mayoru güllələdi**

yazısı səh.14-də

## Gündəm

**"Bazarkom"un idmançı oğlu Bakıda "Rembo" rolunda**



İsa Əzizov və dostları yanacaqdoldurma məntəqəsində dava saldılar; generalın uzaq qohumu əvvəl törətdiyi cinayətlərə görə niyə cəzasız qalıb?

yazısı səh.6-da

**Yeni ipoteka şərtləri evsizləri sevindirə bilər**

yazısı səh.3-də

*Sülhəddin Əkbər:*

**"Ağ atlı xilaskarı gözləyənlər yanılırlar"**

yazısı səh.4-də

**Jurnalistin ölümündə təqsirli bilinən futbolçunun vəkili: "Günahsızdır"**

yazısı səh.6-da

**Minsk Qrupu AŞ PA-da hədəfinə çatdı; rəsmi Bakı həmsədr ölkələrə etirazlar hazırlayır**

yazısı səh.9-da

**"Kredit milyonçuları" yenidən həbs oluna bilər**

yazısı səh.7-də

**Müxalifət növbəti dəfə böhrandan çıxmağın yollarını axtardı**

yazısı səh.8-də

**"Pulqıran" dəstə "vosmoy" bazarından yoxa çıxdı**

yazısı səh.12-də

**İranın "böyük açılımı" qlobal iqtisadiyyata nə verəcək?**

yazısı səh.11-də

**"NAZ Lifan"ın zavodunda canlanma başlayıb**

yazısı səh.12-də

**Azərbaycanda qızıl kəskin bahalaşdı**

yazısı səh.15-də

**Tikinti fırıldaqçılarından can qurtarmağın yolları**

yazısı səh.13-də

## 11 il önçəki səs-küylü qətlin daha bir pərdəsi açılır

# ELMAR HÜSEYNOVA QARŞI TERROR İŞİNDƏ ŞOK GƏLİŞMƏ - "MTN ÇETESİ..."

İddialara görə, "Monitor" jurnalının baş redaktorunun qətlində MTN çetesi Rabitə Nazirliyindəki adamlarından istifadə edib; mərhum baş redaktor aradan götürüləndən az sonra özünün və xanımının mobil, həmçinin ev telefonlarının şəbəkədən ayrıldığına dair iddialar ciddiləşir; istintaq yeni istiqamətlər üzrə hərəkətə keçə bilər...




yazısı səh.5-də

# Azərbaycan yenə qeyri-azad ölkə elan edildi

"Freedom House"dan biabırçı hesabat - Qarabağ "azad ölkə" siyahısında; qurum ölkəmizi təməl azadlığının ən çox pozulduğu on ölkə siyahısına saldı; Azərbaycanın pisləşən reytinqi onun kredit alma imkanlarına da mənfi təsir edə bilər...

yazısı səh.8-də



**Zəfər Quliyevin vəfatından 1 il ötür**

yazısı səh.3-də



*Zahid Oruc:*

**"İslahatların alternativi yoxdur və hər hansı komanda üzvü bunu qəbul etmirsə..."**

yazısı səh.4-də



Rüfət Səfərov

**Eldar Sabiroğlunun oğlu yenidən hakimiyyətə meydan oxudu**

yazısı səh.10-da

# 28 yanvar 2016



## Prezident bir neçə səfiri geri çağırdı

### Elxan Qəhrəmanov Azərbaycanın Küveytdə səfiri təyin edildi

**Elxan Qəhrəmanov Azərbaycanın Küveytdə fövqəladə və səlahiyyətli səfiri təyin edilib. APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb. Prezidentin digər sərəncamı ilə Azərbaycanın BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi təyin edilib.**

Tural Rzayev isə Azərbaycanın Misir Ərəb Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

Vaqif Sadıqov Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi təyin olunub.

Bundan əvvəl o, Azərbaycanın İtaliyada səfiri olub.

Prezidentin sərəncamı ilə həmçinin Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında və eyni zamanda Kosta Rika Respublikasında, Qvatemala Respublikasında, Kolumbiya Respublikasında, Panama Respublikasında, Peru Respublikasında və Honduras Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

Elman Zeynalov isə Azərbaycanın Latviyadakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

## "Qafqaz İnkişaf Bankı" və "Atrabank"ın bank lisenziyaları ləğv edilib

**Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin 27 yanvar 2016-cı il tarixli, 07/1 və 07/3 nömrəli qərarları ilə məcmu kapitalın minimum məbləği tələbinə əməl etmədiyinə, kreditorları qarşısında öhdəliklərini icra edə bilmədiyinə, cari fəaliyyətini etibarlı və prudensial qaydada idarə etmədiyinə görə "Qafqaz İnkişaf Bankı" ASC və "Atrabank" ASC-nin bank lisenziyaları ləğv edilib.**

AMB-dən "APA-Economics"ə verilən məlumata görə, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 51-ci və 52-ci maddələrinə uyğun olaraq 27.01.2016-cı il tarixdən banklara müvəqqəti inzibatçı təyin edilib.

Mərkəzi Bank bildirir ki, "Qafqaz İnkişaf Bankı" ASC və "Atrabank" ASC Əmanətlərin Siğortalanması Fonduna üzv banklardır və fond tərəfindən əhalinin qorunan əmanətləri üzrə qanunvericiliyə müvafiq olaraq kompensasiyaların ödənişi həyata keçiriləcək.

### *Nazpəri Dostəliyeva:*

## "Ölkəni tərk etməyə hazırlaşıram"

**Xalq artisti Nazpəri Dostəliyeva ANS kanalında yayımlanan "Yoldaş Rövşanə" verilişinin qonağı olub. BAKU.WS məlumat verir ki, müğənni efirlərə hələ də buraxılmadığını və ölkəni tərk etmək istədiyini deyib:**

"Başqa ölkələrdən təkliflər almışam. Bunları qəbul etməyi düşünürəm. Ölkəni tərk etməyə hazırlaşıram, çünki fəaliyyətimi dayandırmaq istəmirəm. Televiziya rəhbərlərindən incimişəm. 3 ildir susuram. Heç bir qanuna əsaslanmadan mənə efir qadağası qoyublar. Mən özümə yox, xalqa aidəm. Onların ixtiyarı nədir bir xalq artistinə qadağa qoysunlar? Bir toya hər kəs kimi mən də qonorar qarşılığında getdim. Bunu siyasiləşdirib, mənə qadağa qoydular. Məni əhatə edən haqsızlıqdır, paxıllıqdır. Bəzi bədbəxtlərin məni gözü götürmür. Sevənlərim bundan sonra məni başqa ölkənin kanallarında görəcəklər".


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Samir Şərifov: "Qlobal iqtisadi böhranın yeni dalğası ilə üzləşirik"

**"Artıq biz dünyada qlobal iqtisadi böhranın yeni dalğası ilə üzləşirik". "APA-Economics"in məlumatına görə, bu barədə maliyyə naziri Samir Şərifov deyib.**



Nazirin sözlərinə görə, dünyada baş verən hadisələr, əsasən də qlobal iqtisadiyyatda baş verənlər onu göstərir ki, bu dalğanın mənfi təsirləri əvvəlki illərdən də ağır ola bilər:

"Bildiyiniz kimi, həmin böhranın birinci dalğası 2008-2009-cu illərə təsadüf edib. O zaman neftin qiyməti təxminən 140 dollardan 47-50 dollara qədər enmişdi. Amma bu eniş qısa müddət ərzində baş verdi və çox da uzun çəkmədi. Azərbaycan həmin sınaqdan çox az itkilərlə çıxmışdı və bunun bizim iqtisadiyyata mənfi təsirləri böyük olmamışdı. 2014-cü ilin sonlarında dünyanın enerji bazarlarında, əsasən də neft bazarlarında baş verən eniş artıq uzun müddətdir davam edir və neftin qiyməti əvvəllər heç ağla sığmayan səviyyəyə - 30 dollardan aşağı həddə enib. Bu, heç şübhəsiz ki, Azərbaycan dövlətinin gəlirlərinə də mənfi təsir göstərir. Belə ki, ilk növbədə, valyuta gəlirlərimiz azalır. Tədiyyə balansı bizim xaricdən gələn vəsaitlə xaricə ödənilən vəsaitin saldosudur. Tədiyyə balansı bizdə həmişə müsbət olub. Yəni Azərbaycana daha çox valyuta daxil olurdu, nəinki ölkədən çıxırdı. Hazırda əfsuslar olsun ki, vəziyyət mənfiyə doğru dəyişməyə başlayıb. Bu da təbiidir. Çünki valyuta daxilolmaları 4 dəfə azalıb. Amma bizim idxalla bağlı tələbatımız öz yerindədir".



## BMT baş katibinin Azərbaycana səfəri gözlənilir

**Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının (BMTSA) aprel ayında Bakıda keçiriləcək 7-ci Qlobal Forumunun Təşkilat Komitəsinin 2-ci iclası keçirilib.**

Mədəniyyət və Turizm Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsindən APA-ya verilən məlumata görə, Təşkilat Komitəsinin sədri Əbülfəs Qarayev çıxış edərək bildirib ki, prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, BMT-nin Sivilizasiyalar Alyansı ilə ikitərəfli sənədlər təsdiq olunub və qüvvəyə minib. Artıq forumun loqotipi təsdiqlənib və veb-saytı (baku.unaoc.org) istifadəyə verilib.

Nazir 50-dək ölkənin rəhbərlərinə dəvətnamələrin göndəriləcəyini bildirib. Qeyd olunub ki, forumda yüksək səviyyəli dövlət nümayəndələrinin iştirakı nəzərdə tutulur. İki gün ərzində 40 tədbir keçiriləcək və bunun üçün lazımi şərait yaradılıb.

Nazir qeyd edib ki, forum çərçivəsində aprelin 25-də gənclərlə bağlı tədbirdə BMT-nin baş katibi Pan Gi Munun da iştirak etməsi gözlənilir.

Bildirilib ki, fevralın 20-də isə BMT nümayəndə heyətinin Bakıya səfəri nəzərdə tutulur.



## Daşkəsəndə iki idarə müdiri avtoqəzada öldü

**Yanvarın 26-da Daşkəsən rayonunda ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib. Rayonun Bayan kəndində "Şevrolet Niva" markalı maşın idarəetməni itirərək aşıb. Maşın 12 metr hündürlükdən çaya düşüb. Hadisə şahidlərinin musavat.com-a bildirdiyinə görə, qəzaya yolun buz bağlaması səbəb olub.**

Qəza nəticəsində avtomobildə olan hər iki şəxs ölüb. Həyatlarını itirənlər məmur olub. Onlardan biri Daşkəsən Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Hacı Məmmədov, digəri isə Dövlət Sosial Müdafiə Fondunun Daşkəsən şöbəsinin müdiri Elvin Haqverdiyevdir.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev məlumatı musavat.com-a təsdiqləyib. O bildirib ki, hər iki şəxs nümunəvi rəhbər işçilər olublar: "Elvin Haqverdiyevlə dost idik. Baxmayaraq ki, 29 yaşı vardı, gənc idi, amma hər şeyin və hər kəsin yerini bilən, çalışqan, peşəkar məmur kimi ad çıxarmışdı. Onun valideynləri də bu yaxınlarda dünyasını dəyişib". İcra başçısı bildirdi ki, Elvin nişanlı idi, toya hazırlaşırdı.

Qəza nəticəsində həlak olanlar yanvarın 27-də dəfn olunublar.
Allah rəhmət eləsin.

## Azərbaycanın 3 iri bankı birləşəcək

**Yaxın vaxtlarda Azərbaycanda başlayan bankların konsolidasiya prosesi çərçivəsində "Paşa Bank", "Kapital Bank" və "AtaBank" ASC-lərin birləşəcəyi gözlənilir. "Report"a bu barədə bank mənbələrindən məlumat verilib.**

Lakin "Report"un müvafiq sorğularına bu bankların rəsmiləri mümkün konsolidasiya ilə bağlı konkret cavab verməyiblər.

"Paşa Bank"da məlumatı nə təsdiq, nə də təkzib ediblər. Bankdan rəsmi olaraq bu barədə məlumatsız olduqlarını açıqlayıblar.

"Kapital Bank"da isə məlumatı təkzib ediblər.

"AtaBank"da da məlumatı nə təsdiq, nə də təkzib ediblər. "AtaHolding"də bu barədə hər hansı məlumatın olmadığı bildirilib.

Qeyd edək ki, "Kapital Bank"ASC-nin səhmlərinin 99,87%-i "Paşa Holdinq"ə aiddir. Bankın nizamnamə kapitalı 185 mln. manatdır. "Paşa Bank"ın səhmdarları isə iki hüquqi şəxs "Pasha Holding Ltd." (60%), "Ador Ltd." (30%) və bir fiziki şəxsdor (Arif Pashayevdir, 10%). Bankın nizamnamə kapitalı 333, 0 mln. manat təşkil edir.

"AtaBank"ın səhmdarları "AtaHolding"ASC (76%) və fiziki şəxslərdir (24%), nizamnamə kapitalı (31.03.2015-ci il vəziyyətinə) 50 mln. manatdır.Qeyd edək ki, hazırda ölkədə 37 bank fəaliyyət göstərir. Bu il ərzində Mərkəzi Bank tərəfindən 6 bankın -"Bank of Azerbaijan", "Gəncəbank", "United Credit Bank", "NBC Bank", "Qafqaz İnkişaf Bankı" və "Atrabank" ASC-lərin bank lisenziyaları ləğv edilib.

## Qarabağ qazisindən dövlət başçısına müraciət: "Evimə un ala bilmirəm"...

**Şəki sakini Mehdi Səmədov qonşusuna zamin durduğu bankdan narazıdır. Qarabağ qazisi olan Mehdi Səmədov qeyd edib ki, 2014-cü ildə həmkəndlisi Həzi Qəribov "Unibank"dan 1200 manat civarında kredit götürüb və bu zaman o, zamin durub:**

"Devalvasiyadan bir müddət sonra kəndçim borcunu ödəyə bilmədi. «Unibank» bu pulu mənim 45 manatlıq təqaüdümdən tutur. Təqaüdümün 50 faizini bank tutur. İki körpə uşağım var, həkiminə pul çatdıra bilmirəm. Özüm xəstəyəm. Heç o 45 manata ailəmi dolandıra bilmirdim, indi vəziyyət daha acınacaqlıdır. Şəki Məhkəməsində icra məmuruna vəziyyətimi izah edirəm, heç bir xeyri yoxdur. Dörd aydır təqaüdümdən pul tuturlar. Özüm də işləmirəm. Əlacım dövlət başçısınadır. Müraciət edəcəm, bəlkə köməkliyi oldu. Neçə gündür evə un belə ala bilmirəm. Çox dəhşətli vəziyyətdir".

❑ RÖYA

## Aşqabadda Xəzərin statusuna dair işçi qrupun iclası başlayıb

**Aşqabadda Xəzər dənizinin hüquqi statusuna dair işçi qrupun 43-cü iclası başlayıb. APA-nın Türkmənistan Xarici İşlər Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, görüşdə Azərbaycan, Rusiya, İran və Qazaxıstan xarici işlər nazirlərinin müavinləri iştirak edirlər.**

Azərbaycanı görüşdə xarici işlər nazirinin müavini Xələf Xələfov təmsil edir.

Görüşdə məqsəd Xəzərin hüquqi statusuna dair Konvensiya ilə bağlı müzakirələrin davam etdirilməsidir.

İclasın birinci günündə nümayəndə heyətlərinin rəhbərləri öz dövlətlərinin bu məsələ, habelə Xəzər dənizində əməkdaşlığın müxtəlif aspektləri ilə bağlı mövqeyini təqdim ediblər.

İclas bu gün davam edəcək.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 20 (6341) 28 yanvar 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Yanvarın 29-da görkəmli politoloq, ictimai xadim Zəfər Quliyevin vəfatının ildönümüdür. Bir il öncə-yanvarın 29-da Zəfər Quliyev Gürcüstanda dünyasını dəyişib. Tanınmış politoloq Gürcüstana ürəyinin müalicəsi üçün getmişdi.**



# Zəfər Quliyevin vəfatından 1 il ötür

## İlkin Zəfərli: "Sanki iki ən əziz insanımı itirmişəm-atamı və dostumu"

**Zəfər Quliyevin oğlu, minval.az saytının redaktoru İlkin Zəfərli atası ilə bağlı xatirələrini "Yeni Müsavat"a bölüşüb və maraqlı fikirlər bildirib:** "Atamın dünyadan köçməsindən keçən bu bir il indiyə qədər yaşadığım illərin ən ağırı oldu. Bu bir il atasızlığın necə ağır olduğunu hər an hiss etdirdi. Zəfər Quliyev mənim atam olmaqla yanaşı, ən yaxın dostum idi. Ona görə də mən sanki iki ən əziz insanımı itirmişəm-atamı və dostumu. Özümə həmişə elə gəlib ki, həyatımda iki insanı eyni gündə itirmişəm. Bu hissi yaşamaq Zəfər Quliyev itkisinin acısını daha da ağrılı edir. Onun







yeri hər an görünür. Həm bir ata kimi, həm dost, həm də iş yoldaşı kimi yeri hər an görünür. Onun ölümü, təvazökarlıqdan uzaq olsa da, deyim ki, təkcə bizim ailəmiz üçün deyil, cəmiyyətimiz üçün də itki oldu. Mən tez-tez jurnalistlərdən eşidirəm ki, onlar da politoloq Zəfər Quliyev itkisini öz iş fəaliyyətlərində tez-tez hiss edirlər. Zəfər Quliyev jurnalistlərin yaxın dostu idi. Heç bir jurnalistin qəlbini qırmazdı. Hətta istirahət günləri olanda, əlində çox vacib şəxsi işləri olanda da jurnalistlərin zəng edib ünvanladıqları sualları cavablandırırdı. Dəfələrə bunun şahidi olmuşam".

**İ.Zəfərli bir məqama da diqqət çəkərək dedi ki, Azərbaycanda tək-tək politoloqlardan idi ki, Zəfər Quliyev mətbuatda, "Yeni Müsavat" qəzetində, minval.az saytında tez-tez özünün müəllif yazıları, təhlilləri ilə çıxış edirdi:** "O, hansısa mövzunun, ictimaiyyəti maraqlandıran məsələnin təhlilinin zəruriliyini görəndə gözləmirdi ki, jurnalistlər nə vaxtsa bu barədə ona sual ünvanlasın və o da fikirlərini ifadə etsin. Kompüterin qarşısında əyləşib müəllif yazısını hazırlayırdı və dərc etdirirdi. Onun yoxluğu kollektivimizdə də çox hiss olunur. Boşluğunu doldurmaq mümkün deyil. Zəfər Quliyev kollektivə siyasi, ictimai mövzular, məsələlərlə bağlı çox peşəkar məsləhətlər verirdi.

Onun 64 yaşı tamam olmaq üzrə idi. Hər yaşda insanla ünsiyyət qura və dost ola bilirdi. Kimsənin qəlbini qırmazdı, müsbət auralı idi. Əksər siyasətçilərin də hörmətlə yanaşdığı, fikirlərinə çox ciddi yanaşdığı ictimai xadim idi Zəfər Quliyev. Təəssüf ki, bizi çox tez tərk etdi. Mən onun bizi belə qəfil və tez tərk edəcəyini ağlımdan belə keçirmirdim. Ancaq həyat çox amansız imiş, atamı tez itirdim".

**İlkin Zəfərli məlumat verdi ki, ailə üzvləri, yaxınları yanvarın 29-da Zəfər Quliyevin məzarını ziyarət edəcəklər. İl mərasimi isə yanvarın 30-da saat 11-də evində keçiriləcək.**

❑ **E.SEYİDAĞA**

# Yeni ipoteka şərtləri evsizləri sevindirə bilər

## Ekspertlər Türkiyə təcrübəsinin şərtlərini açıqlayır, gələn aydan yeni şərtlərin tətbiqi gözlənilir...

**İpoteka kreditləşməsi barədə yeni təkliflər səslənməkdədir. Mərkəzi Bankın rəhbəri Elman Rüstəmovun ipoteka ilə bağlı son açıqlamaları bu sahədə dəyişiklik, yumşalma olacağı ümidlərini artırıb. Ekspertlər vəziyyəti fərqli tərəflərdən izah edirlər.**



Qeyd edək ki, Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov bildirib ki, ən geci gələn aydan ipoteka kreditləri yeni əsasda veriləcək: "Maliyyə Nazirliyi tərəfindən ipoteka kreditlərinin güzəşt və kommersiya hissələrinin genişləndirilməsi üzərində işlər aparılır. İpoteka kreditlərinin verilməsi üzrə digər ölkələrin təcrübəsi nəzərdən keçirilir və araşdırmalar aparılır. Yəqin ki, yaxın zamanda, ən geci gələn ay ipoteka kreditlərinin yeni əsasda verilməsinə başlanılacaq".

**Onun sözlərinə görə, Mərkəzi Bank ipoteka kreditləşməsində Türkiyə təcrübəsini nəzərdən keçirir. Baş bankir qeyd edib ki, Türkiyədə dövlət tərəfindən dövlət şirkətinə torpaq və zəruri infrastruktur verilir:** "Bu şirkət binanı özü tikir, sonra isə mənzilləri ilkin ödənişsiz və faizsiz 20-25 il müddətinə ipotekaya verir. Bu variant müxtəlif sahələrdən daha çox insanın cəlb edilməsinə və onların tikinti və tikinti materiallarının istehsalında işlə təmin edilməsinə imkan verir". Hazırda müzakirə edilən ipoteka kreditləşməsində dəyişikliklərə gəlincə, E.Rüstəmov qeyd edib ki, onların tətbiqi ay ərzində gözlənilir: "Dəyişikliklər o cümlədən ilkin ödəniş və zəmanət siyasətini də əhatə edəcək".

**Ekspert Rəşad Əliyev isə məsələ ilə bağlı musavat.com-a bildirib ki, şərtlər hələ ki qeyri-müəyyəndir:** "Bildirilir ki, Türkiyə nümunəsi öyrənilir. Yəqin ki, həmin təcrübədə nəsə onları maraqlandırıb. Ancaq Azərbaycanda bunun tətbiqi olduqca çətin olacaq. Digər tərəfdən, şərtlərdə yeni bir fikir eşitmədim. Hazırda uzun müddətdir ki, bu ipoteka kreditləşməsi ilə bağlı dövlət rəsmilərindən ancaq standart bölgülər eşidirik. Ancaq ortalıqda hələ heç nə yoxdur".

**Ekspertin sözlərinə görə, Türkiyə inkişaf etmiş nadir ölkələrdəndir ki, orada dövlət şirkətləri tikinti sektorunda uğurla işləyir:** "Çünki ancaq orada özünü doğrulda bilib. Həmin sistem illərdir uğurla işləyir. O model bizim şəraitə ümumiyyətlə yaramır və nümunə ola biləcək ən sonuncu modeldir. Çünki buna oxşar sistem bizdə olub, məsələn sovet dövründə, torpaq da dövlətdən, tikinti şirkəti də dövlətdən. Sadəcə olaraq, evlər pulsuz verilirdi. Sovet dağılan kimi, hamısının sonunu gördünüz. Ancaq dövlət sifarişi ilə işləyənin sonu yaxşı olmur. Həm də bunun üçün yeni müəssisələr formalaşdırılmalıdır ki, bunun da nə qədər xərci var. Həmin müəssisələr səmərəsiz işləyəcəklər. Ona görə də ucuz tikintini yaddan çıxarın. Əgər özəl sektor bununla bacara bilirsə, dövlətin bu sahədə nə işi var? Burada aldadıcı məqam var. Məsələn, evi dövlət şirkəti tikir və ilkin ödənişsiz, faizsiz ipotekaya verir. Deməli, pulun mənbəyi olmalıdır. Əgər pul varsa, elə ipotekanı minimal faizlərlə insanlara versinlər. İpoteka üzrə adi kreditlərdə faizlər 8 faiz, ilkin ödəniş 20 faizdir Əgər illərlə bu şərtləri yüngülləşdirməkdə çətinlik varsa, onda ilkin ödənişsiz faizsiz krediti necə verəcəklər?".

**Ekspert Nüsrət İbrahimov isə qeyd edib ki, ipoteka şərtlərinin detalları barədə məlumatsızdır:** "Hələ dəqiq məlumat yoxdur ki, hansı şərtlər yumşaldılır. Amma təxminən bilirəm ki, maksimum məbləğ artırılmalıdır. Bu gün bu, 50 min manatdır, o, bir qədər artırılacaq ki, bahalı və çoxotaqlı evləri də almaq mümkün olsun. Amma qalan şərtlər əvvəlki qaydasında saxlanılacaq. Deyirlər ki, gənc ailələrə şərtlər daha da yumşaldılır. Hələ tezdir o barədə fikir demək. Qəbul olunmuş şərt, qərar yoxdur. Hələ bu variant-maksimum məbləğin artırılması müzakirə edilir".

Qeyd edək ki, bəzi ekspertlər deyir ki, yeni, yumşaldılmış şərtlər daxilində ev bazarında vəziyyət bir qədər canlana bilər.

❑ **Röya RƏFİYEVA**

# Avtomobilin yenidən icad edilməsi



**Samir SARI**

**Əslində dünyada iki cür ölkə var: avtomobil istehsal edənlər və avtomobil istehlak edənlər.**

Dünyanın 200 dövlətindən təxminən 180-i ikinci qrupa daxildir, 20-si birinci qrupa. Yəni dünyada avtomobil istehsal edənlər çox azdır.

Hətta avtomobil istehsal edənlərin özləri də başqa ölkələrdə istehsal edilmiş avtomobillər alırlar. Məsələn, ABŞ boyda dünya hegemonu özünün "Ford"u, "Hammer"i, "Kadillak"ı, "Kraysler"i, "Linkoln"u ola-ola döşənib Yaponiyadan "Toyita", "Nissan", Cənubi Koreyadan "Hunday" alır. Həm də çox alır, az qala özünün buraxdığı qədər.

Bizə elə gələ bilər ki, "Ferrari"ni İtaliya buraxırsa, demək, orda hər iki-üç adamdan biri "Ferrari" sürür. Xeyr, görməmiş ölkələrin paytaxtlarındakı "Ferrari" markalı maşınların sayı, məsələn, Milandakından çoxdur. İsveçdə də yerli "Volvo"dan çox "Mersedes" görərsən.

İndi biz də Allahın köməkliyi ilə öz "NAZ-Lifan"ımızla avtomobil istehsal edən ölkələrin sırasına qoşuluruq.

Bu balaca məsələ deyil. Avtomobil istehsal edən ölkələr qüdrətli sənaye ölkələri sayılırlar. Ona görə də biz əslində öz "Lifan"ımızla qürur duymalıyıq, o maşınları sevə-sevə alıb minməliyik.

Orası da var ki, biz sovet dövründə Bakıdakı Volodarski adına tikiş fabrikinin buraxdığı kostyumları bəyənib almır, geymirdik, gedib Malta, Finlandiya, Yuqoslaviya kostyumları axtarırdıq, əl altından baha qiymətə alırdıq.

Ancaq bu, o demək deyildi ki, "Volodarski" fabriki yaxşı kostyum buraxmırdı. Lap əla kostyum buraxırdı. Məsələn, bizim kəndçimiz F. müəllim ADR-də çəkdiyi əsgərlikdən tərxis olunub vətənə qayıdarkən Berlinin ən yaxşı mağazalarından birində özünə göy, milə-mil bir kostyum alıb gətirmişdi. Evdə qohumları "alman malı" hesab etdikləri kostyumun embleminə baxanda məlum olmuşdu ki, bay, kostyum Bakıda, "Volodarski"də tikilib. Bununla belə, F. müəllim o kostyumu sərasər 5 (bəlkə də 10) il geyindi, nə rəngi solurdu, nə də ətəyi bürüşürdü.

Heç demə, "Volodarski"nin istehsal etdiyi keyfiyyətli kostyumları SSRİ-nin himayəsində olan sosialist ölkələrinə göndərirmişlər, keyfiyyətsiz məhsullarını isə ölkənin kənd rayonlarına. Ona görə də bizim kəndçilər öz pal-paltar bazarlıqlarını, yekə çıxmasın, Moskvada, Leninqradda edir, etdirirdilər.

İndi biz ölkədə adi corab, tuman-köynək buraxa bilmədiyimiz halda avtomobil istehsalına girişmişik deyə camaata bir az çöçün gəlir. Bəzi adamlar deyirlər ki, Azərbaycan inkişaf etmiş dünyadan təxminən 150 il sonra avtomobil buraxmağa başlayırsa, onun istehsal etdiyi avtomobil o qədər də keyfiyyətli olmayacaq.

Havayı söhbətdir. Nə olsun ki, 150 il əvvəl bizim Adam Opelimiz olmayıb, əvəzində o vaxt mindiyi faytonu kasıb-kusubun üstünə sürdürən Həsən ağalarımız olub. (Onların əmvatına bir salavat zikr edək). Bu gündən danışaq. Təzədən durub velosiped icad edəsi deyilik ki. İndi hamımız bilirik ki, avtomobili necə yığır, düzəldirlər, hissələri necə olur. O biri ölkələrdə istehsal olunmuş hissələri alıb komplektləşdirib konveyer üsulu ilə yığaraq avtomobil düzəltmək üçün Ştutqartda, Detroytda xüsusi kurs keçməyə ehtiyac yoxdur. Vallahi, kənd yerlərində elə ustalar var ki, orta məktəbin 8-ci sinifindən qayıdıb, oxumayıblar, amma sən onlara lazımi hissələri al ver, sənə "Galenvagen" yığsınlar. Hazırda onlar sexlərində "Jiquli" və "Niva" yığırlar, ona görə ki, ustalara bu maşınların hissələrini və kuzasını gətirirlər.

Bu baxımdan ruhdan düşməyə, "bizdən avtomobil buraxan olmaz, özümüzü biabır etməyək" düşüncəsinə qapılmağa ehtiyac yoxdur. Odur, Rusiyanın avtomobil sənayesi Avropanın, Asiyanın nəhəng maşınqayıranları ilə rəqabətə tab gətirmir, amma bizdə elə şey ola bilməz. Yeri gəlsə, bizim "NAZ-Lifan"ımız "Porşe"ylə də rəqabətə girə bilər və girəcək.

"Necə" deyə sual edəcəksinizsə, yazaram. "Porşe"ni kimlər minir? Məmur və oliqarx balaları. Sabah yuxarılarda məsləhət olsa ki, onların hamısı öz bahalı avtomobillərindən düşüb "NAZ-Lifan" minsinlər, nə edəcəklər, müqavimət göstərəcəklər? Xeyr, çoxu xəcalət çəkə-çəkə olsa da, "NAZ-Lifan"a minəcək. Əlbəttə, qüruruna sığışdırıb minməyənlər də olacaq, ancaq onlar da görəndə ki, bu işin üstündə papalarını yuxarılarda minirlər, yumşalacaqlar.

Beləcə, milli avtomobil sənayemiz daima inkişaf edəcək.



## Rayonlarda aksiyalar bitdimi...

## Sülhəddin Əkbər: "Kimsə gözləyirsə ki, ağ atlı oğlan gələcək və ölkəni bu böhrandan çıxaracaq, yanılır"

**Manatın devalvasiyasından bir müddət sonra - yanvarın 10-15-də ölkənin bir neçə rayonunda süni qiymət artımına və işsizliyə qarşı əhalinin etiraz aksiyaları keçirildi. Bütün ölkə ictimaiyyətində böyük rezonansa səbəb olan bu aksiyalar hakimiyyətin müdaxiləsi ilə dayandı. Artıq ajiotaj xeyli vaxtdır aradan qalxıb, sakitlikdir. İlk baxışdan belə təəssürat yaranır ki, bütün problemlər artıq həllini tapıb və insanlar istəyinə nail olub ev-eşiklərinə çəkiliblər. Müşahidə olunan situasiya "Rayonlarda aksiyalar birdəfəlik bitmiş hesab edilə bilərmi?" sualını meydana çıxarır.**

Bu barədə "Yeni Müsavat"a danışan **Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** bildirdi ki, Azərbaycanda sosial etirazlar üçün obyektiv səbəblər var: "Sosial, iqtisadi problemlər nəinki həll olunmayıb, əksinə, yaxın aylarda daha da dərinləşəcək. Çünki başlıca səbəb dünya bazarında neftin qiymətinin aşağı düşməsi ilə ölkəmizin gəlirlərinin kəskin azalmasıdır. Azərbaycanda korrupsiyanın, inhisarçılığın səviyyəsi, işsizliyin sürətlə çoxalması da bura əlavə olunsa mənzərə tamamilə aydın olur. Odur ki, sosial-iqtisadi vəziyyət getdikcə ağırlaşacaq. Vəziyyətin yaxşılaşması üçün mən ciddi bir səbəb görmürəm. Hakimiyyət çıxış yolları axtarmağına axtarır, amma adekvat çıxış yolu tapıldığını mən görmürəm. Yanlışlıq odur ki, hakimiyyət istəyir bu böhranı yaratmış komanda ilə bu böhrandan çıxsın. Korrupsiya və inhisarçılıq əleyhinə ciddi işlər həyata keçirmək barədə qərarlar qəbul olunur. Korrupsioner və inhisarçı məmurlarmı qəbul olunan qərarı və qanunu yerinə yetirəcək? Korrupsiyaçı və inhisarçı məmurlardan öz əleyhinə olan qərarları, qanunları həyata keçirməyi gözləmək nə dərəcədə məntiqlidir? Nə qədər ki, köklü demokratik islahatlar həyata keçirilməyib, vəziyyətdən çıxış yolunu görmürəm".

**S.Əkbər köklü demokratik islahatlar olmayacağı halda əhalinin etiraz aksiyalarının hər an gözlənildiyini dedi:** "Hakimiyyət hökuməti tam tərkibdə buraxmalıdır, Nazirlər Kabinetinin say tərkibi üç dəfə azaldılmalıdır, strukturunda ciddi dəyişikliklər olmalıdır, demokratik islahatçı hökumət təşkil olunmalıdır. Hökumət təkcə Yeni Azərbaycan Partiyasının nümayəndələrindən ibarət olmamalıdır. Hökumət Azərbaycanın intellektual, vətənpərvər kadrlarından təşkil olunmalıdır ki, ölkəni bu vəziyyətdən çıxarmaq mümkün olsun. Demokratik islahatlar və ictimai nəzarət şurası yaradılmalıdır. Bu, qeyr-hökumət təşkilatı olmalıdır, müstəqil olmalıdır, statusu Milli Məclis tərəfindən müəyyənləşdirilməlidir. Üçüncüsü, parlament buraxılmalıdır. Parlament ölkədəki hazırkı vəziyyətə adekvat deyil. Bu cür vəziyyətlərdə proseslər Milli Məclisdə müzakirə olunur. Yeni və demokratik seçkilərlə formalaşmış parlamentə ehtiyac var. Qeyd olunan köklü dəyişikliklərdən qorxmaq lazım deyil. Əksinə, bu dəyişikliklərin olmamasından qorxmaq lazımdır. Çox ciddi islahatlar, dəyişikliklər olmadan kimsə gözləyirsə ki, ağ atlı oğlan gələcək və ölkəni bu böhrandan çıxaracaq, yanılır".

**S.Əkbər vurğuladı ki, rayonlarda iki həftə əvvəl müşahidə olunan etiraz aksiyalarının dayandırılmasına aldanmaq, artıq hər şeyin yoluna düşdüyünə, bundan sonra etirazların olmayacağına inanmaq özünü aldatmaqdır:** "Nə qədər ki, yuxarıda qeyd etdiyim dəyişikliklər və digər ciddi islahatlar reallaşdırılmayıb, əhalinin etiraz aksiyalarının başlanması hər an gözləniləndir. Yəni heç kim hesab etməməlidir ki, əhalinin etirazları olmayacaq. Narazılıq getdikcə artacaq və yeni şərait məcbur edəcək ki, yeni qüvvələr ortaya çıxsın".

❑ **Etibar SEYİDAĞA**

**"Azərbaycanda həyata keçirilən özəlləşdirmə ölkədə sahibkarlığın dairəsinin genişləndirilməsində mühüm rol oynayıb. Bu sahədə müsbət məqamlar məlum olmaqla yanaşı, neqativlər də olub".**

# Prezidentin islahatlar mesajına ilginc reaksiyalar

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli bu fikirləri prezidentin 26 yanvarda hakim komandanın üzvləri və sahibkarlarla görüşü zamanı özəlləşdirmə prosesinin davam etdirilməsi ilə bağlı çıxışını "Yeni Müsavat"a şərh edərkən bildirdi. Deputatın sözlərinə görə, ölkədə özəlləşdirmə prosesinin aparılması üçün imkanlar var, amma bəzi şərtlərə əməl olunması zəruridir: "Özəlləşdirilən vacib müəssisə və sahələrdə iki ciddi problem - effektli sahibkar və özəlləşdirilən obyektin rəqabət qabiliyyətli səviyyəyə gətirib çıxarmaqdan ötrü zəruri olan həcmdə sərmayə qoyulması məsələsi öz həllini tapmadığından, kimlərsə bir sıra vacib müəssisələri alıb, qapısına qıfıl vurub, işə salmaq istiqamətində heç bir iş görməyib. Digərləri özəlləşən müəssisəni lazımi səviyyədə işlədə bilmir və sair. Ona görə də yerli və xarici mütəxəssislərin köməyi ilə Azərbaycanda indiyədək həyata keçirilən özəlləşdirmə obyektiv təhlil edilməli, onun müsbət cəhətləri inkişaf etdirilməli, neqativləri isə sözügedən həmin iki səhvi buraxmadan aradan qaldırılmalıdır".

**Ə.Məsimlinin sözlərinə görə, bu istiqamətdə çox iş görmək olar:** "Xüsusən regionlarda özəlləşdirilib, indiyədək işləməyən müəssisələrin hələ potensial bazarını itirməyən ümidverici hissəsinin məsələsinə yenidən baxılması, xüsusi sağlamlaşdırma proqramları hazırlanıb həyata keçirilməsi və onların inkişafı, AZAL, eləcə də su, işıq, qaz və sair kommunal və digər xidmətlərlə bağlı sahələrin optimal variantda özəlləşdirilməsi və ya uzunmüddətli istifadəyə verilməsi məsələsinin həll edilməsi, Dövlət Neft Şirkətinin əsas özəyi, strateji blokları istisna olmaqla, dövlət mülkiyyətində olan digər sahələrin birinci mərhələdə nəzarət səhm paketi - 51 faiz - dövlətin əlində qalmaqla, səhmlərin qalan hissəsini satılması yolu ilə özəlləşdirilməyə gedilməsi".

**Deputat bildirdi ki, bu prosesin həyata keçirilməsi zamanı bir neçə məsələnin optimal kombinasıyasına nail olmaq lazımdır:** "Birincisi, özəlləşmə zamanı iki ciddi problem - effektli sahibkar və özəlləşdirilən obyekti rəqabət qabiliyyətli səviyyəyə gətirib çıxarmaqdan ötrü zəruri olan həcmdə sərmayə qoyulması məsələsinin həlli mütləq vacibdir. İkincisi, özəlləşdirilən müəssisə və obyektlərə fərdi və differensial yanaşma olmalıdır. Məsələn, elə dövlət obyektləri var ki, - məsələn, AZAL - onların özəlləşdirilməsində büdcəyə yetərincə əlavə vəsaitin daxil olması, elə müəssisə var ki, - məsələn, indiyədək hansısa rayonda bağlı qalan qida istehsalı müəssisəsi - onun özəlləşdirmə qiyməti yox, tez bir zamanda işə salınıb səmərəli fəaliyyət göstərməsi prioritet olmalıdır. Üçüncüsü, özəlləşdirmə yolu ilə ənənəvi sahələrin bərpası. Elə sahə var ki, məsələn, Şəki İpək İstehsalat Birliyinin özəlləşdirilməsinin indiyədək olan nəticələri obyektiv araşdırılmalı, burada ipəkçilik kimi ənənəvi sahənin bərpası, əhalinin yüngül sənayenin yerli məhsulları ilə təminatının yaxşılaşdırılması, Şəkidə işsizliyin azaldılmasına sanballı töhfə, xaricə rəqabət qabiliyyətli malların çıxarılması və bu sahənin valyuta gətirən sahəyə çevrilməsi əsas kimi götürülməlidir. Dördüncüsü, özəlləşdirilən və ya uzunmüddətli istifadəyə veriləcək, məsələn, əhalinin və obyektlərin enerji, su, qaz təchizatı və sair sahələrdə əhaliyə davamlı və keyfiyyətli xidmət, şəffaflıq, həmin sahələrdə korrupsiya kimi neqativlərin aradan qaldırılması prioritet olmalıdır. Beşincisi, özəlləşdirmə vasitəsi dövlət büdcəsinin əlavə maliyyə yükündən, subsidiyalardan və sairdən azad edilməlidir. Məsələn, AZAL-a dövlət dəstəyi. Bu sahədəki lüzumsuz dövlət xərclərindən azad olmaq, həm də onların xaricdən aldıqları kreditlərə dövlət təminatı verib, ödənilməyəndə dövlət tərəfindən mütləq ödənilməsi işindən qurtulmaq və sair. Altıncısı, Dövlət Neft Şirkəti istisna olmaqla - Rusiyada və digər yerlərdə neftlə bağlı sahələrin özəlləşdirilməsinin mənfi məqamlarına baxıb, nəticə çıxarmaq və bu sahənin dövlət mülkiyyətində qalması daha düzgün variantdır - dövlət mülkiyyətində olan digər sahələrin çoxunun nəzarət səhm paketini (51 faiz) əldə saxlamaqla özəlləşdirməyə və ya uzunmüddətli istifadəyə vermək olar. Yeddincisi, özəlləşdirmənin investor tərəfindən xüsusi sağlamlaşdırma proqramı ilə paralel həyata keçirilməsi".



**Əli Məsimli: "Neftsiz də pul qazanmağı bacaran çevik hökumət modelinə keçmək lazımdır"**



**Zahid Oruc: "İslahatların alternativi yoxdur və hər hansı komanda üzvü bunu qəbul etmirsə, onu yeni idarəçilik üslubu avtomatik kənara atacaq"**

**Bəzi ekspertlər hesab edir ki, islahatları bu komanda ilə aparmaq mümkün deyil, ona görə də komanda yenilənməlidir. Ə.Məsimli də mövcud komanda ilə islahatların həyata keçirilməsini mümkün saymır:** "Doğrudur, indiki komandada öz sahəsini professional səviyyədə bilən adamlar var və onlar əllərindən gələni edirlər. Amma bu, azdır. Azərbaycanda yaranmış vəziyyətdən az itki ilə və etibarlı şəkildə çıxıb, davamlı inkişaf, real tərəqqi və əhalinin əksəriyyətinin güzəranının Azərbaycanın potensial imkanlarına layiq səviyyədə yaxşılaşdırılması yoluna çıxmaqdan ötrü, kadr islahatları ilə birgə ciddi struktur islahatları həyata keçirmək lazımdır. Daha çox neft pullarını xərcləmək üzrə ixtisaslaşan hökumət modelindən, neftsiz də pul qazanmağı bacaran çevik hökumət modelinə keçmək lazımdır. Neftin qiymətinin kəskin surətdə aşağı düşməsi və manatın dollara nisbətdə dəyərdən düşməsinin yaratdığı problemlərin həllinə yönəlik qısa, orta və uzun müddətə səmərə verən tədbirlərin effektiv kombinasiyasını özündə əks etdirən radikal islahatlar proqramı və ölkədə yaranmış yeni situasiyaya adekvat hərəkət edə, indiki kadrların da bir hissəsindən səmərəli və yerində istifadə etməklə, həmin proqramı həyata keçirə bilən müasir təfəkkürlü insanların və texnokratların çoxluq təşkil etdiyi mobil, dünyada baş verən proseslərə operativ və dəqiq reaksiya verib, həyata keçirilən iqtisadi siyasətə gecikmədən yaradıcılıqla zəruri korrektələr etməyi bacaran və həm də öz şəffaf və səmərəli fəaliyyəti ilə oliqarxiyanın ölkə iqtisadiyyatına ziyanlı təsirinin azaldılmasına yönəlmiş fəaliyyət göstərə bilən komanda lazımdır".

**Məmurları davamlı şəkildə tənqid etməklə və islahatlara çağırmaqla son günlər diqqət mərkəzində olan deputat Zahid Orucun isə prezidentin dediklərinə reaksiyası aşağıdakı kimi oldu:** "Prezident tribunaya çıxan biznes adamlarının dili ilə səsləndirilən problemlərin gerçək miqyasını hamıdan yaxşı bilir və rəsmi tədbirlərin sərt qərarların alınması meydanı olmadığını da nəzərə almalıyıq. Bizim böyük sahibkar ordusu inqilabi islahatların və yeni postneft dövrü dəyişikliklərinin onun qapısını döydüyünü yaxşı görür. Çünki icra orqanları kəskin ictimai təzyiq qarşısındadırlar. Məmurlar isə cəmiyyətin sosial tələblərini daşımaq gücündə deyillər. Çıxış yolunun bürokratizmin və qanunsuz tələblərin dayandırılması olduğunu hər kəsdən daha sərt şəkildə ölkə rəhbərinin özü dilə gətirir. Lakin möhtərəm prezidentimiz bütün cəbhə boyu keçmiş iqtisadi quruluşa və icra komandasına qarşı mübarizə elan etməsinin nəticələrini də hesablayır və fərqli bir yol xəritəsi seçməsinə səbəb də budur. Gəlin razılaşaq ki, hər bir narazı insanın arzuları ilə dövləti yönləndirmək çox çətindir. Çünki qanunsuzluğa qarşı tədbirlər seçilərkən böyük müqavimətləri qırmaq gərək olduğunu nəzərə almalıyıq. Lakin islahatların alternativi yoxdur və hər hansı komanda üzvü bunu qəbul etmirsə, onu yeni idarəçilik üslubu avtomatik kənara atacaq".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 20 (6341) 28 yanvar 2016

# 11 il öncəki səs-küylü qətlin daha bir pərdəsi açılır

**Eldar Mahmudov vəzifədən uzaqlaşdırıldıqdan 2 ay sonra onun 10 il ərzində rəhbərlik etdiyi Milli Təhlükəsizlik Nazirliyi (MTN) ləğv olundu. Qurumun yüksək vəzifəli əməkdaşlarının həbsi 2005-ci il martın 2-də Bakıda yaşadığı binanın blokunda öldürülən "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətlini bir daha diqqət mərkəzinə gətirdi. Bu da səbəbsiz deyildi.**



# Elmar Hüseynova qarşı terror işində şok gəlişmə - "MTN çetesi..."

İddialara görə, "Monitor" jurnalının baş redaktorunun qətlində MTN çetesi Rabitə Nazirliyindəki adamlarından istifadə edib; mərhum baş redaktor aradan götürüləndən az sonra özünün və xanımının mobil, həmçinin ev telefonlarının şəbəkədən ayrıldığına dair iddialar ciddiləşir; istintaq yeni istiqamətlər üzrə hərəkətə keçə bilər...

Elmar Hüseynovun qətlindən sonra MTN-in yüksək vəzifəli şəxslərinin adı qətllə əlaqəli gündəmə gəlmişdi. İşdə qətlin təşkilatçısı kimi MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi, general-mayor Akif Çovdarovun adı hallanırdı. A.Çovdarovun bu qətlin təşkilatçısı olduğunu 2010-cu ilin yayında o zaman həbsdə olan jurnalist Eynulla Fətullayev gündəmə gətirib. O, mətbuata müraciətində qətlin A.Çovdarov tərəfindən təşkil olunduğunu bildirmişdi. Jurnalistin həbsxanadan media orqanlarına göndərdiyi məktubda deyilirdi ki, Akif Çovdarov öz rəhbərliyinin tapşırığı ilə bu və digər qətllərin həyata keçirilməsi ilə məşğul olub.

Hazırda "MTN işi" üzrə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaq davam edir. İstintaqda Elmar Hüseynovun qətli ilə bağlı epizodların olması ehtimalı da var. Ən azından ictimaiyyətə Akif Çovdarovun adının qətlin təşkilatçısı kimi təqdim olunmasının araşdırılması zərurəti yaranıb. Bundan başqa, qətldən sonra üzə çıxan bir çox müəmmalara da aydınlıq gətirilməlidir.

Məsələn, Elmar Hüseynova mənzilinin girişində açılan atəşlərdən sonrakı dəqiqələrdə onun evində telefon işləməyib. Yaxınlarının istifadəsində olan mobil telefonlardan da zəng etmək mümkün olmayıb.

Bu məsələ qətldən iki gün sonra Azadlıq Radiosunun efirində (http://www.azadliq.org/content/news/151432.html) müzakirə olunub. Müzakirədə Azərbaycan parlamentinin vitse-spikeri Ziyafət Əsgərov, "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahid və o dövrdə "Monitor" jurnalının redaktor müavini olan Eynulla Fətullayev iştirak ediblər. Müzakirədə baş prokurorun müavini Ramiz Rzayevə istinadən bildirilib ki, istintaq bu ana (2005-ci il martın 4-də baş tutan müzakirə nəzərdə tutulur-E.M.) qədər ancaq mərhumun atası və xanımının qətl törədilən vaxt işıq, mobil və şəhər telefonunun qəsdən kəsilməsi barədə iddialarını araşdırıb.

**Həmin müzakirədən sitat:**

"Cənab Rzayevin sözlərinə görə, mobil və şəhər telefonu daim işləyib. Müstəntiqlər uzağı 4-5 dəqiqə rabitədə nasazlıq olduğunu ehtimal edirlər. Şəhər telefonu isə ancaq otaqlardan birində, xətt qırıldığı üçün işləməyib".

Bundan başqa, qətlə yetirilən baş redaktorun həyat yoldaşı Ruşaniyyə Hüseynova da müsahibələrində telefonların işləmədiyinə diqqət çəkib.

Maraqlıdır ki, qətllə bağlı digər məqamlar araşdırılsa da, telefonların işləməməsi məsələsi sonradan diqqətdən kənar qalıb.

Necə olub ki, rabitədə 4-5 dəqiqəlik nasazlıq yaranıb? Bu, bir təsadüfdür, yoxsa yaxşı hazırlanmış qətl planının tərkib hissəsidir?

Elmar Hüseynov qətlə yetirildiyi gün onu yaşadığı binaya "Monitor" jurnalının kommersiya direktoru Zakir Rzayev gətirib.

**"Yolda Elmar mağazadan oğluna yoqurt aldı. Sonra binalarının qarşısında avtomobildən düşdü. Avtomobildən düşərkən "Zerkalo" qəzetinin müxbiri İbrahim *(İbrahim Bayandurlu 2010-cu ildə vəfat edib)* zəng etdi. O, İbrahimlə telefonla danışa-danışa binaya daxil oldu"**, - deyə qətldən sonra Zakir Rzayev bildirib.

Deməli, Elmar Hüseynovun telefonu binaya daxil olana qədər işləyib. Qətldən dərhal sonra isə telefon sadəcə ümumi şəbəkədən 5-6 dəqiqəliyə ayrılıb. Həmin 5-6 dəqiqədə killer dəstəsi ərazidən uzaqlaşıb. Sonradan telefonlar işləməyə başlayıb və çağırışla əraziyə təcili yardım, hüquq-mühafizə orqanları gəliblər. Hadisə yerindən 150 metr aralıda papaq və tapança aşkar edilib ekspertizaya təhvil verilib. Amma heç bir əl izləri olmayıb. Deməli, baş redaktorun qətlində təsadüfi heç nə olmayıb. Həmçinin təsadüfən telefonların işləməməsi də. Əlbəttə, bu nüansın da araşdırılması hüquq-mühafizə orqanlarının çiyinlərinə düşür.

Qətl və ondan sonra baş verənlər telefonların nasazlıq üzündən işləməməsi versiyasına çox ciddi şübhələr yaradır.

Digər tərəfdən, bu şübhələri artıran faktlar Rabitə və Yüksək Texnologiyalar Nazirliyində gerçəkləşən həbslərdən sonra üzə çıxdı. Məlum oldu ki, Eldar Mahmudov yaxın qohumu olan Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəisi Beytulla Hüseynovun, nazirliyin aparat rəhbəri Vidadi Zeynalovun və digərlərinin vasitəsi ilə yüksək çinli vəzifəlilərin sanksiyalaşdırlmamış dinlənilməsini həyata keçirib. Vəzifə səlahiyyətlərindən istifadə edərək böyük bir cinayətə qol qoyublar. Bu baxımdan Elmar Hüseynov qətlə yetirilən gün onun mənzilində quraşdırılan stasionar telefonun, özünün və həyat yoldaşının istifadəsindəki mobil telefonun söndürülməsi, daha doğrusu şəbəkədən ayrılmasını da mümkün hesab etmək olar.

Məlumat üçün qeyd edək ki, istənilən mobil telefonu şəbəkədən ayırmaq texniki baxımdan mümkündür və belə texniki imkanlar Eldar Mahmudovun rəhbərlik etdiyi nazirlikdə də olub, RYTN-də də var.

Bu baxımdan Elmar Hüseynovun qətl işi yeni halların müəyyən olunması nədəni ilə yenilənə bilər. Hazırda yaranan situasiya E.Hüseynovun qətlinin açılmasına da kömək edə bilər.

Qeyd edək ki, "Monitor"un baş redaktoru Elmar Hüseynovun qətlində icraçı kimi 5 Gürcüstan vətəndaşının adı keçir. Bunlar Gürcüstan vətəndaşları Tahir Xubanov, Teymuraz Əliyev, Arçil Kasiya, Nuqzar Bolkvadze və Serqo Davrişovdur. Onların şəxsiyyəti, qətldən əvvəl qaldıqları ev, Azərbaycana qətl törədilən il yanvar və fevral ayında bir neçə dəfə gəlib-getmələri bilinir. Onlar sonuncu dəfə Azərbaycanı 2005-ci il mart ayının 3-də səhər saat 8:24-də (Elmar Hüseynov qətlə yetirildiyi gecənin səhəri) tərk ediblər. Qətl işi isə bu gün də açılmamış hesab olunur.

❑ E.MƏMMƏDƏLİYEV

# Qiymət Mehdiyevin "həyat yoldaşım deyil" dediyi qadın kimdir?

**SOCAR-ın Əsaslı Kapital Qoyuluşları İdarəsinin rəis müavini Qiymət Mehdiyevin ətrafında baş verən proseslər hələ də mətbuatın gündəmindədir. Həyat yoldaşının Bodrum bölgəsində 20 milyon dollarlıq 16 ədəd villa alması ilə bağlı fotofaktlara münasibət bildirən Q.Mehdiyev ilk növbədə fotolardakı qadının həyat yoldaşı olmadığını deyib: "Bəyan edirəm ki, bu məlumat yalandır və bunu mənə, ailəmə, işlədiyim təşkilatın işgüzar nüfuzuna zərbə vuran hərəkət kimi qiymətləndirirəm.**

Mən 30 ildir ki, eyni təşkilatda çalışıram, həyat yoldaşım da interyer dizayn sahəsində mütəxəssisdir və bu sahədə uğurla fəaliyyət göstərir. Heç bir araşdırma aparmadan mənim və ailəmin haqqında yayılmış bu böhtan xarakterli məlumatların bizim konsitusion hüquqlarımızı pozduğunu bəyan edir, bu təhdidlərin məqsədli şəkildə aparıldığını bildirirəm. Hətta məqalədəki fotoda mənim həyat yoldaşım kimi qələmə verilən xanım həyat yoldaşım deyil. Tamamilə yad, bizə aidiyyəti olmayan şəxsdir. Mənim həyat yoldaşımın aldığı ev qeyd edilən ərazidəki çoxsaylı evlərdən yalnız birinin yarısı qədərdir. Bu həqiqət elə məqalədə göstərilmiş mülkiyyət sənədində də açıq formada qeyd edilib. Ev 1/2 pay olmaqla dəyəri 200 000 Türkiyə lirəsi (təqribən 60 min ABŞ dollar civarında ) dəyərindədir".

Bütün hallarda ortada çoxlu sayda suallar var. Çünki Q.Mehdiyev həyat yoldaşının Bodrumda bir ev aldığını təsdiqləsə də, ümumiyyətlə, fotodakı qadından imtina edir. Bu faktları yaxın bir ailə dostlarının yaydığını bildirərək digər tərəfdən də yazılanları dolayısı ilə təsdiqləyir.

Bəs indiki halda məsələnin araşdırılması hansı yöndə davam etməlidir? Məlum fotodakı qadının kimliyini necə müəyyənləşdirmək olar? SOCAR, hüquq-mühafizə orqanları, eləcə də bu faktı ilk yayan media orqanları onun izini davam edəcəkmi?

"Yeni Müsavat" öncə SOCAR-ın mətbuat xidmətindən məsələyə münasibət öyrənmək istəsə də, buna nail olmayıb.

**Respublika Prokurorluğu mətbuat xidmətinin rəhbəri Eldar Sultanov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, yazının mətnindən və fotofaktlardan hadisənin Türkiyədə qeydə alındığı görünür. Müsahibimiz bu hadisənin araşdırılması ilə bağlı onlara hər hansı sorğunu daxil olmadığını, bu səbəbdən də onun Respublika Prokurorluğunun araşdırma predmeti olmadığını bildirdi:** "Hazırda bununla bağlı heç bir araşdırma aparılmır".

**Müstəqil hüquqşünas Müzəffər Baxış isə hesab edir ki, əgər bu məsələ faktlarla, sübutlarla mediada öz əksini tapıbsa, Cinayət Məcəlləsinin 12-ci maddəsinə görə, hadisə xaricdə baş versə də, hüquq-mühafizə orqanları onu araşdırmalıdır. Müsahibimizin sözlərinə görə, faktı üzə çıxaran media orqanı - haqqın.az onun sona qədər araşdırılmasında maraqlıdırsa, Cinayət Məcəlləsinin 206-cı maddəsinin tələblərinə görə, bu korrupsiya faktlarını Korrupsiyaya qarşı Mübarizə İdarəsinə göndərməlidir. Bu halda baş idarə bunu araşdıracaq:** "Araşdırma zamanı ekspertiza təyin edilməlidir. Həmin vaxt pul daşıyan qadının kimliyini də üzə çıxarmaq asan olacaq. Buna ilk növbədə həvəs olmalıdır. SOCAR elə bir strukturdur ki, prezident göstəriş versə,



**Eldar Sultanov:**
"Bu, bizim araşdırma predmetimiz ola bilməz"



**Müzəffər Baxış:**
"Hüquq-mühafizə orqanları onu araşdırmalıdır"



**Eynulla Fətullayev:**
"Qiymət Mehdiyev özü deyir ki, bu faktları ailə dostları ötürüb... Demək ki..."

orda həmin məmurla bağlı ciddi araşdırma aparılacaq".

**Faktı yayan media orqanının - haqqın.az saytının rəhbəri Eynulla Fətullayev isə bizə açıqlamasında bundan sonra sözügedən mövzuda tutacaqları mövqeyi açıqladı. Müsahibimiz öncə Q.Mehdiyevin müsahibəsindəki bir məqama toxundu:** "Qiymət Mehdiyev müsahibəsində qeyd etdi ki, həmin sənədləri təqdim edən ailə dostlarıdır. Aydın məsələdir ki, biz necə əldə edə bilərdik? Üstəlik, ailə dostlarıdırsa, onun həyat yoldaşını da tanıyırlar və yanlışlığa yol verməzlər. Bunu yayan türk iş adamları bizdən öncə bir teleradio şirkətinin rəhbəri ilə də görüşüblər. Onlar deyiblər ki, bu sənədləri Azərbaycan jurnalistləri çap etməsələr, Türkiyə və Almaniya mediasına veriləcək. Bu, onların əlində olan sənədlərin cüzi hissəsidir. Çoxlu sənədlər də var. Onların bildirdiyinə görə, SOCAR onlara bir layihə sifariş edib. Amma daha sonra SOCAR bunu icra etməyib. Söhbət 934 min dollarlıq layihədən gedir. Biz yazıda da qeyd etmişdik ki, həmin sənədlərin üzə çıxarılması bir qisas əməliyyatının nəticəsidir. Türklər bildiriblər ki, Azərbaycan tərəfi öhdəliyi pozub. Bizə bunu bildirdilər. Jurnalistin işi öz işini vicdanla görməkdir".

**E.Fətullayev bu araşdırma çərçivəsində qarşı tərəfin mövqeyini niyə öyrənmədiklərini də açıqladı. Dedi ki, Azərbaycan reallığı şəraitində yaşayırıq və qarşı tərəfin fikrini öyrənməyə cəhd etsələr, şantajda ittiham olunacaqlarını bilirlər:** "Bilirəm ki, müəyyən mənada jurnalistika prinsiplərini pozmuşam. Ona görə də qərara gəldim ki, sadəcə, sənədləri yayım. Bu insan etiraf edir ki, bu evin birini alıb. Hətta deyir ki, normal ailə ala bilər. Mən şəxsən özümü normal ailənin üzvü hesab edirəm. Amma bizim Bodrumda villamız yoxdur. Biz hələlik rəsmi mövqe gözləyirik. SOCAR bəyan etmişdi ki, araşdıracaqlar. Mən düşünürəm ki, biz bunun nəticəsini gözləməliyik. Əlbəttə ki, burdan Bodruma səfər edib, yerində araşdırmaq byük zəhmət tələb etmir. Amma öncə SOCAR öz mövqeyini bildirsin. Hüquq-mühafizə orqanları sözünü deyəcək. Ondan sonra yenidən bu mövzuya qayıtmaq olar. Qiymət Mehdiyev özünü təkzib edir. Bir tərəfdən deyir ki, bu ev onun həyat yoldaşı tərəfindən alınıb. Digər tərəfdən deyir ki, fotodakı xanım həyat yoldaşı deyil. Məntiqi ardıcıllığın pozulduğunu oxucu da görür".

**"Yeni Müsavat" isə xəbər verir ki, yanvarın 25-də özünü Qiymət Mehdiyevin oğlu Qismət Mehdiyev kimi təqdim edən şəxs redaksiyaya zəng vuraraq, saytdan ona məxsus fotoların yığışdırılmasını tələb edib. Q.Mehdiyev bildirib ki, anası və atası ilə bağlı yayılan xəbərlərə şərh vermək istəmir. Amma xaricdə təhsil alan gənc fotolardakı qadının anası olduğunu da inkar etməyib: "Bu, onların şəxsi həyatıdır, mən qarışmaq istəmirəm".**

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 20 (6341) 28 yanvar 2016



# “Bazarkom”un idmançı oğlu Bakıda “Rembo” rolunda

## İsa Əzizov və dostları yanacaqdoldurma məntəqəsində dava saldılar; generalın uzaq qohumu əvvəl törətdiyi cinayətlərə görə niyə cəzasız qalıb?

**Quduruğan, ictimai qaydaları kobud şəkildə pozan məmur övladlarının daha bir qovğası yanvarın 26-dan 27-nə keçən gecəyə təsadüf edib. Gecəyarısı Bakının Tiflis prospektindəki “Azpetrol” yanacaqdoldurma stansiyasına Az 90 HN 999 dövlət nömrə nişanlı “Bentley” avtomobili gəlib. Yanacaqdoldurma məntəqəsinin işçisinə aldığı benzinin qarşılığında maşının şüşəsindən 100 manatlıq uzadıb, qalıq pulun geri qaytarılmasını tələb edib.**

Bu zaman əməkdaş ondan gözləməyi xahiş edib. Amma bu, “Bentley” sərnişinlərinin xoşuna gəlmir və onlar həmin oğlanla mübahisə etməyə başlayıblar. Nə baş verdiyini aydınlaşdırmaq üçün maşına yanacaqdoldurma məntəqəsinin mühafizəçisi Sadiq Bağırov gəlib və sərnişinlərə gözləməyi tövsiyə edib. Bu da ikinci qığılcıma səbəb olub. Maşından düşən “qoçular” S.Bağırovu mağaza tərəfə, təhlükəsizlik kameraları olmayan istiqamətdə sıxışdırıblar. Bir neçə dəqiqə sonra isə hadisə yerinə ağ rəngli “Prado” gəlib. Bu maşından da idmançılar düşərək məntəqənin işçilərinin üstünə gedib və dava etməyə başlayıblar. Bundan sonra, “Bentley”in sürücüsü maşınından silah götürərək, “hamını güllələyəcəyəm” deyib. Amma dostu silahı onun əlindən almağa müvəffəq olub. Daha da hiddətlənən “Bentley” sürücüsü POS-terminalı götürərək Sadiq Bağırova başından zərbələr endirməyə başlayıb. Bundan sonra qoluzorlular çıxıb gediblər.

Məlum olub ki, qoluzorlu dəstənin başçısı general Məhərrəm Əliyevin qohumudur. Bu barədə KİV-lərdə yayılan informasiyanı generalın qardaşı, deputat Adil Əliyev təsdiqləyib. Adil Əliyev öz facebook səhifəsində bunları yazıb: “Dostlar, cinayət varsa, cəzası da olmalıdır. Uzaq qohumumuz olan İsa Əzizov və dostlarının yanacaqdoldurma məntəqələrindən birində zorakılıq halına yol verdiyi bildirilir. Biz uzaq qohum olaraq bu şəxsin əməllərinə cavabdeh deyilik. Onun ailəsinin böyüyü həmin şəxsi tənbeh etməlidir. Təəssüf ki, bəzi saytlar məsələnin mahiyyətini kənara qoyaraq sanki əllərinə fürsət düşmüş kimi başlığa İsa Əzizovun bizimlə qohumluq əlaqələrini ön plana çəkirlər. İsa Əzizovun hərəkətində qanunsuzluq təsbit olunarsa, o da hamı kimi qanun qarşısında cavab verəcək. Bunun başqa alternativi yoxdur. Bəzi saytlarda yazılar ki, guya adıçəkilən şəxs Kikboksinq Federasiyasının üzvüdür. Bu da kökündən yanlış xəbərdir, İsa Əzizovun yaxından, uzaqdan federasiyamıza aidiyyəti yoxdur, yarışlarımızda iştirak etməyib. Onun hansı idman növü ilə məşğul olması haqqında da məlumatım yoxdur. Hər gün ölkədə nə qədər cinayət hadisəsi baş verir. Bu kimi cinayətlər də onlardan biridir. Hər kəs özünə və ailə üzvlərinin hərəkətlərinə cavabdehlik daşıyır”.

Dəqiqləşdirmələr nəticəsində məlum olub ki, İsa Əzizov “8-ci km” bazarının sahibi Nadir Əzizovun oğludur. Eyni zamanda o, bir müddət əvvəl general Məhərrəm Əliyevin Pirşağıdakı bağ evini alıb. Jam.az yazır ki, İ.Əzizov orada bahalı quşlar saxlayır. Quşları kimsənin tutması, toxunması, hətta yaxınlaşması belə qadağandır. Əks təqdirdə, həmin şəxsin üzərinə Əzizovun “qoçu dəstəsi” göndərilir və məsələ “həll” edilir.

Ötən ilin mayında İsa Əzizov və dostları “Famous” karaoke klubunda qızları döyməklə gündəmə gəlmişdilər.

O zaman döyülmə faktı ilə bağlı Rusiya vətəndaşı Diana Babayeva və Elvina Əliyeva polisə ərizə ilə müraciət etmişdilər. Diana Babayeva həm də Rusiyanın Bakıdakı səfirliyinə müraciət etmişdi. Elvina Əliyevanın sözlərinə görə, İsa Əzizov onu döyüb və güclə maşına oturtmaq istəyirmiş. O zaman təhqirə məruz qalan aktrisa Diana Babayeva mətbuata açıqlamasında bildirmişdi ki, rəfiqəsi Elvina Əliyevanı döyən çempion İsa Əzizov qorxulu adamdır: **“İsa Əzizovun bəyənib rədd cavabı aldığı qızların həyatı təhlükədədir. Bir neçə dəfə həmin klubda qızlara qarşı kobudluq edib. İsa Əzizovun ailə üzvləri mənə zəng edərək ərizəmi geri götürməyi, görüşməyi təklif edirlər. İsanın barəsində başqa bir cinayət işi olduğundan şikayətçi olmamağımı xahiş edirlər. Onlara dedim ki, sizin böyükdən də, kiçikdən də, hər birinizdən qorxuram”.**

İndi məlum olur ki, həmin dövrdə şikayət əsasında cinayət işi başlasa da, hüquq-mühafizə orqanları İsa Əzizovu tapa bilməyiblər. Ərköyün “bazarkom” oğlu daha bir zorakılığa yol verəndən sonra isə məlum olub ki, əslində onu heç kim axtarmırmış. Sonuncu insidentdən sonra Nəsimi Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri Mahir İsgəndərov və İsa Əzizov müəyyən edilərək saxlanılıblar.

Aldığımız son məlumata görə isə artıq hər iki şəxs azad olunub. Qanunda edilən son dəyişikliklərə görə döyməyə görə cərimə nəzərdə tutulur. Odur ki, varlı-hallı məmur övladları, generalın qohumu və onun dostu artıq azadlıqdadır. 1000 manat cəriməni ödəyib sakitcə polis məntəqəsini tərk ediblər...

❑ **E.HÜSEYNOV**

# Jurnalistin ölümündə təqsirli bilinən futbolçunun vəkili: “Günahsızdır”

## Cavid Hüseynovun azadlığa buraxılması haqda vəsatət təmin olunmadı; Adəm Məmmədov: “O, Rasim Əliyevin ölümündən sonra Elşənə məsləhət görüb ki, get, polisə təslim ol....”

**Yanvarın 27-də ötən ilin avqustunda döyülərək öldürülən jurnalist Rasim Əliyevin işi üzrə həbs edilən şəxslərdən olan, “Qəbələ” futbol klubunun sabiq kapitanı Cavid Hüseynovun məhkəməsi başladı. Proses Səbayel Rayon Məhkəməsində hakim Elmar Rəhimovun sədrliyi ilə start götürdü.**

Məhkəmə, gözlənildiyi kimi, qalmaqallı başladı. Buna səbəb prosesə gələn çoxsaylı media nümayəndələrinin zala buraxılması və ardınca hakimin onlara qarşı etdiyi hörmətsizlik oldu. Belə ki, proses başlayan kimi futbolçunun vəkili Adəm Məmmədovun xahişi ilə jurnalistlərin hamısı zala buraxıldı. Lakin hakim məhkəmənin vaxtına 20 dəqiqə qaldığını bildirərək, zalı tərk etdi. Onun sözləri hər kəsin təəccübünə səbəb oldu. Çünki məhkəmənin təyin edildiyi vaxt idi. E.Rəhimov zalı tərk etdikdən sonra təqsirləndirilən şəxsin yaxınları başqa zala keçirildilər. Sonradan məlum oldu ki, proses başqa zalda olacaq. Məhkəmə nəzarətçiləri açıq şəkildə hakimin heç bir jurnalistin zala buraxılmaması ilə bağlı göstəriş verdiyini bildirdilər.

**20 dəqiqəlik prosesdən sonra hakimlər müşavirəyə getdilər. Vəkil Adəm Məmmədov məhkəmədə iki vəsatət verdiyini açıqladı:** “Həbs-qətimkan tədbirinin ləğvi və Cavid Hüseynovun barəsində bəraət verilməsi ilə bağlı vəsatət verdim. Eyni zamanda Bakı Ağır Cinayətlər Məhkəməsində gedən prosesin yekunlaşmasından sonra Cavid Hüseynovun məhkəməsinin başlanması ilə bağlı vəsatətim oldu. Hesab edirəm ki, Ağır Cinayətlərdə hazırda davam edən prosesin nəticəsi məlum olmadan, bu məhkəmənin başlaması düzgün deyil. Çünki o məhkəmənin nəticəsindən bu iş çox asılıdır. Məhkəmə tarixində ilk dəfədir ki, belə hal baş verir”.

**Vəkil növbəti prosesdə jurnalistlərin zala buraxılması üçün vəsatət verəcəyini də qeyd etdi:** “Çünki həqiqət üzə çıxmalıdır. Burda jurnalistlərin rolu az olmayacaq. Ümumiyyətlə, o vaxt olan sosial şəbəkə yazışmalarının hamısını mətbuata verəcəyəm. Çünki o yazışmalardan sonra aydın olur ki, Cavid Hüseynov bu məsələdə günahsızdır. Hətta mərhum Rasim Əliyevin ölümündən sonra o, Elşənə məsləhət görür ki, get, polisə təslim ol. Deyirlər ki, Cavid Hüseynov bu işdə təşkilatçı olub. Amma zərərçəkmiş tərəf də bilir ki, o, bu işdə təşkilatçı ola bilməz. Əgər belədirsə, o zaman ortada sübut olmalıdır. Bunlar yoxdur. Yazışmalarda belə bu hala rast gəlinmir”.

**A.Məmmədov futbolçunun işinin ayrıca icraata götürülməsinə də aydınlıq gətirdi:** “Zərərçəkmiş tərəfin nümayəndəsi Əsabəli Mustafayev bu işə diqqət yetirməyib. İstintaq bitəndən sonra Cavid Hüseynovun işi ayrı icraata götürülməyib. Diqqət yetirilmədiyindən, bu cür söz-söhbətlər yarandı. İş materialları ilə tanış olma mərhələsində, artıq Cavid Hüseynovun işi ayrılmışdı. Bizdə belə hallar olur. İş cinayət materiallarının içərisində təqdim olunur. Müdafiəçi bunu oxumalı idi. Amma oxumayıb. Olduğu kimi iş təqdim olunub. Sübutların qiymətləndirilməsində, iş materiallarında cinayət işinin ayrılması ilə bağlı qərar qəbul olunur. Prokurorluq ona görə bu barədə açıqlama yaydı ki, döyülmə ilə bağlı məlum video yayıldı. Zərərçəkmiş tərəfin vəkili işlə tanış olanda, artıq Cavidin işi ayrılmışdı. Qanunvericiliyin tələblərinə görə, bu işə birlikdə baxıla bilməz. O zaman işə birlikdə baxıla bilərdi ki, digər təqsirləndirilən şəxslərlə əlbir olması, sifariş verməsi ilə bağlı ittihamlar olardı. Ona tamam başqa ittiham veriblər. Burada ilk qanunsuzluğu ibtidai istintaq edib, etməkdə də davam edir. Hökm qüvvəyə minmədən heç kimə cinayətkar demək olmaz. Digər 5 nəfər barədə də hələ hökm qüvvəyə minməyib. Həmin şəxslər barədə qərar qüvvəyə minməyincə, Cavid barədə araşdırma aparılması belə düzgün deyil. Bu məntiqdir”.





Vəkilin geniş açıqlamasının ardından proses davam etdi və tez də yekunlaşdı. Məlum oldu ki, həbs-qətimkan tədbirinin bəraət qərarı ilə əvəzlənməsi barədə vəsatət təmin olunmayıb. Digər vəsatət isə baxılmamış saxlanılıb. Növbəti proses fevralın 10-da olacaq.

A.Məmmədov məhkəmənin sonu barədə bunları dedi: “Hakim hesab etdi ki, həbs-qətimkan tədbirinin dəyişdirilməsinə heç bir əsas yoxdur. Ağır Cinayətlərdəki prosesin yekunlaşmasından sonra Cavidin işi üzrə məhkəmənin başlanması ilə bağlı vəsatətimiz isə baxılmamış saxlanıldı. Cavidin qohumları da istəyir ki, jurnalistlər prosesdə iştirak etsinlər. Çünki səhərisi gün məhkəmənin qapalı olması bəzi söz-söhbətlərə səbəb ola bilər”.

Xatırladaq ki, jurnalist Rasim Əliyev avqustun 8-də bir qrup şəxs tərəfindən döyüldükdən sonra avqustun 9-da şəhərə yaxın xəstəxanada dünyasını dəyişib. Bununla əlaqədar altı nəfər həbs olunub ki, onlardan biri də Cavid Hüseynovdur. Amma iş üzrə ibtidai istintaqın sonunda futbolçunun barəsində iş digər beş nəfərdən ayrılıb. Onlar CM-in 126.3-cü (qəsdən sağlamlığa ağır xəsarət yetirmə ölümə səbəb olduqda) maddəsi ilə ittiham olunub. Cavid Hüseynov isə yalnız Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanması və ya törədilməsini bilib xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələri ilə təqsirləndirilir.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 20 (6341) 28 yanvar 2016

# Bankların bağlanması və birləşməsi nəyi dəyişəcək?

**2016-cı il başlanandan ölkə bankları bir-birinin ardınca bağlanmaqdadır. Ekspertlər bağlanacaq bankların sayının artacağını vurğulayırlar. Üstəlik, bankların birləşdirilməsi də artıq aktuallaşıb. Ekspertlər ilin sonuna qədər bankların sayının yarıbayarı azalacağını bildirirlər.**

## Əksər ekspertlər Mərkəzi Bankın gecikdiyini vurğulayır; sağlam olmayan bankların birləşdirilməsi daha böyük problemlər yaradacaq...




**Ekspert Vüqar Bayramovun** sözlərinə görə, il başlanandan dörd bankın bağlanması hələ son deyil: "Çünki hazırda Azərbaycanda elə bank və hətta banklar fəaliyyət göstərir ki, müştəri hətta əmək haqqı hesabından belə öz halal pulunu çıxara bilmir. Ev alqı-satqısı nəticəsində cari hesabındakı pula həsrət qalanların sayı da az deyil. Amma Mərkəzi Bank nədənsə belə bankların lisenziyasını ləğv etmir və əslində onlara "süni nəfəs" verməyə çalışır. Halbuki "axsayan bankları" zamanında ləğv edib bank sektorunun özünə nəfəs verməyə ehtiyac var".

**Ekspert Əkrəm Həsənov isə qeyd edib ki, Mərkəzi Bank əslində gecikib:** "Nəhayət ki, Mərkəzi Bank bankların bağlanması və birləşdirilməsi prosesinə start verdi. Əlbəttə, çox gecikib, amma yenə də düzgün addımdır. Qeyri-sağlam banklar ləğv edilməli, sağlam, lakin çətinliyi olan banklar isə birləşdirilməlidir".

**Ekspert "banklar niyə məhz indi ləğv edilir?"- fikrinə də aydınlıq gətirib:** "Ona görə ki, yaxında "Əmanətlərin tam sığortalanması haqqında" Qanun qüvvəyə minəcək. Həmin andan əmanətlər 100 faiz sığortalanmış və deməli, bağlanan bankların əmanətçilərinə əmanətlər tam ödənilməli olacaq. Buna yol verməmək üçün Mərkəzi Bank bankları qanun qüvvəyə minənədək ləğv edir. Başqa sözlə, bağlanan banklar üzrə əmanətlər yalnız 30 000 manat həddində kompensasiya ediləcək. Digər əmanətlər bir qayda olaraq, batacaq. Başqa sözlə, banka limitdən artıq əmanət, kredit qoymuş şəxslər əlini pulundan üzsün. Yeri gəlmişkən, banklar əhalidən və sahibkarlardan kreditlərin qaytarılmasını tələb edəndə deyirlər ki, heç elə də şey olar, krediti götürmüsən, indi qaytar da, qaytarmasan səni məhv edərik. Bəs necə olur ki, bankda pul bata bilər və buna görə heç kəs məsuliyyət daşımır?"

**Ekspertin sözlərinə görə, bağlanan "Gəncəbank", "Yunayted Kredit Bank" və "NBCBank"da sığortalanmış əmanətlərin miqdarı cüzidir:** "Başqa sözlə, Əmanətlərin Sığortalanması Fondunun üzərinə elə də böyük yük düşməyəcək. Mərkəzi Bankın rəhbərliyi üçün əsas məsələ də məhz budur. Çünki sözügedən fondun vəsaitini faktiki məhz Mərkəzi Bank idarə edir. Fondun nəyə qadir olduğunu hamıdan yaxşı bilir və müflisləşməsini istəmir. Lakin təbii ki, əslində bağlanmalı olan bankların sayı çoxdur. Mərkəzi Bank deyir ki, bu bankları "məcmu kapitalın minimum məbləği tələbinə əməl etmədiyinə, kreditorları qarşısında öhdəliklərini icra edə bilmədiyinə, cari fəaliyyətini etibarlı və prudensial qaydada idarə etmədiyinə görə" bağlayıb. Bankların ən azı yarıdan çoxu bu meyarlara uyğun gəlir, buna görə də maliyyə hesabatlarını gizlədirlər. Bəs onlar niyə ləğv olunmur? Ona görə ki, onlarda sığortalanmış əmanətlərin miqdarı çoxdur".

**Ə.Həsənovun sözlərinə görə, banklar "Əmanətlərin tam sığortalanması haqqında" Qanun qüvvəyə minənədək bağlanacaq:** "Sonra bağlanma olmayacaq. Əks təqdirdə, fond bütün əmanətləri kompensasiya etməli olacaq. Ləğv ediləcək banklarda sığortalanmış əmanətlərin miqdarı yenə də çox az olacaq".

**O, hansı bankların birləşdiriləcəyini də açıqlayıb:** "Məntiqlə sağlam, lakin çətinliyi olan banklar birləşdirilməlidir ki, çətinliklərin öhdəsindən birgə gələ bilsinlər. Ümid edək ki, belə də olacaq. Lakin əmin olmayaq. Çünki yuxarıda vurğuladığım kimi, Mərkəzi Bankın rəhbərliyinin əsas məqsədi Əmanətlərin Sığortalanması Fondunu itkilərdən qorumaqdır. Buna görə də böyük ehtimalla Mərkəzi Bank qeyri-sağlam bankların da birləşdirilməsinə gedə bilər ki, gözdən pərdə assın. Ona görə ki, qeyri-sağlam bankların bəzisində sığortalanmış əmanətlərin miqdarı çox böyükdür. Deməli, belə bankların ləğvi Əmanətlərin Sığortalanması Fondunu müflis edə, yəni Mərkəzi Bankın yarıtmaz fəaliyyətini nümayiş etdirə bilər". **Ə.Həsənov qeyd edib ki, qeyri-sağlam bankların birləşdirilməsi yekunda faciə ilə qurtaracaq:** "Lakin vaxt udmağa, müəyyən dövr ərzində hamını aldatmağa, nüfuzu qorumağa və vəzifədə qalmağa xidmət edə bilər. Vaxt udmaq isə Mərkəzi Bankın mövcud rəhbərliyi üçün olduqca vacibdir. Çünki aydın məsələdir ki, yaxında istefaya göndəriləcək və bundan sonrakı problemləri xələfinin üzərinə yıxa biləcək".

**Ekspertin sözlərinə görə, əmanətçilər aldanmamalıdır:** "Hazırda bankların bir çoxu əmanətləri qaytarmır. Lakin Mərkəzi Bank onları ləğv etmir ki, əhali sığortalanmış əmanətlər üzrə kompensasiya alsın. Qorxuram ki, bundan sonra da əhalinin başını onunla qatsınlar ki, "bu banklar birləşir, ona görə də hələlik gözləyin, qoy birləşsinlər, əmanətləri sonra birləşmiş yeni bank özü qaytaracaq". Buna yol verməmək olmaz. Belə olsa, bilin ki, bizi aldadırlar və birləşdirilən banklar əslində qeyri-sağlamdır, sadəcə, vaxt udmaq və əmanətləri kompensasiya etməmək üçün bizimlə oyun oynayırlar. Əslində isə bu halda belə olmalıdır. Bankların birləşməsi üçün Mərkəzi Bankın razılığı tələb olunur. Necə ki, bu gün Mərkəzi Bankın sədri bizə bəyan etdi ki, "Dəmirbank" və "AGBank" birləşdiriləcək. Bu o deməkdir ki, Mərkəzi Bank bu iki bankı sağlam, lakin müəyyən çətinliklərlə üzləşmiş hesab edir. Lakin məsələn, tutaq ki, "Dəmirbank" əmanətləri artıq qaytara bilmir. Bu halda Mərkəzi Bank "Dəmirbank"a kredit verməlidir ki, o, öhdəliklərini icra edə bilsin. Yox, əgər Mərkəzi Bank bunu etmirsə və əmanətçilər pulunu "Dəmirbank"dan götürə bilmirsə, deməli, bizi aldadırlar. Məntiq sadədir: Mərkəzi Bank "Dəmirbank"ı sağlam hesab edirsə, niyə ona kredit vermir, niyə ona etibar etmir? Deməli, əmanətçilərə deyir ki, siz etibar edin və illərlə çəkəcək birləşmə prosesinin bitməyini gözləyin, amma mən Mərkəzi Bank olaraq "Dəmirbank"a etibar etmirəm. Buna görə də diqqətli olun: birləşdirilən bank əmanətlərinizi qaytara bilmirsə, deməli, əslində o ləğv edilməli idi və sizi, sadəcə, vaxt udmaq üçün aldadırlar".

**Ekspert Qubad İbadoğlu isə qeyd edib ki, bank fəaliyyətinə nəzarəti həyata keçirmək üçün Mərkəzi Bankın alternativləri tükənir:** "Hazırkı situasiyada baş verən bankların ləğvi və birləşməsi prosesi düzgün idarə olunarsa və banklar yenidən strukturlaşdırılarsa, bu, son nəticədə bankların sağlamlaşmasına gətirib çıxara bilər. Yox, əgər bu proses oliqarxlar arasında bank kapitalı uğrunda qeyri-sağlam mübarizəyə gətirib çıxaracaqsa o halda bundan bütövlükdə maliyyə-bank bölməsi ziyan çəkəcək. Odur ki, indiki həssas zamanda bankların bağlanmasına və birləşdirilməsinə dair geniş informasiyalara, xüsusilə də səhmdarların və əmanətçilərin asan çıxışı təmin olunmalıdır. Hesab edirəm ki, "parnik bankları"nın konsolidasiyası və ləğvetməsi, eləcə də özünü müflis elan etməsi prosesləri davamlı olmalıdır. Bank kapitalının təmərküzləşməsindən sonra başlayacaq növbəti mərhələdə rəqabətli mühiti təmin etmək üçün bu bazara xarici kapitalın sərbəst girişinə olan bütün inzibati və hüquqi baryerlər aradan qaldırılmalıdır".

❑ **RÖYA**




# "Kredit milyonçuları" yenidən həbs oluna bilər

## Maliyyə nazirinin açıqlaması "toksik kreditor"ların cəzadan yayına bilməyəcəyinin anonsudur

**Maliyyə naziri Samir Şərifov bir neçə gün öncə Beynəlxalq Bankdakı böyük pul oğurluqlarından danışıb. Nazir ANS-ə müsahibəsində deyib ki, ölkə prezidentinin sərəncamına əsasən Beynəlxalq Bankın sağlamlaşdırılması və özəlləşdirilməyə hazırlanması üçün tədbirlər görülür. S.Şərifov bankdan kredit şəklində alınan, geri qaytarılmayan kreditlərin qaytarılması üçün görülən işlərdən danışıb: "Bu bankda mənimsəmə halları müşahidə olunub. Biz bu gün bu bankın toksik (pis) aktivlərini, hansılar ki, kreditlər verilib, pullar oğurlanıb bunu açıq şəkildə etiraf etməliyəm, belə hallar da var. Əlaqəli şəxslərə dolaylı yollarla pullar verilib, o pullar da çıxarılıb lazım olmayan işlərə sərf olunub. Biz bu gün bu işlərlə məşğuluq. Borcluların pulları qaytarması işlərini davam etdiririk. Bu baxımdan hüquq-mühafizə orqanları ilə birlikdə - Daxili İşlər Nazirliyi və Baş Prokurorluqla işlər davam etdirilir. Çalışırıq ki, pul alan adamlar öz məsuliyyətlərini dərk edərək banka borclarını qaytarsınlar".**

Nazirin sözlərindən aydın olub ki, krediti qaytarmayanların zavod və fabrikləri əllərindən alınaraq işlək duruma gətirilməklə satılacaq. Samir Şərifovun dediklərini "kredit oliqarx"larının yeni həbslərinin olacağının anonsu kimi qəbul edənlər də var.

Maliyyə nazirinin adlarını çəkmədiyi, "toksik kreditorlar" adlandırdığı kəsimin bir çox nümayəndəsi, həmçinin Beynəlxalq Bankın sədri Cahangir Hacıyev bu gün həbsdədir. Bankdan milyonlar götürüb qaytarmayan eks-deputat Dünyamin Xəlilov, baş nazirin keçmiş 1-ci müavini Abbas Abbasovun qardaşı Nadir Abbasov, "Qara polkovnik" kimi tanınan mərhum Fətulla Hüseynovun oğlu Adil Hüseynov, Orta Asiya ölkələrindən birində Azərbaycanın səfiri olan şəxsin Kamal adlı qardaşı, bankın İdarə Heyətinin sabiq rəhbəri Cahangir Hacıyevin bacanağı, "İntertabakko" Zaqatala Tütün Emalı Zavodunun direktoru İsmayıl Hidayətzadə, Beynəlxalq Bankın Mərkəz filialının keçmiş direktoru İlqar Abdullayev, bankın Nəqliyyat filialının keçmiş direktoru Kənan Orucov, Beynəlxalq Bankın inzibati binaların mühafizəsini həyata keçirən "İnter Security" MMC-nin baş direktoru İbrahim Hüseynov, "Azərinşaatservis" MMC Müşahidə Şurasının sədri Arif Həsənov, "Azərinşaatservis" MMC-nin təsisçisi olduğu "Trek İnvest" SC-nin direktor əvəzi Əli Əlişov, "İnter Glass" ASC-nin direktoru Fariz Muradov və digərləri həbs alınıblar. Saxlanılanlar arasında neft oliqarxı, "PNN Group"un təsisçisi, Azərbaycanda "KFC" restoranlar şəbəkəsinin qurucusu Nizami Piriyev də vardı. Lakin Piriyev dövlətin pulunu geri qaytardığı üçün azad edilib.

Tutulanlar sırasında adlarına böyük miqarda kreditlər rəsmiləşdirilən, lakin özləri quru maaşa işləyən Beynəlxalq Bank işçiləri, Cahangir Hacıyevin saysız-hesabsız şirkətlərində çalışanlar da var. Bununla belə, kredit alıb özlərini cəmiyyətə biznesmen kimi sırıyanlar da az deyil. Adamlar banka layihə təqdim edib bir neçə yüz milyon manat kredit alıblar. Onların hazırda həbsdə olan Beynəlxalq Bankın sədri Cahangir Hacıyevə necə yol tapmaları, ona "şapka"nı hansı formada ötürdükləri də araşdırma mövzusudur. Fakt odur ki, adamlar dövlətin payı olan bankdan 100 milyonlarla kredit götürüblər və çevrilib oldular uğurlu biznesmen. Pulları açıq-aşkar, böyük acgözlüklə mənimsəməyə, talan etməyə girişiblər. Dəbdəbəli ofislər, təyyarələr, Almaniyanın avtomobil zavodlarında xüsusi sifarişlə hazırlanan avtomobillər alıblar. Beləcə, real işlər görən iş adamlarının arasında özlərinə yer tutublar. S.Şərifovun demədiyi bir məqam da odur ki, bu gün də Beynəlxaq Bankdan milyonlarla kredit almış, lakin azadlıqda qalan şəxslər var. Bunlardan biri də Fransa vətəndaşı Xaqani Bəşirovdur.

Qeyd edək ki, "Beynəlxalq Bank" işi üzrə istintaqa cəlb edilənlər sırasında "Avesta" konserninin rəhbəri Hacı İbrahim Nehrəmli də var. "Xəzər İsland" layihəsini gerçəkləşdirmək üçün ona Beynəlxalq Bankdan 430 milyon manat kredit verilib. Hacı İbrahim Nehrəmli istintaqa cəlb ediləndən sonra kreditin bir hissəsini qaytarıb. Lakin böyük bir hissəsi də ödənməmiş qalıb.

❑ **E.HÜSEYNOV**



# Nazlı milli istehsal

Zamin HACI
zaminhaci@gmail.com

**Əgər fikir verdinizsə, dövlət başçısının məmurları Naxçıvan avtomobili almağa çağırması əslində məcburi bir şey deyildi, cümlə də "tövsiyə edirəm" şəklində qoyulmuşdu. Məmurun şəxsi avtomobili ilə işimiz yoxdur, ancaq hər halda yerli istehsalın dəstəklənməsi aksiyası səmimidirsə, həmin tövsiyə əmr, sərəncam şəklində ola bilərdi və məmurların xidməti avtomobillərinə tətbiq edilməli idi.**

Qoy əmr verilsin, bütün icra hakimləri, nazirlər, prokurorlar, rəislər öz bahalı xarici xidməti maşınlarını satsınlar, həmin pulu dövlət büdcəsinə keçirsinlər və "NAZ-Lifan" alsınlar. Almırlar axı. Deməli, bu da növbəti populizmdən başqa bir şey deyil, ömrü heç bir həftə çəkməyəcəkdir. Adətən neft pulu çox olanda belə populizmləri bir neçə ay gündəmdə fırlatmaq mümkün olurdu. İndi çətindir. Telekanalizasiya zəhmətkeşləri, "ictimaiyyət nümayəndələri", "paytaxt sakinləri" ağızlarını açıb dayanıblar. Özü də aclığa-susuzluğa öyrəncəli müxalifətə ağlınız getməsin, bunlar çox namərd tayfadır, "qa" deyəndə ağızlarına ət atmasan, "qu" deyəndə qablarına su tökməsən adamı parçalayarlar.

Ümumiyyətlə, bu məsələyə ən düzgün münasibət Vaqif Mustafayevin "Fransız" kinosunda qoyulubdur. Orda zorla sünnət edilən qəhrəman deyirdi: "Öz millətimə qurban olum. Amma siz də millət olun da!". Biz Azərbaycan məhsulu, yerli istehsalı almağa dünəndən hazırıq, ancaq bu istehsal da gərək olsun. Olmayan bir şeyi almaq çox çətindir. Elə bil milli istehsal özünü o maşının adı kimi nazlı aparır, hardasa gizlənir, yaşmaqlanır, biz görə bilmirik.

Bahalaşma təzə başlayanda "Çiko" tumları satışdan yoxa çıxdı. Niyə? Çünki bunun xammalını - günəbaxan toxumunu tamamilə Rusiyadan alıb gətirirlər, yeni qiymətə uyğunlaşdırmaq lazım gəlmişdi. Adi corab tikə bilməyən, aftafa buraxmayan dövləti necə "yerli məhsula" öyrəşdirmək olar?

Hətta o Çindən bütün hissələri gətirib boş ərazidə yığılan "NAZ-Lifan" karikatur maşınları da bizim tələbata cavab vermir. Çox az sayda imiş. Bəs qalanlarını hansı "yerdən" çıxaraq?

Bunlar darıxdırıcı söhbətlərdir. Mən başqa məsələdən yazım. Telekanalizasiyalarımızdan birində nəsə moda verilişi qayırırlar, mən internetdə o verilişin tənqidinə baxdım. Süjet qoyublar, Türkiyədə aktrisalıqla məşğul olmuş bir həmyerlimiz millətə ağıl öyrədirdi. Özü də Türkiyə ləhcəsində. Maraqlıdır ki, bəzi ziyalılarımız buna "türkcə danışmaq yaxşıdır, rus beyinlilər buna etiraz edir" tipində don geyindirir. Mənasız yanaşmadır. Birincisi, o aparıcı türkcüdürsə, o zaman İbrahim Məmmədovu Almaniya kansleri adlandıra bilərik. İkincisi, şəxsən mən Türkiyə türkcəsindən dilimizə söz gətirməyə pis baxmıram, ancaq bunun qarşılığı yoxdursa, dilimizdəki söz ərəb-fars mənşəlidirsə! Əks halda Azərbaycanda efirdə "mən" yerinə "bən" demək düşüklük, bambılıqdır - yumşaq yazsam. Üçüncüsü, dahi yazıçımız Mirzə Cəlilin bu mövzuda "Anamın kitabı" adlı möhtəşəm tragikomediya əsəri var, yaxşı olar həmin saxta türkçü ziyalılar bu əsəri oxusunlar. Həmin əsərdən yerinə düşən parçanı burda dərc etməkdən məmnun olduğumu bildirirəm:

**"Səməd Vahid.** Çocuq ağlamasın, bən şeir yazıyorum (gəlib oturur yerində və Rüstəm bəyə). Dadaş, ədəbiyyatdan lazımsa, nümunə olaraq bir şeir deyim, yaz lüğətə.

**Rüstəm bəy.** Nə eybi var. Amma bu şərt ilə açıq olsun. Yoxsa, doğrusu, mən sənin dilini qanmıram.

**Səməd Vahid** (kağızlarını əlləşdirir və bir yerdən şairanə oxuyur):

***ənzari-şəbabımda pədidar olan, ey zill!***
***Ey zilli-tüluat, oluyorsun yenə peyda!***

**Rüstəm bəy** ("eh" eləyib, çönüb gedir öz stoluna tərəf). O dili mən özüm qanıram ki, lüğətə də yazam?

Səməd Vahid (durur ayağa və kağızlarını yığışdırır ki, getsin). Dadaş, mən söylədiyim "Faust"dan türk dilinə tərcümədir. Bizim müəllimlər bunu indi bu saat məktəblərimizdə balaca çocuqlara öyrədiyorlar. Sən ki, bunu qanmıyorsan, sənayei-nəfisədən bibəhrə olmağını müşahidə ediyorsın, zənnindəyim, əfəndim. (Səməd Vahid acıqlı, kağızı qəfəsənin içinə atıb, durur gedir)".

Dili qorumaq da, sanıram yerli istehsala bir dəstək örnəyidir. Ancaq öz xalqının dilində danışa bilməyən baş nazirin ölkəsində necə yerli istehsal qurulacaq, məlum deyil.

# Müxalifət növbəti dəfə böhrandan çıxmağın yollarını axtardı

## Ondan artıq müxalifyönlü partiya və təşkilatın müzakirələri bir neçə saat davam edib...

**Yanvarın 27-də ölkənin bir sıra müxalifət partiyası və təşkilatının təmsilçiləri yenidən bir araya gələrək ölkənin böhranlı vəziyyətdən çıxarılması üçün növbəti məsləhətləşmələr aparıblar. Tədbirdə ondan artıq müxalifət lideri iştirak edib. Musavat.com xəbər verir ki, toplantıda ölkənin böhranlı durumu və böhrandan çıxmaq yolları müzakirə olunub. Tədbir bir neçə saat davam edib. Tədbirdə iştirak edən müxalifət liderləri bildiriblər ki, görüşlərin davam etdirilməsi də qərara alınıb.**

ADP sədri Sərdar Cəlaloğlu məsələ ilə bağlı musavat.com-a bildirib ki, toplantıda yanvarın 24-də keçirilən tədbirin nəticələri də müzakirə edilib: "Orada səsləndirilən fikirlər və ölkənin böhrandan çıxarılması barədə ideyalar ətrafında müzakirələr aparıldı. Müzakirələr intensiv getdiyinə görə, iclasın gələn həftəyə qədər davam etdirilməsi qərara alındı".

**S.Cəlaloğlu öz təkliflərini də diqqətə çatdırıb:** "Mən təkliflərimi ilk toplantıda da vermişəm. Çox güman ki, böhran başa çatana qədər də başqa bir təklif ağlıma gəlmir. Bu da mənim subyektiv fikrimdir. Bütövlükdə böhranın fəlsəfəsi ilə bağlıdır. Böhran sözünün mənası çevriliş deməkdir. Əgər bir ölkə böhrana düşübsə, o deməkdir ki, faktiki olaraq ölkədə çevriliş baş verib. Çevriliş hakimiyyətin dəyişməsi deməkdir. Amma hakimiyyət formal olaraq yerində qalıb. Təklif nə olmalıdır? Baş verən formal vəziyyətlə faktiki vəziyyəti uyğunlaşdırılması. O deməkdir ki, böhranın təbiətinə uyğun olaraq hakimiyyət dəyişikliyi baş verməlidir. Belə hesab edirəm ki, Azərbaycanda hakimiyyətin total dəyişməsi yanlış olardı. Çünki böhranı dərinləşdirərdi. Ona görə də biz yeni parlament seçkiləri, koalisiya hökumət və ölkədə konstitusiya və qanunvericilik sisteminin dəyişdirilməsini, böhrana uyğun dəyişdirilməsini yeganə düzgün yol hesab edirik. Bunun alternativi yoxdur. Çünki böhrana düşən ölkələrin təcrübəsi bu yolla böhrandan çıxmağın düzgün olduğunu göstərir. Qeyri-demokratik ölkələrdə böhrandan hakimiyyət dəyişikliyi olmadan çıxmaq mümkün deyil. Nəzəriyyə özü bunu sübut edib ki, böhranın özünün fəlsəfəsi faktiki olaraq çevrilişin baş verdiyini göstərir. İndi ona görə də hadisələri faktiki hala uyğunlaşdıraq. Formal vəziyyəti dəyişdirək. Bu formal vəziyyətin dəyişilməsi də hakimiyyətin dəyişdirilməsidir. Bu, iki yolla ola bilər. Xoşluqla ola bilər, hakimiyyət siyasi reformalara gedə bilər. Ya əgər bunu etməyəcəksə, gec-tez böhranın nəticəsi olaraq sosial güc tərəfindən dəyişdiriləcək. Bunun başqa yolu yoxdur".



Pənah Hüseyn

**KXCP sədri Mirmahmud Mirəlioğlu isə qeyd edib ki, gərgin keçən bir neçə saatlıq müzakirələrin yekunu olaraq yeni toplantı bir həftə sonraya təyin edilib:** "Bu günkü müzakirələr davam etdiriləcək. Müzakirə bitməyib. Növbəti həftə, fevralın 3-də müzakirələr davam etdiriləcək".

**AXP sədri Pənah Hüseyn isə bildirib ki, bu, müxalifət partiyalarının yanvarın 24-də yaratdığı İşçi Qrupunun iclası idi:** "Əvvəlki toplantının nəticələri müzakirə olundu. İctimai-siyasi vəziyyət dəyərləndirildi. Bundan sonrakı addımların atılması ətrafında fikir mübadiləsi aparıldı. Böhran dövründə antiböhran qurumunun yaradılması və bunun təşkilatlanması təklifləri oldu. Növbəti böyük toplantının müddətinin təyin olunması məsələsi ətrafında da məsləhətləşmələr oldu. Yəqin ki, növbəti həftənin üçüncü günü bu məsələlərin bəziləri müzakirə olunacaq".

❑ **Röya RƏFİYEVA**

## "Freedom House"dan biabırçı hesabat - Qarabağ "azad ölkə" siyahısında

# Azərbaycan yenə qeyri-azad ölkə elan edildi

## "Freedom House" ölkəmizi təməl azadlığının ən çox pozulduğu on ölkə siyahısına saldı; Azərbaycanın pisləşən reytinqi onun kredit alma imkanlarına da mənfi təsir edə bilər...

**Vətəndaş və siyasi azadlıqlar üzrə nüfuzlu beynəlxalq qeyri-hökumət təşkilatlarından olan "Freedom House" 195 ölkədə təməl azadlıqların durumu ilə bağlı "2016-cı ildə dünyada azadlıqlar" adlı hesabatını açıqlayıb. Sənədə görə, həmin ölkələrdən yalnız 86-sı azad sayılır, 50 regionda isə vəziyyət böhranlı hesab edilib.**

Bu barədə məlumat yayan AzadlıqRadiosu xəbər verir ki, vətəndaş və siyasi haqların durumunun ən aşağı səviyyədə olduğu ölkələr kimi Suriya, Somali, Şimali Koreya, Özbəkistan, Səudiyyə Ərəbistanı, həmçinin də Yaxın Şərqin və Şimali Afrikanın digər dövlətlərinin adı çəkilib.

Söz-ifadə azadlığının ən çox pozulduğu on ölkə siyahısına Əfqanıstan, Azərbaycan, Belarus, İran, İraq, Qazaxıstan, Rusiya, Tacikistan, Türkmənistan və Özbəkistan daxil edilib. Gürcüstan, Ermənistan, Bosniya və Hersoqovina qismən azad, Xorvatiya və Serbiya isə azad ölkələr kimi qeyd olunub.

Belarus beynəlxalq birlik üçün bu dəfə daha cəlbedici olub. "Ancaq ölkə daxilində situasiya insan haqları sahəsində real dəyişikliklərə məruz qalmayıb. Bunu son prezident seçkiləri də təsdiq edir - hansı seçkilər ki, nə azad, nə də ədalətli olub" - hesabatda vurğulanır.

Sənəd müəlliflərinə görə, 2015-ci ildə dünyada azadlığın səviyyəsi aşağı olsa da, 195 ölkədən 86-sı, yəni 74%-i hələ ki azad ölkə olaraq qalır, 59 ölkə isə qismən azaddır. Yerdə qalan digər 50-si qeyri-azad ölkələrdir. Təşkilatın qənaətincə, son 10 il ərzində 105 ölkədə azadlığın səviyyəsi aşağı enib, 61 regionda isə yaxşıya doğru dəyişib.

***

Maraqlıdır ki, "Freedom House" Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində də "siyasi və vətəndaş hüquqları" qiymət verib. Sənədə görə, Ermənistan kimi "Dağlıq Qarabağ da qismən azad ərazidir". Başqa sözlə, separatçı rejimin nəzarətindəki ərazidə azadlıqların səviyyəsi Azərbaycanın yerdə qalan hissəsindəkindən yaxşı hesab edilib.

Əlbəttə ki, bu məqam təşkilatın gəldiyi ümumi nəticəyə və qərəzsizliyinə müəyyən qədər kölgə salır. Çünki işğal edilmiş, yerli azərbaycanlı əhalinin etnik təmizlənməyə məruz qaldığı ərazidə heç bir siyasi-vətəndaş haqlarının təmin olunmasından söhbət gedə bilməz. Bütövlükdə Azərbaycana gəlincə, ölkəmizdə demokratiya və təməl insan haqlarının durumunun pis olduğu illərdir digər mötəbər təşkilatlar tərəfindən də bəyan edilməkdədir.

Azərbaycan haqda belə neqativ mövqeyin formalaşması və möhkəmlənməsinə şübhə yox ki, illərdir öz həllini tapmayan siyasi məhbus problemi, yerli və böyük seçkilərin mütəmadi saxtalaşdırılması, KİV-lər üzərində hökumətin güclü nəzarəti həlledici təsirin göstərir.

Bu xüsusda 2015-ci ildə keçirilmiş parlament seçkilərinin hətta beynəlxalq müşahidəyə belə layiq bilinməməsi, yeni parlamentin tərkibinə bircə müxalifətçi deputatın da buraxılmamasını yada salmaq olar. Habelə, Avropa İnsan Haqları Məhkəməsinin azadlığını qeyd-şərtsiz tələb etdiyi dustaqlar, məhbus jurnalistlər də da daxil, siyasi məhbusların israrla həbsdə saxlanması ölkəmiz haqda neqativ imici gücləndirən amillərdir.

Bu isə istər-istəməz əsas problemimiz olan Dağlıq Qarabağ, erməni işğalı məsələsində dilimizi gödək, diplomatik səylərimizi kəsərsiz edir, demokratik dünyada gerçək dostlarımızın və müttəfiqlərimizin sayını azaldır, üstəlik, həqiqi dost-müttəfiqlərin dəstək imkanları zəifləyir. Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) son qış sessiyasında ölkəmiz üçün prinsipial əhəmiyyət kəsb edən Qarabağ qətnaməsinin cəmi 4 səs fərqi ilə rədd edilməsinin bir səbəbi də əslində burada axtarılmalıdır - dostlarımızın yetərli sayda olmamasında.

***

Əlavə edək ki, "Freedom House"un budəfəki hesabatı Azərbaycan üçün olduqca həssas bir dönəmə təsadüf edir. Məsələ ondadır ki, Azərbaycan düşdüyü hazırkı iqtisadi borandan çıxmaq, prezident İlham Əliyevin də haqqında çox danışdığı uğurlu iqtisadi islahatlar aparmaq üçün beynəlxalq maliyyə qurumlarına müraciət etməli olacaq. Ölkənin mənfi imici isə onun krediti qapatmaq qabiliyyəti ilə bağlı göstəricisinə neqativ təsir göstərə bilər.

Bundan başqa, bəllidir ki, xarici sərmayədarlar bir qayda olaraq, fundamental azadlıqların, o cümlədən biznes və mülkiyyət azadlıqlarının təmin edilmədiyi avtoritar ölkələrə ciddi maraq göstərmir, ora yatırım qoymaqdan çəkinirlər. Hələ vaxt və şans tam itirilməyib.

**"Freedom House"un hesabatını dəyərləndirən YAP-ın Siyasi Təhlil və Proqnozlaşdırma şöbəsinin müdiri, Milli Məclisin deputatı Aydın Mirzəzadə bildirdi ki, təşkilatın hesabatı kifayət qədər qüsurludur:** "Azərbaycanın işğal olunmuş ərazisinin ayrıca dövlət kimi göstərilməsində maraqlı olan qüvvələr də bu gün "Freedom House"u Azərbaycan haqqında mənfi rəy verməyə sövq edirlər". Deputatın fikrincə, artıq "Freedom House"un hesabatları nə ictimai rəy, nə də beynəlxalq reaksiya doğurmur: "...Freedom House" siyasi məqsədlər güdən siyasi təşkilata çevrilib. Halbuki öz bəyanatına görə, qiymətləndirmələri maraq, rəyləri isə reaksiya doğuran bir təşkilat da ola bilərdi. Lakin "Freedom House" bu şansı çoxdan əldən çıxarıb".

❑ **Siyasət şöbəsi**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 20 (6341) 28 yanvar 2016



# Minsk Qrupu AŞ PA-da hədəfinə çatdı; rəsmi Bakı həmsədr ölkələrə etirazlar hazırlayır

**Avropa Şurasının Parlament Assambleyasında (AŞ PA) “Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılıq hallarının artması” adlı hesabatın qəbul olunmaması Azərbaycana qarşı ikili standartlarının növbəti təzahürü və erməni işğalına bəraət qazandırılmasının növbəti təzahürü kimi qiymətləndirilir.**

## Hikmət Hacıyev: “Təəssüf edirik ki, həmsədrlərin 22 yanvar tarixli açıqlaması prosesə çox mənfi təsir göstərdi”
## Azay Quliyev: “Həmsədrlər ermənilər üçün lobbiçilik etdi”
## Elxan Mehdiyev: “Qətnamə layihəsinin qəbul olunmaması Fransa və ABŞ hökumətlərinin təsiri ilə olub”

Sözügedən qətnamə layihəsini AŞ PA-nın Siyasi məsələlər komitəsinin keçmiş məruzəçisi, britaniyalı parlamentar Robert Valter hazırlasa da, yenidən deputat seçilə bilmədiyi üçün sessiyaya qatıla bilməmişdi. Azərbaycan ərazilərinin işğalının rəsmiləşdirilməsinə xidmət edən sənədin qəbuluna imkan verilməməsinə Azərbaycanda sərt təpkilər var. AŞ PA-dakı nümayəndə heyətinin bəzi üzvləri isə sənədin keçməməsi faktını görünməmiş saxtakarlıqla əlaqələndirib.

**Artıq rəsmi Bakı da AŞ PA-dakı haqsızlığa reaksiya verub. XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev “Yeni Müsavat”a bildirdi ki, XİN iki qətnamədən birinin qəbul olunması istiqamətində fəaliyyətini bundan sonra da davam etdirəcək:** “Kimlərsə deyir bu, XİN-in fəaliyyətsizliyidir. İstənilən halda hər bir fikrə hörmətlə yanaşırıq, amma istənilən fikir dəlillərə əsaslanmalı və substantiv xarakter daşımalıdır. Bu fikri səsləndirənlər ilk növbədə AŞ PA-nın fəaliyyəti ilə tanış olmalıdırlar. AŞ PA-da üzv dövlətlərin qanunverici orqanlarını təmsil edən və tamamilə fərqli siyasi baxışlara malik olan millət vəkilləri təmsil olunur. Onların baxışları heç də həmişə ölkələrin rəsmi siyasəti ilə üst-üstə düşmür”.

**XİN sözçüsü sessiyanın Azərbaycan üçün uğurlu olduğunu da bildirdi:** “Azərbaycanın həmsərhəd bölgələrinin əhalisinin qəsdən sudan məhrum edilməsi adlı qətnamə qəbul edilib. Bu qətnamədə isə çox vacib 3 prinsip var. Xüsusilə də Ermənistan tərəfindən Azərbaycana qarşı işğal və təcavüzün yol verildiyi təsbit olunub. ”Azərbaycanın sərhəd rayonlarının əhalisinin qəsdən sudan məhrum edilməsi” adlı qətnamədə AŞ PA Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ və digər ətraf əraziləri işğal etməsi nəticəsində bölgədə yaşayan Azərbaycan vətəndaşları üçün yaranan humanitar və ətraf mühit problemlərini pisləyir. Assambleya hesab edir ki, qəsdən süni ətraf mühit böhranının yaradılması “ekoloji təcavüz” və bir dövlətin digər dövlətə qarşı ekoloji fəlakət zonalarının yaradılması, habelə orada yaşayan əhali üçün normal yaşam şərtlərinin qeyri-mümkün edilməsi məqsədi güdən düşmənçilik hərəkəti kimi qiymətləndirilməlidir. Eyni zamanda sənəddə assambleya Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərindən birində yerləşən Sərsəng su anbarında 20 ildən artıq dövr ərzində mütəmadi baxım işlərinin aparılmaması səbəbindən bunun bütün ətraf ərazilər üçün təhlükə yaratdığını qeyd edir. Qətnamədə Ermənistan hakimiyyətinə su resurslarından siyasi təsir və ya təzyiq vasitəsi kimi istifadə etməyi dayandırmağa və kəskin humanitar problemlərini nəzərə alaraq, Ermənistan silahlı qüvvələrinin ərazidən dərhal çıxarılmasına çağırış edilir. Həmçinin qətnamədə assambleya tərəfindən bu hesabatın hazırlanması prosesində Ermənistan parlament nümayəndə heyəti və hakimiyyətinin əməkdaşlıq etməməsi faktı kəskin şəkildə pislənilir. Ermənistanın bu kimi davranışının Avropa Şurasının tamhüquqlu üzvü kimi üzərinə götürdüyü öhdəliklərinə uyğun gəlmədiyi qeyd olunur. Təəssüf ki, məruzəçi Robert Volterin hazırladığı və “Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması” adlı məruzə, eləcə də onun əsasında hazırlanmış qətnamə layihəsi qəbul edilməmişdir. Səsvermədə iştirak edən AŞ PA üzvlərindən 66 nəfər sözügedən qətnamənin lehinə, 70 nəfər əleyhinə səs vermiş, 45 nəfər bitərəf qalıb. Münaqişənin həllində hər hansı irəliləyişin olmadığı şəraitdə Azərbaycan digər beynəlxalq təsisatların Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalının nəticələrinin aradan qaldırılmasına müsbət töhfə verə biləcək təşəbbüslərini dəstəkləyir və bundan sonra da bu məsələnin beynəlxalq təşkilatların gündəmində saxlanması və ədalətli mövqeyimizin müdafiə olunması istiqamətində səylərini davam etdirəcək”.

**H.Hacıyev qeyd etdi ki, hətta dünyadakı erməni lobbi və diaspor təşkilatları, həmçinin ABŞ-dakı təşkilatlar bu prosesə çox ciddi şəkildə müdaxilə edib:** “Bu sırada ABŞ-dakı Erməni Milli Komitəsi kimi çox radikal bir təşkilat da var idi. Baxmayaraq ki, ABŞ Avropa Şurasının üzvü deyil, amma onlar bu prosesdə aktiv rol oynayıb. Avropa Erməni Federasiyaları Təşkilatı da çox fəallıq göstərib. Biz hər bir konstruktiv tənqidə hörmətlə yanaşırıq. Amma bizi tənqid edənlərin də AŞ PA deputatlarına müraciətlər etməsi ümumi işin xeyrinə olardı».

**“AŞ PA-da çox ciddi bir sənəd qəbul olunub. ”Azərbaycanın sərhədboyu ərazilərinin sakinlərinin qəsdən sudan məhrum edilib" adlı sənəddə Ermənistanın işğalçılığı birmənalı şəkildə vurğulanır, insanlığa qarşı addımları, Sərsəng su anbarı ilə bağlı məsələ geniş şəkildə öz əksini tapır". «Trend»ə açıqlamasında Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Qənirə Paşayeva belə deyib. Q.Paşayeva hesab edir ki, Ermənistanla bərabər onların Avropadakı dəstəkçilərinin də Azərbaycan əleyhinə çox çalışmasına baxmayaraq, belə bir sənədin qəbulu çox ciddi məsələdir və bu kimi sənədlərin qəbulu istiqamətində Ermənistan, diaspor və lobbisi, dəstəkçi ölkələri və güclərinə rəğmən, Azərbaycan bütün beynəlxalq təşkilatlarda işi daha da gücləndirir ki, bu da çox önəmli məsələdir.**

“Təəssüfedici haldır ki, AŞ PA Azərbaycan nümayəndə heyətinin təşəbbüsü və Britaniyadan olan deputat Robert Uolterin müəllifi olduğu ”Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərində zorakılığın artması" adlı hesabatı qəbul etmədi və bütövlükdə bu məsələnin müzakirəsində gərginlik yaşandı".

**Bunu isə axar.az-a açıqlamasında Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, millət vəkili Azay Quliyev deyib. Deputat bildirib ki, Ermənistan tərəfi sözügedən layihənin qəbul olunmasının qarşısını almaq üçün o qədər geniş iş aparıb ki, hətta ATƏT Minsk Qrpunun həmsədrləri belə ermənilərə lobbiçilik etməyə başlayıblar:** “Bir daha əmin olduq ki, bu gün bir çox beynəlxalq təşkilatlar və ayrı-ayrı ölkələrin siyasətçiləri beynəlxalq prinsipləri, ədaləti deyil, maraqlarında olan məsələləri müzakirə edirlər. Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı qətnamənin qəbul olunmaması bu reallığı bir daha ortaya qoydu. Buna baxmayaraq, Azərbaycan nümayəndə heyətinin işini yüksək qiymətləndirirəm. Xüsusilə bu qətnamənin hazırlanıb təqdim olunması və ayrı-ayrı komitələrdə müzakirəsinin uğurla təşkil edilməsini çox müsbət addım hesab edirəm. Ən azı bir daha bütün Avropa Şurası üzvlərinin diqqəti Azərbaycandakı işğal faktına yönəldildi və əmin olduq ki, AŞ PA Azərbaycan üçün həssas olan məsələlərdə müstəqil qərar qəbul edə bilmir. Robert Uoltera təşəkkür edirəm ki, o, bütövlükdə belə bir təşəbbüs irəli sürüb. Qətnamənin qəbulu üçün cəmi 4 səs çatmadı. Əminəm ki, gələcəkdə Avropa Şurasında təmsil olunan nümayəndə heyətimiz bu məsələyə yenidən qayıdacaq”.

**A.Quliyev digər qətnamənin qəbul olunmasını müsbət hal kimi qiymətləndirib:** “Hesabatda açıq şəkildə göstərilir ki, məhz ermənilərin işğalında olan bölgədə azərbaycanlıların içməli su ilə təmin olunmasında ciddi problem yaradılır və bu, beynəlxalq konvensiyanın ciddi şəkildə pozulması deməkdir, bunun hüquqi və siyasi məsuliyyəti olmalıdır. İki qətnamədən birinin qəbul olunması yenə də Azərbaycanın uğurudur”.

Bir sıra müşahidəçilər isə hesab edir ki, sessiya ərəfəsində AŞ PA-ya etiraz bəyanatı yayan Minsk Qrupu faktiki olaraq öz hədəfinə çatdı. Azərbaycan bundan sonra nə etməlidir? AŞ PA-dakı hadisə digər beynəlxalq təşkilatlar üçün presedent ola və Qarabağ məsələsinə ədalətli münasibətdə geriləməyə səbəb ola bilərmi?

**Konfliktoloq Elxan Mehdiyev “Yeni Müsavat”a bildirdi ki, əgər prosedurlar imkan verirsə, deputatlar yenidən çalışıb, lazımi lobbiçilik edib məsələni yenidən ümumi səsverməyə çıxarmalıdırlar:** “Bu iş kampaniya xarakterli olmalı deyil, davamlı olmalıdır. Özü də təkcə bu məsələ ilə bağlı yox. Məsələn, Avropa Birliyinin ən həssas yanaşdığı ”işğal edilmiş ərazilərdə məskunlaşma" ilə bağlı ayrıca qətnamə üçün çalışılmalıdır. İşğal zonasında mülki obyektlərin məhv edilməsi ilə bağlı qətnamə əldə etmək lazımdır. Bu cinayətlərin hamısı hərbi cinayət sayılır. Belə olarsa, Avropa Parlamentində heç kim “Daglıq Qarabağın dostları Qrupu” yarada bilməz. Bu cür layihələrə qarşı çıxan Avropada çox az adam ola bilər. Bu cür qətnamə layihələri və ya qətnamələr Minsk Qrupunu danışdıracaq. Bunu BMT Baş Məclisində də qoymaq lazımdır. Minsk Qrupu bilavasitə bu cür məsələləri ört-basdır edir. Əksinə, bunlar Avropada ən həssas yanaşılan məsələlərdir. Onların İsrailin məskunlaşma siyasətinə verdikləri reaksiyanı izləsəniz, görərsiniz. Bu baxımdan onların bu işdə böyük təcrübələri var". **Ekspert şübhə etmir ki, qətnamə layihəsinin qəbul olunmaması Fransa və ABŞ hökumətlərinin təsiri ilə olub:** “Neytral qalanların çoxu Şərqi Avropa ölkələridir. Çünki onlardan ABŞ tərəfi xahiş edib. Belə olmasaydı, sənəd böyük üstünlüklə keçərdi. Fransa partiyaları isə çoxlu fraksiyaların üzvləridir və onlar da ideoloji baxımdan öz işlərini görüblər. Elə Serj Sərkisyanın da Avropada təmsil olunduğu partiyanın üzvləri də bu işdə yardımçı olublar. Minsk Qrupunun məqsədi bu işi lokallaşdırmaq və beynəlxalq mövzuya çevirməməkdir. Amma artıq çuval yırtılır, əgər Azərbaycan tərəfi qətiyyətlə irəli getsə, həmsədrlər, sadəcə, gülünc vəziyyətdə qalacaqlar”.

**Politoloq Arzu Nağıyev hesab edir ki, ümumiyyətlə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələnin AŞ PA-da qaldırılması və işğal məsələsinin qoyulması müsbət hal kimi qiymətləndirilmətlidir:** “Müsbət qərarın qəbul edilməsi onsuz da gozlənilən deyildi. Ancaq belə bir sayda dovlətin müsbət rəyi də təqdirəlayiqdir. Məlumdur ki, AS PA çoxsaylı Avropa dövlətlərinin parlamentarlarının təmsil olunduğu qurumdur. Digər məqam erməni lobbisinin təsiridir. Bir səbəb də BMT qərarlarına münasibətdən irəli gəlir. Səs fərqinə diqqət yetirəndə görünür ki, ən böyük təsir məhz ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bəyanatlarından sonra oldu. Təbii ki, bu da onların təmsil etdiyi dövlətlərin movqeyidir”. **A.Nağıyev qeyd etdi ki, bunu Rusiya XİN rəhbəri Lavrovun 7 rayonla baglı bəyanatında da gördük:** “Deməli, bu da ermənilərin lehinə təbliğat idi. Sərsəng su anbarı ilə bağlı qərarın qəbulu da dolayı yolla işğalı təsdiq edir. Nəticə budur ki, nüfuz savaşı davam edir və Azərbaycan bu istiqamətdə müstəqil siyasətini yürütməli, ordu quruculuğuna və xarici siyasətə önəm verməlidir .Düşünürəm ki, ATƏT-in Minsk Qrupuna da təsir mexanizmləri işlənməlidir. Bir daha əmin olduq ki, güc nümayiş etdirməklə təcavüzkarı danışıqlar masasına əyləşdirmək ən müsbət yoldur”.

**Qarabağ Azadlıq Təşkilatı (QAT) isə AŞ PA-dakı son müzakirələrlə bağlı bəyanatında həmsədrlərdən imtinaya çağırıb:** “... Biz bir daha bəyan edirik ki, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinin, torpaqlarımızın işğaldan azad olunmasının hərbi əməliyyatlardan başqa yolu yoxdur. Azərbaycan ləngimədən hərbi əməliyyatlara başlamalıdır! Başqa yolumuz yoxdur! Ya Qarabağ, ya ölüm!”

**Rəsmi Bakı şübhə etmir ki, digər qətnamənin qəbuluna həmsədrlər mane olub, ancaq hələlik xüsusi bəyanata çıxış etməyə tələsmir. Bunu bizə açıqlamasında XİN rəsmisi H.Hacıyev də təsdiqlədi:** “Təəssüf edirik ki, həmsədrlərin 22 yanvar tarixli açıqlaması prosesə çox mənfi təsir göstərdi və həmsədrlərin mandatı ilə bir araya sığmayan addımlar atıldı. Bu məsələ ilə əlaqədar Azərbaycanın ciddi narazılığı fərdi qaydada hər bir həmsədr ölkəyə yazılı şəkildə təqdim ediləcək”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 20 (6341) 28 yanvar 2016

# Rüfət Səfərov yenidən hakimiyyətə "meydan oxudu"

## Sabiq müstəntiq: "Ev dustaqlığını yenidən həbslə əvəz edin! Ruhum hazırdır!"

**Zərdab Rayon Prokurorluğunun keçmiş müstəntiqi, ev dustaqlığına buraxılmış Rüfət Səfərov sosial şəbəkədə yeni status paylaşıb. Həbsdən çıxandan sonra ilk dəfə durumu özətləyən, geniş status yazan sabiq müstəntiq burada son olanları da təhlil edib. "Ev dustaqlığı mənim ruhumu həbs etdi!" - deyə statusuna başlayan sabiq müstəntiq bildirib ki, ətrafında cərəyan edən hüquqi proseslər əndirəbadiliyi ilə fərqlənir.**

**Onun sözlərinə görə, həbs olunduğu 16 yanvar 2016-cı il tarixində baş verənlər "hüquqi komediya" olub:** "15.01.2016-cı il tarixdə, saat 11.00 radələrində məlum olmuşdur ki, Azərbaycan Respublikası Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi cənab Kamran Əliyev mətbuat konfransı keçirərək barəmdə rüşvət almaya görə cinayət təqibinə başlanıldığına dair açıqlama veribdir. Mən həmin açıqlamanı soyuqqanlıqla təqdir edib, irəli sürülən ittihamın məzmunu ilə tanış olmağı səbirsizliklə gözləməli oldum. Xoş oldu ki, bu gözləntim çox çəkmədi, elə həmin tarixdə, saat 14.00 radələrində istifadəmdə olan mobil telefona zəng gəldi: "Salam, Rüfət müəllim, sizi narahat edən Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat İdarəsinin rəis müavini Emin müəllimdir. Mümkünsə, bu gün saat 17.00-da sizi baş idarəyə dəvət edirik. Baş Prokurorluğun rəhbərliyi Sizinlə söhbət etmək istəyir", - deyə Emin müəllim bildirdi. Təbii ki, zəng məndən ötrü gözlənilməz oldu, lakin buna baxmayaraq, həmin müəllimdən dəvətin rəsmi, yoxsa qeyri-rəsmi xarakter daşıdığını öyrənməyə səy etdim. Cavabında isə " Rüfət müəllim, qeyri-rəsmidir, heç bir istintaq hərəkəti olmayacaqdır, sadəcə, rəhbərlik sizinlə görüşmək istəyir, tək gəlin, vəkilə-filana da ehtiyac yoxdur. Amma baş idarəyə yaxınlaşanda mobil nömrəmə zəng edib xəbər edin ki, sizi qəbulda gözlətməyək", -deyə Emin müəllim "xoşməramlı" niyyətdə bulundu".

**R.Səfərov saat 17.00 radələrində sözügedən idarəyə yollanıb. Sabiq müstəntiq yazıb ki, Emin müəllimlə görüşərək, söhbət edib:** "O, guya son günlər xarici ölkədə xidməti ezamiyyətdə olduğunu, məsələnin anatomiyası barədə məlumatsız olduğunu əsas gətirib, rica etdi ki, istefamın səbəblərini, hansı qüvvələrə yaxın olduğumu ona izhar edim. Mən müstəqil vətəndaş olaraq qəbul etdiyim məlum qərarı şərtləndirən səbəbləri bir daha izah etdim, inandırmağa çalışdım ki, ölkəmizdə, məxsusən də qanunların eyni cür və dürüst icra edilməsinə nəzarət etməli olan prokurorluq orqanlarında vəziyyət acınacaqlı ilə fərqlənir, sərişţə, bilik, qabiliyyət arxa plandadır, əvəzində himayədarlıq, yerlibazlıq-tray-balizm, maddiyyata dayanan mövqe ön plandadır. Çox yəqin ki, bu fikirləri ifadə edərkən proses "canlı yayım"la yüksək birilərinə yayımlanırdı. Bu, məni sövq etdi ki, fikirlərimi daha açıq tekstlə söyləyim, çünki bəlkə bir faydası olardı... Təxminən 30 dəqiqədən sonra Emin müəllim məni ehtiramla polis əməkdaşının müşayiəti ilə baş idarənin İstintaq İdarəsinin mühüm işlər üzrə müstəntiqi Rəşad müəllimin yanına yola saldı. Rəşadla görüşəndə onun sifətinə hopmuş dərin ifadəyə baxdım və açığı, özünə və halına yazığım gəldi. Nədənsə, "Vajnyak" ilk olaraq şahid qismində dindirdi, 2 nəfər üzəduranın ifadələri barədə soruşdu, cavabında təbii ki, "rədd" cavabı aldı. Dindirmə bitdi, Rəşad məşvərət üçün böyüklərinin yanına qalxdı. Müəyyən təcrübəyə sahib istintaqçı olaraq yəqin etdim ki, bunların məni saxlamaq fikri yoxdur, əgər olsaydı, ən azı təqsirləndirilən şəxs qismində cəlb etmək haqqında qərar, həbs-qətimkan tədbirinin seçilməsinə dair vəsatət və təqdimat əvvəldən hazır olmalıydı. Təxminən 1 saat sonra Rəşad dindirmə otağına daxil olub, gözlərini döşəməyə zilləyib, başını sağa-sola hərlədi. Onda duydum ki, rəhbərlik məni dəvət edərkən düşünüblər ki, bəlkə "islah olub", "ağıllanar..." Amma "canlı yayım" bunun əksini ortaya qoydu... Beləliklə, heç bir üzləşdirmə aparılmadan, şahid olmadan, sübut ortaya qoyulmadan, barəsində şikayət olunan və şikayət edəndən başqa 3-cü bir şəxs təqdim edilmədən qandallandım. Bu arada babat bir qəşş edərək "voronok"a əyləşdim, barəmdə həbs-qətimkan tədbirinin seçilməsinin xahiş edilməsi barədə prokuror təqdimatının təmin olunması məqsədi ilə Binəqədi Rayon Məhkəməsinə gətirildim. Burda nə baş verdi? Hakim içəri daxil olanda həbs barədə vəsatət, təqdimat və ittihama dair fikrimi soruşdu. Cavabında "hörmətli tamaşaçılar, axşam tamaşasına xoş gəlmiziniz. Amma əfv ediniz, səhnədəkiləri absurd teatrı sayıram!" - deyə reaksiya verdim və hakimdən rica etdim ki, vaxtı uzatmadan təqdimatı təmin etsin, yorğunuq, çünki onun səlahiyyəti olsa belə, imkanı yox idi ki, özgə qərar qəbul etsin. Təbii ki, sifariş qəbul edən binəva hakim təqdimatı qəbul edib, vicdansızcasına " Təqsirləndirilən şəxs Rüfət Səfərov barəsində təqdim edilən təqdimat qismən təmin edilsin, barəsində 3 ay 26 gün müddətinə həbs-qətimkan tədbiri seçilsin!" Bu arada da onun sifətinə baxıb babat güldüm, hərçənd ki, qoca tarix acıyacaqdır!"



**Eldar Sabiroğlu: "Mən bundan sonra onun dediklərinə və yazdıqlarına müdaxilə etmək istəmirəm"**

**R.Səfərov bir gün Nərimanov rayon müvəqqəti saxlama yerində saxlanıldığını, orda da özünə qarşı yüksək münasibət və qayğı gördüyünü yazıb. Amma ertəsi gün təcridxanaya etap edilərkən onu "voronok"un "odinoçka"sına zorla saldıqlarını deyib:** "Sanki xüsusi amansızlıqla, tamah niyyəti ilə qətl törətmişdim... Təcridxanada da saxlanma şəraitimdən narazı qalmadım. Şükranlıq hissini duydum ki, heç demə, azadlıq həbs həbsi mənada deyil, ruhi anlamda qavranılmalıdır. AZAD OLDUM! Ciddən. 1 həftəlik məhbəs həyatımda Allaha şükür etdim, özümü seçilmişlərdən sandım ki, haqq yolunda zindan həyatı əslində hürrüyyət ilə sinonimmiş ki, bu da hər kəsin nəsibi deyildir. Nə oldusa, 1 həftədən sonra ağır cinayətdə ittiham olunan təqsirləndirilən şəxs barəsində həbsə alternativ olaraq ev dustaqlığı qətimkan tədbiri seçildi... Bax bu dəfə gülmək istəsəm də baş tutmadı, çünki Azərbaycan hüquq sisteminin nə qədər eybəcər vəziyyətdə olması məni kövrəltdi. Ciddən. Hazırda ev dustağıyam. Mənə qadağan edirlər ki, susum, lal, kar, kor olum! Bəylər, elə ondansa ölmək daha əfzəl deyildirmi?! Göz altına almışam, ən yaxın əzizləri, dostları, tanışları itirmək bahasına olsa belə, yenidən məhbəsə qayıtsam belə, yenə də doğru bildiklərimi söyləyəcəyəm! Nədir, mən azad fikrimi söyləyə bilmərəm? Həqiqət sandıqlarımı bölüşə bilmərəm? İnsanların dərdinə şərik ola bilmərəm? Niyə qorxursunuz? Əgər belədirsə, ev dustaqlığını yenidən həbslə əvəz edin! Ruhum hazırdır!"

**R.Səfərovun atası Eldar Sabiroğlu isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ümumiyyətlə, oğlunun dediklərinə və yazdıqlarına şərh vermək istəmir. E.Sabiroğlu həmçinin oğlunun həyatına dair təhlükə olmasını da hiss etmədiyini vurğuladı:** "Mən bundan sonra bu barədə danışmayacam".

❑ **Sevinc TELMANQIZI**

# AMİP sədrliyinə iki şanslı namizəd

## Partiyanın yeni rəhbəri Əli Orucov ola bilər

**AMİP-in qurultayının vaxtı mart ayının sonlarında bəlli olacaq. Bu barədə AMİP sədrinin səlahiyyətlərini icra edən baş katib Arzuxan Əlizadə məlumat verib. Qurultaya hazırlıq üzrə təşkilat komitəsinin mövcud olduğunu, rayon təşkilatlarında qurultay öncəsi konfransların keçirildiyini və nümayəndələrin seçildiyini deyən A.Əlizadə bildirdi ki, qurultay günü ilə bağlı müzakirələr hələ də davam edir. Çox güman ki, qərar mart ayında veriləcək. Onun sözlərinə görə, bəzi təşkilati və logistik məsələlərin həlli qalıb və onlar həll ediləcək.**



Partiya sədrliyinə namizədlərin olub-olmadığına gəlincə, A.Əlizadə qeyd etdi ki, namizəd irəli sürülməsi mərhələsi hələ başlanmayıb: "AMİP-də yazılmamış qanun var, qurultayın günü barədə qərar veriləndən sonra namizədliklərin irəli sürülməsi ilə bağlı mesajlar verilir. Mərkəzi Şuranın qurultayın keçirilməsi ilə bağlı qərarı olana qədər heç kəs öz namizədliyini irəli sürmür və mətbuat vasitəsilə də bunu demir. Biz bunu ona görə razılaşmışıq ki, namizədliyini vermək istəyən şəxslər bərabər imkanlara malik olsun, kampaniyaya eyni gündə başlasınlar. Namizəd sıravi üzv də, partiya rəhbərliyində təmsil olunan şəxs də ola bilər. Ola bilsin sıravi üzvün mətbuata çıxış üçün bir o qədər imkanı olmasın, bununla da qurultay günü bəlli olandan sonra hər kəs seçkilərə bərabər hüquqlarla qatılır və təbliğat aparır. Hazırda heç kim namizəd olmaq iddiasını ortaya qoymayıb".

**Baş katib partiyanın lideri Etibar Məmmədovun kimin sədr olması məsələsinə müdaxilə etmədiyini söylədi:** "Etibar Məmmədovla konkret olaraq partiya sədrliyinə namizədlərlə bağlı söhbət aparılmayıb. Yalnız ümumi məsələlərlə əlaqədar məsləhətləşmələrimiz olur. Qurultay günü haqda qərar veriləndən sonra Etibar bəyin özünün də məsələ ilə bağlı özəl təklifi, yaxud hansısa namizədə isti münasibəti ola bilər. Bu da onun hüququdur. Etibar Məmmədov sədrlikdən gedəndən sonra partiyamızda bir neçə dəfə sədr seçkisi olub, heç vaxt Etibar bəy hansısa bir namizədi dəstəkləməyib və ya kiminsə üzərində dayanmaqla bağlı fikir ifadə etməyib, heç kimə təzyiq etməyib ki, filankəsə səs verməlisən. Yalnız tövsiyəsi bundan ibarət olub ki, bütün namizədlərə bərabər şərait yaratmaq lazımdır. AMİP liderı hesab edir ki, daha şanslı və partiya daxilində qəbul olunan şəxsin namizəd kimi irəli sürülməsi üçün bütün imkanlar yaradılmalı, kənar müdaxilə olmamalıdır. Biz ölkədə demokratiya qurulmasını istəyiriksə, birinci növbədə özümüz demokratik qaydalara əməl etməliyik və edirik".

Qeyd edək ki, 2004-cü ildə Etibar Məmmədovun AMİP sədrliyindən istefa verməsindən sonra AMİP-də 3 dəfə sədr seçkisi olub. E.Məmmədovdan sonra Əli Əliyev, Əli Əliyevdən sonra Ayaz Rüstəmov, Ayaz Rüstəmovdan sonra isə Yusif Bağırzadə AMİP-ə sədr seçilib. 2015-ci ilin oktyabrında Yusif Bağırzadənin qəfil istefasından sonra sədr səlahiyyətlərini müvəqqəti olaraq Arzuxan Əlizadə icra edir.

AMİP-in növbəti sədrinin kim olacağı barədə də mediada vaxtaşırı ehtimallar irəli sürülür. Daha çox baş katib Arzuxan Əlizadənin və Mərkəzi Şuranın üzvü Əli Orucovun adı sədrliyə şanslı fiqurlar kimi çəkilir.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 20 (6341) 28 yanvar 2016

**Ölkədə yaşanan maddi böhranın insanların günlük həyatına göstərdiyi mənfi təsirin hər gün şahidi oluruq. Sadə insanlarla yanaşı sənət adamları da devalvasiyanın onlara yaşatdığı çətin günlərdən tez-tez şikayət edirlər. Bəs maddi böhran yaradıcı insanlara necə təsir edib? Musavat.com şairlər arasında sorğu keçirib. Onlara "Ölkədə yaşananlar sizin yaradıcılığınıza necə təsir edir? Ruh düşkünlüyü yaradır, yoxsa insanların problemini təqdim edən yeni şeirlərin yaranmasına səbəb olur" sualı ilə müraciət edib.**

# Şair, devalvasiyanın hüzurundasan

## Bahalıq, inflyasiya yaradıcı adamların təbinə necə təsir göstərib?


Cəlil Cavanşir


Sevinc Çılğın


Fərid Hüseyn

### Cəlil Cavanşir: ""İndi xalqın şeirə yox, çörəyə ehtiyacı var"

**Şair Cəlil Cavanşir bildirib ki, maddi durumu yaradıcılıqla məşğul olmasına mane olur:** "Sözün açığı, baş verənlər, ölkənin indiki durumu məndə ruh düşkünlüyü yaradıb. Ölkədə baş verənlərdən, qiymət artımından əziyyət çəkənlər arasında yazı adamları daha çoxdur. Bizim əsas qazancımız qonorar olduğu üçün, yaşayışımız da ondan asılıdır. Devalvasiya əməkdaşlıq etdiyimiz saytlara da təsir etdi və artıq demək olar ki, qonorar almıram. Maaşım isə ev kirayəsinə, kommunal xərclərə güclə çatır. Artıq 15 ildir kirayədə qalıram və bu vəziyyətdən sonra evlə bağlı heç xəyal da qurmuram. Kasıblıqdan da aşağı vəziyyətdə yaşayıram. Zəruri xərclərimi ödəyə bilmirəm. Bu vəziyyət təbii ki, yaradıcılığa çox ciddi təsir edir. Yaradıcılıqdan, şeirdən danışmaq şəxsən indiki vəziyyətdə mənə gülməli gəlir. Hələ ki özümü motivasiya edirəm. Ümid edirəm ki, tezliklə səfilliyə, acılığa adaptasiya olacağam. Əgər adaptasiya prosesi uğurlu alınsa, yenidən yaradıcılıqla məşğul ola bilərəm. Belə məqamda şeir yazmaq, şeir vasitəsi ilə problemləri işıqlandırmaq mümkünsüzdür. İndi xalqın şeirə yox, çörəyə ehtiyacı var. Əgər toparlana bilsəm, ötən ilin sonu tamamladığım romanımı redaktə edib, çapa verəcəyəm. Devalvasiyadan sonra mümkün qədər çoxlu kitab oxuyuram, filmlərə baxıram. Depressiyaya düşməmək üçün var gücümlə çalışıram. Hər halda, dözümlü xalqın, dözümlü yazarı kimi düşdüyüm əcaib vəziyyətə alışandan sonra şeir də yazaram".

### Sevinc Çılğın: "Bu ölkədə devalvasiyanın təsir etmədiyi yeganə insanam"

**Şairə Sevinc Çılğın bildirib ki, ailəsində maddi problemləri həyat yoldaşı həll etdiyi üçün böhran ona təsir etməyib:** "Guya şairlər yazdıqlarından pul qazanırlar? Biz olduğumuz yerdə də qalmışıq. Allah vurub bizi. Bu ölkədə devalvasiyanın təsir etmədiyi yeganə insanam. Çünki pulum az da, çox da olsa, haradan gəlib, haraya getdiyini bilmirəm. Cüzdanımda nə qədər pul olduğunu heç vaxt bilmirəm. Nə qədər aylıq gəlirim və xərclərim olduğundan da xəbərsizəm. Bunları Zahir *(həyat yoldaşı Zahir Əzəmət)* düşünsün, mənim ağlıma gərə deyil. Əvvəl xərci bir idisə, indi beş olub. O, həmişə mənə deyir ki, maddi şeyləri düşünmə. Ona görə düşünmürəm. Bir neçə etiketi cırılmamış paltarım, geyinmədiyim ayaqqabılarım və istifadə etmədiyim ətirlərim var. Bu səbəbdən böhranı hiss etmirəm. Bircə devalvasiya sözünü eşitmişəm, mənasını Zahirdən soruşdum, o da mənə izah etdi. Maddi problemlər mənim problemim deyil. Həmişə hansı atmosferdə, havada yaşayırdımsa, indi də o havada davam edirəm. Böhranın yaradıcılığıma təsir edəcəyinə inanmıram. Çünki mən gecə 3-4-də oyanıb, gündüz tıxaclarda qalıb şeir yazan adam havasındayam. Çox güman ki, mən yenə də öz havamda yaşayacağam, necə varamsa, elə qalacağam".

### Fərid Hüseyn: "Mən hamını xoşbəxt görmək istəyirəm"

**Şair Fərid Hüseyn deyib ki, devalvasiya ovqatına mənfi təsir göstərir:** "Əti ətimdən, qanı qanımdan olan adamların düşdükləri çətinlik məni üzür, narahat edir, yaradıcı ovqatımı yeri gələndə alt-üst olur. İstər-istəməz şeirlərimə, yazılarıma da həmin ovqat çökür. Yaradıcı adamlar haqda məşhur ifadə var ki, onlar üstü açıq elektrik naqili kimidirlər, o saat reaksiya verirlər.

Şad gündən meyxana demək olar, ancaq şeir yazmaq olmaz. İstəmərəm ki, xalq pis vəziyyətə düşsün və mən şeir yazım. Bir dəfə savaddan qısırlardan biri deyirdi ki, "yaxşı ki, müharibələr oldu, Remarkın romanları yazıldı". Bu idiot qənaət məni dəhşətə gətirdi. İnsan fəlakətinə, ağrısına heç cür sevinmək olmaz. İnsan həqiqətin yanında dayanmalıdır. Əgər dayana bilmirsə, həqiqəti ləkələmək, öz gününə salmaq haqqında düşünməməlidir. Mən hamını xoşbəxt görmək istəyirəm".

❑ **Könül İbrahim**

# İranın "böyük açılımı" qlobal iqtisadiyyata nə verəcək?

## Ekspert: "İranın bununla sürətlə inkişaf edəcəyini, bölgənin ən güclü dövlətinə çevriləcəyini demək çətindir..."

**Qərbin İrana tətbiq etdiyi beynəlxalq sanksiyalar aradan qaldırılandan sonra bu ölkənin qısa müddətdə Avropaya böyük açılım etməsi hazırda dünyanın gündəmindədir. Belə ki, İran prezidenti Həsən Ruhani İtaliyaya səfəri çərçivəsində 17 milyard dollar məbləğində müqavilə imzalayıb, energetika və infrastruktur layihələri ilə bağlı İtaliya şirkətləri ilə razılaşmaya gedib. Daha sonra Ruhaninin Parisə gedərək İranın 100-dən çox "Airbus" təyyarəsini alması üçün razılaşma imzalayacağı deyilir.**

Bəs qonşu ölkənin Qərbə bu cür açılım etməsi, neft ixracını artırmaq və dondurulmuş pulları ölkəyə gətirmək hesabına iqtisadiyyatını inkişaf etdirməsi Azərbaycan və dünya iqtisadiyyatı üçün hansı nəticələr vəd edir? İranın inkişafında hansı ölkələr maraqlıdır?

**Politoloq Elxan Şahinoğlu** bildirdi ki, İranın inkişafında müəyyən maraqlı dövlətlər də var: "Reallıq belədir ki, İran üzərindən sanksiyalar götürüldükdən sonra bu ölkənin neft istehsalı artacaq. Lakin sıçrayışla artmayacaq. Çünki yataqlar köhnədir. Ancaq artıq Qərb şirkətləri İranla kontraktlar imzalamağa tələsirlər. Təsadüfi deyil ki, artıq İran prezidentinin də Avropa ölkələrinə səfəri başlayıb. Bu əvvəlcədən hazırlanmışdı. Gözləyirdilər ki, sanksiyalar götürülən kimi bu addımı reallaşdırsınlar. Artıq İran İtaliya və Fransa ilə çox böyük, milyardlarla dollarlıq sazişlər imzalamaq ərəfəsindədir. Çin rəhbərinin də İrana səfəri olacaq. 10 illik, 600 milyard dollarlıq müqavilə də imzalandı. Bundan əlavə, sanksiyalar dövründə İranın Qərb banklarında 50 ilə 100 milyard dollar arasında pulu var, həmin pulların bir hissəsi geri qaytarılır. Bu pullara da İran yeni texnologiya alır".

**Politoloqun fikrincə, bütün bunlara baxmayaraq, İranın sürətlə inkişaf edəcəyini, bölgənin ən güclü dövlətinə çevriləcəyini demək çətindir:** "Bunun üçün illər lazımdır. İranın inkişafında müəyyən maraqlı dövlətlər də var. Bu, Azərbaycana, Türkiyəyə, Qərb ölkələrinə də aiddir. Çünki İran böyük bir bazardır və hər kəs orada pay almaq istəyir. Azərbaycan İranla nəqliyyat dəhlizi yaratmaq, Türkiyə ticarət dövriyyəsini artırmaq istəyir. Eləcə də Qərbin neft şirkətləri İranın neft istehsalında pay sahibi olmaq istəyir. Yəni bir çox ölkələrin İranda marağı var".



**İqtisadçı ekspert Rəşad Həsənov isə bildirdi ki, İranın Qərblə münasibətlərinin yoluna düşməsi bu ölkənin inkişafına təkan verəcək:** "İlk növbədə onu nəzərə almaq lazımdır ki. İran enerji ölkəsidir və sanksiyalar dövründə onun ixrac etdiyi neftin həcmi 50 faizə qədər azalmışdı. 4 illik sanksiya dövründə İran çox ciddi şəkildə maliyyə problemi ilə üzləşdi, iqtisadiyyatında ciddi durğunluq yarandı. Hazırda İran bu açılımdan sonra çox sürətlə dünya bazarına enerji məhsulları ixrac edəcək. Bu da dünyada neft və neft məhsullarının ucuzlaşmasına səbəb olan amillərdən biri kimi qiymətləndirilir. Bu amil isə Azərbaycan iqtisadiyyatına mənfi təsir edir. Təbii ki, bu ilkin təsirlərdir. Sonrakı dövrdə isə Azərbaycan-İran əlaqələrində, xüsusilə Azərbaycanın Avropa ilə İran arasında ticarət əlaqələrində, maliyyə transferində tranzit ölkə kimi iştirakı təmin olunacaq. Sanksiyalar dövründə Azərbaycan da məcburən bu qadağalara qoşularaq əməl etməli oldu. Bu isə Azərbaycanla İran arasında iqtisadi münasibətlərin müəyyən qədər geriləməsinə səbəb olmuşdu. Bu açılımdan sonra münasibətlər qaydasına düşəcək".

**Ekspertin sözlərinə görə, İranın dondurulmuş vəsaitlərinin qaytarılması və enerji ixracı sayəsində bu ölkədə çox ciddi daxili tələb formalaşacaq:** "Azərbaycan bu tələbdə tranzit ölkə kimi iştirak edəcək. İran məhsullarının Avropaya, Avropa məhsullarının İrana daşınması həyata keçiriləcək ki, Azərbaycan da bu məsələdə tranzit rolunu oynayacaq, gəlir əldə edəcək. İran regionda böyük güclərdən sayılır və iqtisadiyyat baxımından regionun Rusiyadan daha sağlam iqtisadi gücə, tarixi kökə malik ölkələrindən hesab olunur. Bu baxımdan İranın inkişaf etməsi Azərbaycan üçün əlavə gəlir mənbəyinə, xüsusən də sərhəd bölgələrində yaşayan insanların həyat şəraitinin yaxşılaşmasına gətirib çıxaracaq".

**"Xüsusən son prezident seçkilərindən sonra İranın xarici kursunda dəyişiklik hiss olunmaqdadır" - deyən R. Həsənov qeyd etdi ki, İranla siyasi-iqtisadi münasibətləri dondurmuş Qərb və ABŞ artıq bu ölkəyə çox ümidlə yanaşır:** "Eyni zamanda İran hökumətinin son davranışları, xarici investorların ölkədə fəaliyyətinə şərait yaratması da imkan verir ki, investorların bu ölkəyə axını sürətlənsin. İranın daxili tələbatı böyük potensiala malikdir. Təsadüfi deyil ki, bugünlərdə İran prezidenti İtaliya və Fransada 120 nəfərlik sahibkarlardan ibarət heyətlə təmsil olundu, görüşlər keçirdi. Bu isə artıq İranla Qərb arasında ticarət əlaqələrinə start verilməsinin göstəricisidir. Sanksiyaların aradan qaldırılması İran üçün sərfəli olduğu qədər Avropa üçün də, dünya iqtisadiyyatı üçün də əhəmiyyətlidir".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 20 (6341) 28 yanvar 2016








# “NAZ Lifan”ın zavodunda canlanma başlayıb

## Prezidentin məmurlara tövsiyə etdiyi avtomobillər haqda sürücülər nə deyir?

**İki gün öncə prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş iclasda çıxışı zamanı məmurların bahalı xarici avtomobillərdən istifadə etməsini tənqid edib. Prezident Naxçıvan MR-in istehsalı olan “NAZ Lifan” avtomobillərindən istifadə etməyi tövsiyə edib.**

Prezidentin bu təklifi yerli avtomobil markasının gündəmə gəlməsinə səbəb olub.

Adıçəkilən avtomobil markasının göstəriciləri, qiyməti ilə tanış olmaq üçün paytaxtda ondan istifadə edən insanlarla həmsöhbət olduq.

Əvvəlcə məlumat üçün qeyd edək ki, “NAZ Lifan” markası ilə avtomobillərin istehsal edildiyi Naxçıvan Avtomobil Zavodu 2010-cu ilin yanvar ayının 11-də istismara verilib. Zavod ildə 5000 ədəd avtomobil istehsal etmək gücünə malikdir. İstehsal çinli mütəxəssislərin nəzarəti altında həyata keçirilir. 2015-ci ilin birinci yarısında cəmi 325 ədəd minik avtomobili istehsal edilib. Hazırda da paytaxtda bir neçə yerdə “Naz - Lifan” avtomobilləri satışdadır. Müştərilərə “NAZ Lifan-320”, ”NAZ Lifan-520”,NAZ Lifan- 720, “NAZ -620" sedan və NAZ Lifan- x 60" modelləri təklif olunur.

“Avro-3" standartlarına uyğun və mexaniki sürət qutusu ilə təchiz edilmiş yeni avtomobil qənaətcilliyi və yüksək manevr qabiliyyəti ilə seçilir. 100 kilometrə 8,2 litr yanacaq sərf edir.

Lakin yerli istehsal olan bu avtomobillərə tələbat azdır. Bunun səbəbi isə əhalinin xarici model avtomobillərə olan etibarı və marağıdır.

Bu avtomobillər əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə sosial qayğıya ehtiyacı olan insanlara və veteranlara verilir.

Qiymətlərə gəlincə, “NAZ - Lifan” modellərinin qiyməti 7500 manatla 15700 manat arasında dəyişir. Lakin ikinci əl avtomobillərini ucuz qiymətə də almaq mümkündür.

Avtomobil satışı saytlarında 2011-ci il istehsallı “Lifan-320" modeli 3500 dollardan 4000 dollara qədər, 2013-2014-cü il istehsalı olan ”NAZ Lifan-520" modelləri 6000 dollardan 8000 dollaradək, "NAZ Lifan- x 60" CİP modelləri isə 12 500 dollardan 18 500 dollara təklif olunur.

**Musavat.com-un əməkdaşı “NAZ Lifan” avtomobilləri ilə bağlı şəhərdə ondan istifadə edən taksi sürücüləri və əhali arasında sorğu keçirib. Əhali ölkə başçısının məmurlara “NAZ Lifan” avtomobillərini tövsiyə etməsini maraqla qarşılayıb. Bir çoxları bu addımın yerli istehsalın güclənməsinə yol açacağını bildirdilər. Avtomobilə gəldikdə isə “NAZ Lifan” avtombilindən istifadə edən sürücü vəziyyəti belə izah etdi:** “Naxçıvan istehsalı olan bu avtomobillər kifayət qədər qənaətlidir. 20 manat yanacaq vururam və 4-5 gün idarə edir. Diqqət etsəniz, şəhərdə əksər taksi sürücüləri ”NAZ Lifan" avtomobillərindən istifadə edir. Deyilənə görə, bu avtomobillər tez sıradan çıxır. Ancaq bu bəhanədir. İstənilən avtomobilə baxmasan yararsız hala düşər. Şükür, 2 ildir ki, bu avtomobil məndədir, bir problem çıxmayıb. Düşünürəm ki, xaricdən bahalı avtomobillər alan məmurlar öz istehsalımız olan avtomobilləri alsalar yaxşı olar".

**Sorğu iştirakçısı olan paytaxt sakinləri əsasən xarici avtomobillərə üstünlük verdiklərini dedilər:** ““NAZ Lifan” istehsalı olan avtomobillərin qiyməti çox bahadır. 15000 dollara “Lifan” almaqdansa, Almaniya və Koreya istehsalı olan avtomobil alarıq. Keyfiyyət baxımından Naxçıvan istehsalı olan avtomobillərdən xeyli keyfiyyətlidir. Bildiyimizə görə, qənaətcil maşındır, yanacaq sərfiyyatı azdır. Lakin dözümlülük səviyyəsi aşağıdır. Ölkədə ən çox xaricdən 100 min manata olan avtomobil gətirənlər məmurlardır. Bu qədər israfçılıq nəyə lazımdır? Yaxşı olar ki, həmin məmurlar yerli istehsal avtomobillərdən istifadə etsinlər".

**“NAZ-Lifan” avtomobillərini dəyərləndirən iqtisadçı ekspert Natiq Cəfərli isə bildirdi ki, bu avtomobillər yerli istehsal olsa da bütün detalları xaricdən idxal olunur:** “Bütün detallar Çindən gəlir, Naxçıvanda sadəcə təkərləri, güzgüləri bağlanılır. Maşınlar hazır halda ölkəyə gətirilərkən kifayət qədər böyük məbləğdə gömrük rüsumu ödənilir, amma maşın detallarına, özü də istehsal üçün nəzərdə tutulan məhsullara gömrük rüsumu yoxdur. Detallar alınır, rüsumsuz və vergisiz ölkəyə gətirilir, burada yığılır. Bu maşınların böyük əksəriyyəti dövlətin özünə, müxtəlif nazirliklərə büdcə puluna satılır. Detalları isə dollarla alınaraq ölkəyə gətirilir, ölkədən valyuta axınını artırır”.

Bu arada NAZ-dan mediaya verilən açıqlamada ötən iki gün ərzində xeyli sifariş aldıqları bildirilib.

❑ **Məğrur MƏRD**

# “Pulqıran” dəstə “vosmoy” bazarından yoxa çıxdı

## Kriminal aləmin də pis baxdığı dələduzlar haqqında bilmədiklərimiz

**Əməkdaşlarımızın Nizami rayonundakı “Vosmoy” (8-ci kilometr bazarı) bazarından hazırladığı videoreportaj rezonans doğurub. Həmin reportajda bazarda bir dəstə dələduzun vətəndaşları iri kupyurlarını xırdalamaq adı ilə aldatdıqları, xırdaladıqları pulların bir hissəsini ələ keçirdikləri məlum olub. Dələduz dəstəsinin illərdir ki, bazarda fəaliyyətdə olduqları, cəzasızlıq mühitində fəaliyyət göstərdikləri də aydın olub.**




Qeyd etməliyik ki, dələduz dəstəsinin əməlləri lentə alınmazdan aylar əvvəl “Yeni Müsavat”ın əməkdaşları onların fırıldaqları haqda məlumatlı idi. Lakin dəstənin əməllərini lentə almaq olduqca çətin idi. Çünki bazar rəhbərliyi, o cümlədən ərazinin mühafizəsini təmin edən aidiyyəti şəxslər dələduz dəstəsi ilə əlbir kimi görünürdü. Əməkdaşlarımızın işinə mane olur, çox həssaslıqla yanaşırdılar. Əraziyə maşınla yaxınlaşmaq da olmurdu. Lakin nəhayətdə əməkdaşlarımız dələduz dəstəsinin əməlini videoya alıb təsbit edə bildilər. Həmin şəxslər artıq bazarda yoxdur. Bununla bağlı müxtəlif instansiyalardan rəsmi məlumat almağa çalışdıq. Təəssüf ki, hələ də sorğularımız cavabsızdır.

Oxucular bizdən soruşur ki, kasıb təbəqənin - təqaüdçünün, müəllimin son manatına göz dikən bu cür şəxslər kriminal aləmin özündə necə qarşılanır?

**Ənənəvi olmayan bu mövzu ilə bağlı kriminal kastanın strukturuna, “iş” prinsiplərinə bələd olan bir şəxsə müraciət etdik. O bildirdi ki, belə əməlləri törədənlər kriminal kastada olduqca neqativ qarşılanır:** “Onları sıralarından silmirlər. Kasıb "auditoriyaya" “işləyən” bu zümrə kriminal aləmdə, cəza evlərində ən aşağı statuslu arestantlar kimi qəbul olunurlar. “Moşennik”lər, cibgirlər kriminal kastanın ən aşağı zənciri hesab edilirlər. Kriminal kastanın prinsiplərinə görə, zəngindən oğurlamaq cinayətkara yaraşan sifətdir. Kasıbdan, təqaüdçüdən, əhalinin sosial baxımdan təminatsız zümrəsindən oğurlamaq, onları möhtac qoymaq cinayətkar üçün ən son addımdır. Bu baxımdan bazarda pul fırıldanlara cəmiyyətin kriminaldan uzaq kəsimi ilə kriminal kasta üzvlərinin mövqeyi üst-üstə düşür. Onlara cəza evlərində münasibət neqativdir".

**Həmsöhbətimiz deyir ki, bu zümrədən olanlar “içəri” düşəndə də fəaliyyətlərini davam etdirdiklərindən cəza evlərində onlara münasibət pisdir:** “Zon”da bütün növ cinayətkarlıq dayandırılır. Yeni “içəri”də “işləmək” qəbul edilməyən əməllər hesab olunur. Amma dələduzlar öz “işlərini” davam etdirirlər. Məsələn, hansısa məhkuma cəzasını azaldacağını vəd edib ondan pul alıb aldadırlar".

**Ekspert “içəri”də ev oğrularına münasibətin “moşennik”lərdən fərqli olduğunu qeyd edib:** “Kriminal aləmdə ev oğruları bunlardan daha üstün zümrə hesab edilir. Xüsusilə zənginlərin evlərini ”təmizləyən" oğrulara münasibət fərqlidir. Bu şərtlə ki, ev oğrusu evdə kimsənin olmadığını müəyyən edib ora baş çəkmiş olsun. Oradan daha böyük xəzinə ilə aradan çıxsın. Kasıbın evinə girib son qəpiyini oğurlayanlara isə “moşenniklərə” olan münasibət bəslənir".

Ümid və arzu edirik ki, hüquq-mühafizə orqanları, xüsusilə 8-ci kilometr bazarının mühafizəsini təşkil edən polis orqanları bu cinayətkar dəstənin ləğv olunması məqsədi ilə addımlar atacaqlar.

**Mövzunu diqqətdə saxlayacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**



# Gənc alimlərin dövlət tərəfindən mənzillə təmin olunması təklif edilir

**Azərbaycanda elmi işçilər, o cümlədən gənc alimlər mənzil və ya torpaq sahəsi ilə təmin ediləcək. APA-nın məlumatına görə, bu, ikinci oxunuşa hazırlanan “Elm haqqında” qanun layihəsinin 37-ci maddəsinin 9-cü bəndində qeyd olunub:**

“Dövlət mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan elmi işçilərin, o cümlədən gənc alimlərin mənzil və ya torpaq sahəsi ilə təmin olunması üçün şərait yaradır, onlara güzəştli ipoteka kreditlərinin verilməsini təmin edir”.

Qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

YENİ MÜSAVAT
N 20 (6341) 28 yanvar 2016



# Tikinti fırıldaqçılarından can qurtarmağın yolları

## Ekspertlər yalançı şirkətlərlə bağlı illərdir təkliflər verir, ancaq...

**Ölkədə, xüsusən də paytaxtda fəaliyyət göstərən tikinti şirkətlərinin fırıldaqları ilə bağlı işlər hətta məhkəmə müstəvisinə qədər gedib çıxır. Ancaq illər boyu əhalinin və ekspertlərin qaldırdığı problem həllini tapmır.**

Fevralın 4-də Yasamal Rayon Məhkəməsində Orxan Əfəndiyevin iddiası üzrə davam etdiriləcək proses də belələrindəndir. O.Əfəndiyevi məhkəmə qapısına aparan ədalət axtarışıdır. O, 2012-ci ildə mənzil şəraitini yaxşılaşdırmaq üçün "Yasamal" MTK-ya üz tutub. Və böyük qanunsuzluqlarla üzləşib.

Jurnalistikamızın dəyərli nümayəndəsi, milli-azadlıq hərəkatının öncüllərindən biri, mərhum Ağamalı Sadiq Əfəndinin oğlu olan O.Əfəndiyevin 2012-ci ildə atasından qalma mənzili də, üstəlik, banklardan götürdüyü kreditlər də əlindən gedib: "Məcburiyyət qarşısında ata evimizi satdıq, 2 bankdan pul götürüb aparıb "Yasamal" MTK-ya verdim. Bu gün də kirayələrdə yaşayıram. MTK ilə aramızda müqavilə bağlandı, mənə maliyyə arayışı verdilər. Çünki mənzilin pulunu - 55 min 200 manatı tam ödəmişdim. Dedilər ki, binanı 3 aya təhvil verəcəklər. Hər dəfə müddət bitəndə gedirdim, deyirdilər 3 ay sonra binanı təhvil veririk. Təxminən 1 il 3 ay əvvəl növbəti dəfə binaya gedəndə gördüm ki, mənzilimə qapı qoyublar. Orada Faiq adlı MTK işçisi var, ona yaxınlaşdım. Soruşdum ki, mənzilimə qapı niyə qoyulub? Cavab verdi ki, MTK-ya borcunuz var. Əlimdə müqavilə, maliyyə arayışı olduğunu diqqətini çatdırdım ki, borcum yoxdur. Bundan sonra da dedi ki, mənzilini başqasına satmışıq. Etirazımı bildirdim, şikayətlər etdim, xeyri olmadı. Polisə, prokurorluğa yazdıq, nəticə olmadı. Üstəlik, MTK-da məni hədələdilər, dedilər ki, binaya gəlmə".

O.Əfəndiyevin nümayəndəsi Yaşar Ağazadə deyir ki, "Yasamal" MTK-da qanunsuzluqla üzləşən təkcə O.Əfəndiyev deyil. 100-ə yaxın vətəndaş faktiki zərər çəkmişdir. Ekspertlər isə bildirir ki, əhalinin mənzil, tikinti fırıldaqçılarından yaxa qurtarması üçün hökumət ciddi işlər görməlidir.

**Ekspert Vüqar Bayramovun sözlərinə görə, vətəndaşları aldatmış tikinti şirkətlərinin sahiblərinin həbs olunması mənzilə pul ödəyənlər üçün heç nəyi dəyişmir:** "Onlar onsuz da mənzilə sahib olmurlar. Çünki nə bina inşa edilir, nə də onların pullarını geri qaytaracaq kimsə var. Satış mexanizmi elə qurulmalıdır ki, bir mənzilin mülkiyyətçi dəyişmədən ikinci dəfə başqa şəxsə satılması mümkün olmasın. Təklifimiz yeni binalardan mənzil satışının nizama salınmasına hədəflənib. Birincisi, Ukraynada olduğu kimi, Azərbaycanda da tikinti şirkətlərinin internet səhifəsinin olması icbari xarakter daşımalıdır. Öz internet səhifələrində tikinti şirkətləri inşa edilən və ya inşa ediləcək binada satılan mənzillərlə bağlı məlumat yerləşdirir. Bu da imkan verir ki, alıcı hər hansı bir şirkətin inşa etdiyi binada mənzil almaq istəyərkən həmin şirkətin veb səhifəsinə daxil olmaqla müəyyən edə bilsin ki, hansı mənzillər satılıb, hansılar satılmayıb. Eyni zamanda tikinti şirkəti öz saytında hər bir müştəriyə xüsusi kabinet açır və o da mütəmadi olaraq ora daxil olaraq ödəniş, tikinti prosesi və digər məlumatları əldə edə bilir. Bu, həmçinin şirkətlərin şəffaf işləməsinə imkan yaradır. İkinci variant bir sıra Cənubi-Şərqi Asiya ölkələrində olduğu kimi, mənzillərin bölgüsü ilə bağlı xüsusi komissiyanın yaradılmasıdır. Belə komissiyalar əksər hallarda dövlət qurumlarının və ya yerli icra hakimiyyəti orqanlarının nəzdində yaradılır. Bu zaman həmin komissiya mənzillərin qiyməti və ya kimə satılması ilə bağlı məsələlərə müdaxilə etmir. Sadəcə, satılan mənzillərin qeydiyyatını aparır. Bu qeydiyyat hətta sonrakı mərhələdə elektronlaşdırıla bilər. Məsələn, yeni inşa edilən binada 3-cü blok 10 saylı mənzil satılıbsa, artıq onun məlumatlarını sistemə yenidən daxil etmək olmur, elektron sistem qəbul etmir və bununla da alıcı həmin mənzilin artıq satıldığını bilir".

Təklif olunan üçüncü varianta görə, mənzillərin satılması zamanı nağd ödənişlər qadağan edilməlidir: "Ödənişlər yalnız banklar vasitəsilə həyata keçirilməlidir və həyata keçirilən bank əməliyyatı ilə bağlı bütün məlumatlar şirkətin saytında yerləşdirilməlidir. Bunlardan başqa, qanunvericilikdə dələduzluqla məşğul olan tikinti şirkətlərinə qarşı cərimələrin və cəzanın daha da ağırlaşdırılmasını, məhdud məsuliyyətli cəmiyyətlərin- MMC-lərin tikinti ilə məşğul olmasının birmənalı şəkildə qadağan edilməsini təklif edirik. Praktika göstərir ki, vətəndaşları aldadanlar da məhz MMC kimi fəaliyyət göstərən cəmiyyətlərdir. Məsuliyyəti məhdud olduğuna görə vətəndaşlar aldadılanda, onların qarşısında öhdəliklər yerinə yetirilməyəndə həmin quruma qanunvericiliklə təsir imkanı xeyli məhdduddur. Nəhayət, yeni tikilən və istifadəyə qəbul edilməyən mənzillərin alqı-satqısı üçün «ASAN Xidmət»lərin nəzdində xüsusi elektron baza yaradıla bilər".

**Ekspert Ramil Osmanlı isə qeyd edib ki, bununla bağlı məsələni dəfələrlə qaldırıb və təkliflər veriblər:** "Müxtəlif kontekstlərdə müzakirələr və təkliflər olub. Ayrı-ayrı problemlərə mahiyyəti üzrə yanaşmalar olub. Hesab edirəm ki, o problemin çıxış yolu MTK-lar və vətəndaşlar, yəni istehlakçılar arasında bağlanan müqavilələrin dövlət təminatının alınmasıdır. Söhbət burada notariat müqavilələrdən gedir. Bununla həm də MTK-lar notariat kontorlarına elektron hesabat vermiş olurlar və noratiat kontorları MTK-ların satışa çıxarılan binasının neçə bloklu, neçə mənzilli olması barədə rəsmi məlumata malik olur. Dövlət bilir ki, hansı nömrəli mənzillər satılıb. Artıq ikinci şəxsə satılması imkanları məhdudlaşır. Bunun başqa yolları da var. Hökumət MTK qarşısında müəyyən öhdəliklər qoya bilər ki, hər bir MTK-nın, tikinti şirkətinin saytı olmalıdır. Həmin saytın müvafiq dövlət qurumlarına, məsələn, Statistika Komitəsinə, Ədliyyə Nazirliyinə çıxışı olmalıdır. Həmin saytda MTK-nın tikdiyi binanın strukturu, konfiqurasiyası, mənzillərin, mərtəbələrin sayı və sair göstərilməlidir. Müxtəlif variantlar var. İndiki halda, ən optimalı və vacibi bunlardır".

❑ **Röya RƏFİYEVA**

# Devalvasiya yerli mebel istehsalçılarını da vurub

## Ancaq prezidentin məmurlara iradı satıcıları sevindirib: "Ümid edirik ki, satışımız artacaq..."







**Yanvarın 26-da prezident İlham Əliyevin sədrliyi ilə ay ərzində üçüncü müşavirə keçirildi. Prezident budəfəki müşavirədə də məmurlara barmaq silkələyərək, bəzi məsələləri qabartdı. O, eyni zamanda məmurlara istifadələrində yerli istehsal mallarına üstünlük verməyi də tövsiyə etdi. Ölkə başçısı Azərbaycanda istehsal olunan mebellərdən danışaraq bildirdi ki, ölkədə yüzlərlə mebel şirkəti olsa da yüksək vəzifəli məmurlarımız bunu bəyənmirlər.**

Bəs Bakıda yerli mebelə tələbat necədir? Onlar harada hazırlanır? Belə mebel satan mağazalarda şahidi olduq ki, sadə camaatın elə ən çox aldığı Azərbaycan istehsallı mebellərdir. Lakin satıcıların sözlərinə görə, bu tələbat manatın ikinci devalvasiyasından sonra sıfıra enib.

Öyrəndik ki, Bakıda yerli mebellər daha çox kiçik mağazalarda satılır. Misal üçün, metronun "Xalqlar Dostluğu" stansiyasının ətrafında onlarla mebel mağazası var ki, burada ancaq yerli istehsallı mebellər satılır. Orada satılan mebellərin hissələri isə şəhərdən kənarda yerləşən xüsusi sexlərdə hazırlanır.

Satıcılar bildirdilər ki, prezidentin məlum çıxışı onları çox sevindirib. Onlar ümid edirlər ki, bundan sonra əllərində qalan mallarının satış tempi yüksələcək. **Satıcı Raufun sözlərinə görə, yerli mebellər xaricdən gətirilənlərlə müqayisədə xeyli ucuz qiymətə satılır. İnsanlar da buna görə yerli mala üstünlük verirlər:** "Ancaq açığını deyim ki, 15 ilə yaxındır mebel işindəyəm, çox nadir halda hansısa yüksək rütbəli məmur bizdən mal istəyib. Yerli malı alan daha çox sadə camaatdır. Qiymətlər də normaldır. Məsələn, Türkiyədən gətirilən çarpayının qiyməti 3 min manata yaxındırsa, 200 manata Azərbaycan istehsalı olan çarpayı almaq olar. Şəxsən bizim mağazada 180 manata da çarpayı var. Bu malları biz hissələr formasında sexdən alırıq. Sifarişi veririk, onlar da hazırlayır. Son zamanlar insanlar rəngi ağ olan mebellərə üstünlük verir. Xaricdən də daha çox ağ mebellər gətirilir. İstənilən xarici mebelin dizaynına uyğun yerli mebel istehsal edə bilərik. Sifariş olanda istənilən formanı düzəltdirirk. İnanın ki, heç xarici maldan fərqlənmir. Keyfiyyətə gəlincə isə misal üçün, taxta hər yerdə taxtadır də. Bunu xarici yondu, yaxud biz formaya saldıq, fərqi nədir ki?.."

**Metronun "Xalqlar dostluğu" stansiyası yaxınlığında yerləşən mebel mağazasında çalışan Qumru Xəlilova isə bildirdi ki, Azərbaycanda satılan yerli mebellərin əksəriyyəti "Damla mebel"in istehsalıdır:** "Yerli malın keyfiyyəti heç də xarici mebellərdən geri qalmır. Ancaq deyim ki, devalvasiyadan sonra ümumiyyətlə, alıcıların sayı kəskin şəkildə aşağı düşüb. Ona görə də mebel mağazalarında hazırda vəziyyət ağırdır. Qiymətlərimiz isə normaldır. Tikinti materialları bazarında qiymətlər artsa da mebelin qiymətini qaldırmamışıq. Sexlər tikinti materialı bazarından xammalı aldıqdan sonra bizim sifarişimizə əsasən mebel düzəldirlər. Bazarda, misal üçün, taxtanın qiyməti qalxırsa, bu, mebelin də qiymətinə təsir edir. Ancaq alıcı olmadığı üçün biz qiymətləri qaldırmadıq. İndi müştəri heç qapını açıb içəri də baxmır. Ümid edirik ki, cənab prezidentin çıxışından sonra vəziyyət düzələcək".

**Digər mağazada çalışan Ruslan isə bildirdi ki, əslində mebellərin qiymətini devalvasiyadan sonra qaldırıblar:** "Ancaq tələbat olmadığından, məcbur olub yenidən əvvəlki qiymətinə saldıq. Hazırda yerli mebellərin hamısı devalvasiyadan əvvəlki qiymətə satılır. Ancaq alıcı yoxdur".

**"Weltew mobilya"nın işçisi Səidə xanım isə bildirdi ki, onlar həm yerli, həm də xarici mebellərin satışı ilə məşğuldurlar. O bir neçə məqama aydınlıq gətirdi:** "11 ildir ki, mebel işindəyəm. Onu deyim ki, Azərbaycan istehsalı olan mebellər hələ keyfiyyətinə görə xarici mallara çata bilmir. Həm yerli, həm də xarici mal satırıq. İnsanlar daha çox yerli mallara üstünlük verirlər. Bunun isə səbəbi qiymətlərin aşağı olmasıdır. İnsanlar xarici mebellərə baxırlar, onların dizaynını götürüb deyirlər ki, bu tip mal istəyirik. Biz də həmin dizayna uyğun olaraq onlara mebel yığıb verə bilirik. Dizayn eyni olsa da keyfiyyətdə fərq var. Xarici mebellər daha keyfiyyətlidir".

❑ **Əli RAİS**

# Bakıya mal əti adı altında at əti gətirilirmiş

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti və DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin Karantin tədbirlərini təmin edən əlahiddə polis taborunun əməkdaşları təhlükəsizliyi şübhə doğuran ət və ət məhsullarının satışının qarşısını almaq məqsədi ilə reydlər keçirib.**

Bu barədə virtualaz.org saytına xidmətdən məlumat veriblər.

Ağcabədi rayonu, Aşağı Avşar kəndindən Bakıya satmağa gətirilən Məmmədov Aqil Əvəz oğluna məxsus 1100 kiloqramdan artıq mənşəyi məlum olmayan, qida üçün yararlığı şübhə doğuran heyvan cəmdəkləri, sümükdən ayrılmış ətlər, baş-ayaq və daxili orqanlarla dolu olan yük Qaradağ rayonu ərazisində saxlanılıb.



Avtomaşında olan heyvan cəmdəklərinə baxış keçirilən zaman heç bir mənşəyi, sağlamlığı haqqında müşayiətedici və baytarlıq sənədlərinin olmadığı müəyyən edilib.

Cəmdəklərdən, sümüksüz ətlərdən və daxili orqanlardan baytarlıq qanunvericiliyinə uyğun nümunələr götürülərək Respublika Baytarlıq Laboratoriyasına (RBL) göndərilib. RBL-nın ekspertizasına əsasən, yoxlanılan 30 nümunə ət və 2 nümunə daxili orqanlarda (ağciyər, qaraciyər, qarın) aparılan bakterioloji müayinələr zamanı bakterioloji çirklənmə (BÇQB, stafilakokkus aureus) aşkar olunub. Biokimyəvi müayinələr (pH, peroksidaza və söy-daş reaksiyaları) məhsulun keyfiyyətsiz olduğunu müəyyən edib və bildirilib ki, ət baytarlıq-sanitariya cəhətdən yararsızdır. Daxil olan 23 nümunə ət və 2 nümunə daxili orqanlar (ağciyər, qaraciyər, qarın) iribuynuzlu heyvana məxsusdur. Digər 7 nümunə ət isə at ətidir.

Beləliklə, aparılan müayinələrin nəticəsinə əsasən, yoxlanılan nümunələrin hər biri qida üçün yararsızdır və baytarlıq-sanitariya tələblərinə cavab vermir.

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti bildirir ki, Bakı və bölgələrdə mütəmadi reydlər keçiriləcək.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarnın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Sumqayıtdan Bakıya gələn 14 yaşlı qız yoxa çıxdı

**Sumqayıtda yaşayan 14 yaşlı Tellli Axranova müəmmalı şəkildə yoxa çıxıb. Bu barədə BAKU.WS-ə onun əmisi oğlu İlkin Axranov məlumat verib. Onun sözlərinə görə, Telli yanvarın 24-də evdən çıxıb və bir daha geri qayıtmayıb. Sumqayıtda yaşayan Axranovlar ailəsi qızlarından heç bir xəbər tuta bilmirlər.**

Axtarışlar zamanı onu sonuncu dəfə "28 May" metrosu yaxınlığında görüblər. İlkin Axranovun sözlərinə görə, araşdırmalar zamanı qızın Bakı-Sumqayıt qatarı ilə gəldiyi məlum olub.

"Onu Sumqayıtda Bakı-Sumqayıt qatarına minərkən görüblər. Sonradan Telli barədə heç bir məlumat ala bilməmişik", - deyə İlkin Axranov bildirib.

Qeyd edək ki, Tellli Axranova orta məktəbin 9-cu sinfində təhsil alır. Onun barəsində məlumatı olanlardan 055 949-20-30 saylı telefona zəng etmələri xahiş olunur.

## Bakı-Qazax yolunda mikroavtobus aşdı

**Bakı-Qazax magistralında mikroavtobus aşıb. Mikroavtobusun aşmasına yolun buz bağlaması səbəb olub. APA-nın hadisə yerində olan əməkdaşının verdiyi məlumata görə, hadisə Bakı-Qazax magistralının 167-ci kilometrliyində qeydə alınıb.**

Ağdam rayon sakini, 1962-ci il təvəllüdlü Yusif Teymur oğlu Abdullayevin idarə etdiyi "Ford" markalı, 10 XC 133 dövlət nömrə nişanlı mikroavtobus Bakı istiqamətində hərəkətdə olarkən aşıb. Nəticədə mikroavtobusda olan 10 nəfər yüngül xəsarət alıb. Hadisə yerinə 5 təcili tibbi yardım maşını gəlib. Sərnişinlərə yerində tibbi yardım göstərilərək buraxılıb.

Mikroavtobusun aşmasına yolun buz bağlaması səbəb olub.

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



## Rusiyada azərbaycanlı gizir həmyerlisi olan mayoru güllələdi

**Rusiya Federasiyası Komi Respublikasında qadın koloniyasında işləyən azərbaycanlı baş gizir həmyerlisi olan mayoru güllələyib. APA-nın "Life-news"a istinadən verdiyi məlumata görə, hadisə dünən səhər saatlarında Mikun şəhərindəki 31 nömrəli koloniyada baş verib. Baş gizir Şahin Əliyev qarovul zamanı qəfildən avtomat götürərək avtomobildə əyləşmiş mayor Xalid Həsənova atəş açıb.**

Başından güllə yarası alan mayor hadisə yerində ölüb. Daha sonra Ş. Əliyev intihar məqsədilə iki dəfə özünə atəş açıb, lakin güllələr körpücük sümüyünə və qarnına dəyib, silah əlindən düşüb.

İlkin versiyaya görə, Ş. Əliyev və X. Həsənov dost olublar. Onların münasibətləri Ş. Əliyev mənzil üçün birdəfəlik ödəniş aldıqdan sonra pisləşib. Həmkarlarının dediyinə görə, Ş. Əliyev ötən ilin noyabrında boşanıb və əldə etdiyi pullarla Azərbaycana qayıtmağı planlaşdırıb. X. Həsənov dostunu fikrindən daşındırmağa çalışıb, buna görə dəfələrlə aralarında dava olub və münasibətləri kəskin pisləşib.

Hazırda Ş. Əliyev ağır vəziyyətdə xəstəxanadadır.



## Masazırda "Lexus" aşdı: ölən var

**Bakı-Sumqayıt yolunda ağır yol-nəqliyyat hadisəsi baş verib. Lent.az-ın məlumatına görə, magistralın 15-ci kilometrliyində, Masazır qəsəbəsi yaxınlığında "Lexus" markalı minik avtomobili maneəyə çırpılaraq aşıb. Nəticədə avtomobildə olan şəxslərdən 1993-cü il təvəllüdlü Aslanxanov Vitali Aslan oğlu aldığı ağır bədən xəsarətlərindən vəfat edib. Daha 1 nəfər isə xəstəxanaya yerləşdirilib.**

Bildirilir ki, qəzaya səbəb yolun buzlaşması şəraitində düzgün manevr edilməməsi olub. Faktla bağlı araşdırma aparılır.

**Elan**

**Xətai rayonu Seyid Əzim Şirvani 14, mənzil 33 ünvanında yaşayan Əmirova Hökümə Sərhad qızının adına verilmiş evin sənədi itdiyi üçün etibarsız sayılır.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

# Xolesterin ziyanlıdır, yoxsa xeyirli...

**Xolesterinin ziyanlı və ya xeyirli olması ətrafında uzun müddətdir ki, müzakirələr gedir. Bir sıra alimlər, həkimlər xolesterinin heç bir ziyanının olmadığını desələr də, bir qrup bunun tam əksini deyir. Xolesterinin insan həyatı üçün təhlükəli olduğunu düşünənlərdən biri də Türkiyə kanallarında tez-tez gündəmə gələn professor, doktor Canan Karataydır. O, bir müddət öncə xolesterinlə bağlı öz məsləhətlərini verib, bunun insan həyatı üçün ciddi təhlükə mənbəyi olduğunu bildirmişdi.**

## "Onun miqdarının normadan az olması xərçəng riskini artırır, yaddaş zəifliyi yaradır, parkinson xəstəliyinə, həmçinin insulta, aqressiyaya səbəb olur"

Professorun sözlərinə görə, insanlar xolesterinin qarşısını almaq üçün çörəkdən və şəkərdən imtina etməlidir. Professor şəkərin insan üçün ən şirin zəhər olduğunu bildirərək insanlara 2 dilimdən artıq çörək yeməməyi məsləhət görüb. Çörək yeməkdən doymayan inşaat işçilərinin isə doyması üçün çörəksiz 10 yumurta və 2 turp yeməli olduğunu bildirib. Yağların ürək böhranı, damar tıxanıqlığı, damar sərtləşməsi, xərçəng, şəkər xəstəliyi kimi xəstəliklərə səbəb olduğunu deyən C.Karatay kökəlməyin genetik olmadığını, yalnız 1980-ci ildən sonra kilolu insanların sayının artdığını bildirib. Bunun səbəbini isə şəkərdən istifadənin artmasında görən professor qarınlı insanların gizli şəkər xəstəsi olduğunu bildirib.

Qərbdə aparılan son elmi tədqiqatların müəllifləri isə bu barədə deyilənlərin mifdən başqa bir şey olmadığını iddia edirlər. Tədqiqatlar nəticəsində məlum olub ki, çoxlarının zərərli bildiyi və müxtəlif pəhriz və müalicələrlə qurtulmaq istədiyi xolesterinin insan orqanizminə faydaları var. Hətta onun azlığı insan səhhətində fəsadlara səbəb ola bilər. **Mövzunu araşdıran Rusiyanın tibb elmləri namizədi, həkim O.I.Senyova bildirir ki, əgər əvvəlki nəsillər xolesterindən qurtulmaq üçün qatı pəhrizlər saxlasaydı, müasir insanın beyin funksiyaları xeyli geriləmiş olardı. Həkim xolesterinin miqdarında kəskin azalmanın orta yaşlılarda və qocalarda ciddi yaddaş zəifliyinə səbəb olduğunu, həmçinin orqanizmin stressə qarşı mübarizəsini zəiflətdiyini bildirib:** "Qida rasionunda heyvan mənşəli yağlar azalarsa, böyrəklər normadan artıq yüklənmiş olacaq. Yaşam üçün xolesterinin olması zəruridir. Əks halda, böyrəklər bu maddəni karbohidratlardan almalı olacaq. Qidalarda xolesterinin azlığı böyrəklər üçün çox ciddi böhran deməkdir. Heç kim bilmir ki, xolesterin antioksidant təsirə malikdir. Onun miqdarının normadan az olması xərçəng riskini artırır, yaddaş zəifliyi yaradır, parkinson xəstəliyinə, həmçinin insulta, aqressiyaya və bəzi hallarda özünü öldürmə həddinə gəlib çıxmağa səbəb olur. Əgər kimsə bədənində xolesterinin az olması ilə öyünürsə, o adamla mümkün qədər mülayim davranmağa çalışın".



**Rusiyalı həkimin sözlərinə görə, illərdir oturuşmuş yanlış informasiyanın qurbanları da olub. Onlardan biri də ABŞ-ın keçmiş prezidentlərindən biri Duayt Eyzenxaurdır:** "İlk infarktdan sonra həkimlər onu aşağı xolesterinli pəhrizə oturdublar. Pəhrizə baxmayaraq, xolesterinin miqdarı yüksəlməyə başlayıb".

Göründüyü kimi, xolesterin haqda iki fərqli fikir mövcuddur. Bu istiqamətdə hələ də araşdırmalar aparılır. "Hər şeyin çoxu zərərdir" misalından istifadə edərək insanlar bədənlərindəki xolesterinin miqdarını qaydasında saxlamağa çalışmalıdırlar. Ancaq təəssüflər olsun ki, ölkəmizdə buna diqqət edən yoxdur. Azərbaycan əhalisinin 5 faizi qanındakı xolesterinin miqdarını bilirsə, Amerika və Avropada əhalinin 80 faizi qanlarındakı xolesterinin miqdarını öyrənir və onu qaydasında saxlamağa çalışır.

Ümumiyyətlə, xolesterin həyat üçün lazımlı olan mum konsistensiyalı yağvari bir maddədir və qaraciyər hüceyrələrində hazırlanır. Çox az miqdarda hazırlanmasına baxmayaraq, həmin maddə bütün hüceyrə qişalarının yaradılmasına, öd turşularının, hormonların və D vitamininin əmələ gəlməsinə kifayət edir. Lakin qəbul edilən qidanın təsiri ilə xolesterin ifrazının artması onu faydalı maddədən sağlamlığın bir nömrəli düşməninə çevirir. Qandakı xolesterinin çoxunu "yaxşı" və "pis" xolesterin təşkil edir. "Yaxşı" xolesterinin ürək-damar xəstəliyinə qarşı qoruyucu olduğu güman edilir. "Pis" xolesterin isə damar sərtliyi və ürək-damar xəstəliyi təhlükəsinin qaynağıdır. Bu səbəblə, müalicə zamanı əsas hədəf "pis" xolesterini azaltmaqdır. Mütəxəssislər iddia edir ki, qanda xolesterinin yüksək olması ateroskleroza *(ürək-damar sistemi xəstəliyi)* və artıq piylənməyə gətirib çıxarır. Kaliforniya Universitetinin alimləri araşdırmalar nəticəsində aşkar ediblər ki, sarımsaq ekstarktı damarları xolesterindən təmizləyir və ürək xəstəliklərinin inkişafının riskini azaldır. Bundan əvvəl də aparılan araşdırmalar göstərib ki, xırda doğranmış təzə sarımsaq ürəyin fəaliyyətinə müsbət təsir göstərir, qan dövranını yaxşılaşdırır. Diabet xəstələrində sarımsağın qəbulu ürək xəstəliklərinin inkişafının riskini azaldır.

❑ **Günel MANAFLI**

# Aygünün fəxri adı əlindən alınmalıdırmı...






**Son zamanlar sənət adamlarının "İnstagram" səhifələrində onları tənqid edən insanlara təhqirlə cavab verməlәri adət halını alıb. İlin əvvəlində müğənni Xatirə İslam sosial şəbəkədə onu tənqid edənləri "tupoy", "qaraçı" adlandırmışdı. Sənətçinin bu addımı xalqı təhqir kimi qiymətləndirilmişdi.**

Ötən gün isə xalq artisti Aygün Kazımova doğum günü məclisində geyindiyi qısa libasa görə tənqid olunub. Xalq artisti iradlara təhqirlə cavab verib və "Hər birinizin mənfi rəyi mənim belə bir yerimə, bədbəxtlər" şərhini yazıb.

A.Kazımovanın bu addımı insanlar tərəfindən müzakirələrə səbəb olub. Hətta sosial şəbəkələrdə xalq artistinin adının alınması barədə fikirlər səsləndirilib.



**Nizami Cəfərov:**
"O, müdrik və səviyyəli qadındır"

Musavat.com məsələyə aydınlıq gətirmək üçün xalq artistinin mətbuat katibi ilə əlaqə saxlayıb. O bildirib ki, Kazımova bu addımı haqda danışmaq istəmir.



**Hafiz Hacıyev:**
"Aygün kimiləri qudurdan məmurlardır"

**Xalq artistinin insanları təhqir etməsinə münasibət bildirən millət vəkili Nizami Cəfərov qeyd edib ki, A. Kazımovanın adının əlindən alınması ona qarşı haqsızlıq olar:** "Aygün Kazımova artıq böyük nüfuz sahibi olan, musiqimizdə sözünü demiş sənətkardır. Ona da xalq artisti adı təsadüfən verilməyib. Təbii ki, onun böyük sənəti nəzərə alınıb. Sənət adamlarında bəzən sadəlövhlük olur, ürəyi genişlikdən, istəmədən müəyyən intriqalara qoşulurlar. Nəticədə təzadlarla dolu mühit yaranır. Aygün Kazımova kimi bir çox sənət adamlarının tərcümeyi-halında belə hadisələrə rast gəlinir. Güman etmirəm ki, kəskin qərar qəbul edib, Aygünün adını əlindən almaq lazımdır. Aygün xalqını sevən adamdır. Fövqəladə hal olub ki, o, kimisə təhqir edib. Müğənnidən, sənətkardan fəxri adını almaq mənim üçün qəbul olunmazdır. Onlar həssas adam olurlar. Adının alınması onlar üçün böyük məsələdir. Əgər Aygün Kazımova təhqir edibsə, vəziyyəti nəzərə alıb üzr istəyəcək. Çünki müdrik və səviyyəli qadındır".

**Partiya sədri Hafiz Hacıyev isə xalq artistini sərt tənqid edib:** "Bu adamlar arxalarında duranlara arxayındırlar. Onları qudurdan məmurlardır. O qədər harınlayıblar ki, insanları təhqir edirlər. Onun ixtiyarı yoxdur ki, sadə vətəndaşı təhqir etsin. Aygünü kim "saxlayır", arxasında durursa, jurnalistlər onu axtarıb tapmalıdır və ona deməlidir ki, Aygünün ipini yığsın. Üzr istəyirəm, o, kimlə yatırsa, onu axtarıb tapın. Deyin ki, sevgilini ayağına bağla. Aygünün adını çəkməyə dəyməz, onun adını çəkəndə utanıram. Xahiş edirəm ki, sənətçinin hərəkətini ictimaiyyətin müzakirəsinə verin".

❑ **Könül İBRAHİM**

# Azərbaycanda qızıl kəskin bahalaşdı



**Manatın devalvasiyası və gömrük rəsmiləşdirilməsində baş verən dəyişikliklər Azərbayanda qızılın qiymətinə də təsir edib. Son vaxtlar dünya bazarında qızılın qiymətinin artmamasına, hətta bir qədər azalmasına baxmayaraq Azərbaycanda qızıl kəskin bahalaşıb. Qızıl bazarındakı satıcılar fins.az-a bildiriblər ki, hazırda bazarda dövriyyədə olan qızıllar rus, türk və italiyan qızıllarının qiyməti ümumilikdə 2 dəfə artıb. Bir də əyyarı hamısından yüksək olan ərəb qızılı var ki, onun satışı hazırda dayanıb.**

Bu qızılların «lom» (xammal) qiymətləri hər iki devalvasiyadan əvvəl indikindən kəskin fərqlənirdi. Belə ki, 1-ci devalvasiyadan əvvəl, yəni dolların məzənnəsi 0,78 manat olanda rus və tük qızılının bir qramının «lom» qiyməti 16 manat idisə, birinci devalvasiyadan sonra qiymət 20 manat olub. Hazırda rus və türk qızılının bir qramının "lom" qiyməti 31 manatdır. Rus qızılı almaq istəyən müştərilər üçün satış qiyməti qramla 40-45 manatdır. Türk qızılının bir qramının satış qiyməti 50-60 manatdır.

İtaliyan qızılının qramı devalvasiyadan əvvəl 20-21 manat idi, ilk devalvasiyadan sonra 26 manat olub. İndi isə 750 əyyarlıq italiyan qızılının bir qıramının «lom» qiyməti 40 manatdır. İtaliyan qızılının bir qramının bazardakı satış qiyməti 60-80 manat arasındadır. Ərəb qızılının satışı dayanıb

Bazarda hazırda satışı dayanan ən yüksək əyyara (785 əyar) sahib ərəb qızılı isə hazırda 46,5 manatdır. Devalvasiyadan əvvəl bir qramın "lom" qiyməti 24 manat idi, ilk devalvasiyadan sonra isə bu rəqəm 30 manat olub.

Bazarda vəziyyətin gərgin olduğunu deyən satıcılar alıcılıq qabiliyyətinin dayandığını bildirirlər. Onların sözlərinə görə, hazırda qızıl satışı demək olar ki, dayanıb, insanlar mağazalara yalnız qızıl satmaq üçün gəlirlər.

Satıcılar ölkəyə gətirilən qızılın kəskin bahalaşdığını da bildirirlər. Onların sözlərinə görə, əvvəllər ölkəyə gətirilən qızılın bir kiloqramına görə təqribən 3 min manat rüsum ödənilirdisə, hazırda bir kiloqram qızıla görə ödəniş 12 min manata yüksəlib. Buna görə də satıcıların əksəriyyəti xaricdən qızıl gətirmir. İndiyədək əllərində olan qızılları satır.

YENİ MÜSAVAT

Son səhifə

N 20 (6341) 28 yanvar 2016



## Boz rəngdə geyən lider

**Harvard Universitetində bir otaqda facebooku qurub, 1 milyarddan çox istifadəçisi olan və gənc yaşında adını zənginlər siyahısına yazdıran Mark Zukerberq geyimlərinin şəkillərini paylaşıb. 31 yaşlı biznesmen geyimlərinin şəkillərini facebook üzərində paylaşdıqdan sonra hər kəsi təəccübləndirib. Zukerberq bu tərzdə geyinməyin ona ilham verdiyini deyir: "Həyatımı gerçəkdən sakit yaşamaq istəyirəm. Ona görə də cəmiyyətə ən yaxşı xidməti vermək istəyirəm".**

M.Zukerberq sözügedən şəkili qızının doğumuna görə aldığı iki aylıq icazədən sonra işə qayıtdıqdan sonra paylaşıb. Xatırladaq ki, Zukerberq qızının doğumundan sonra həyatı boyunca xeyriyyə məqsədi ilə 45 milyard dollar bağışlayacağını bildirib.



## Özünü buzdan təmizləyən yollar salınacaq

**ABŞ-ın Nebraska Universitetinin professoru Kris Tuanın rəhbərlik etdiyi komanda "Özünü buzdan təmizləyə bilən yollar" layihəsini irəli sürüb. APA-nın Azərbaycan Milli Elmlər Akademiyasının rəsmi saytına istinadən verdiyi məlumata görə, alimlərin yeni layihəsinə əsasən, polad yonqarlarından və karbondan hazırlanan yeni beton növü elektrikkeçiriciliyə malik olacaq, üzərinə toplanan qar və buzları isidərək əridəcək. Hazırda Amerikanın Federal Aviasiya Administrasiyası beton materialının hazırlanmasını pilot proqram olaraq həyata keçirir. Layihə uğurlu olarsa, ABŞ bu proqramdan aeroport asfaltlarının döşənməsində istifadə edəcək.**

# 35 milyonluq hədiyyə

**Rusiyalı milyarder Roman Abromoviçin 2002-ci ildə Vladimir Putinə 35 milyon dəyərində gəmi hədiyyə etdiyi üzə çıxıb. Bir zamanlar dövlətə məxsus gəmiçilik şirkəti olan "Sovcomflot"un rəhbəri Dmitri Scarga BBC televiziyasına verdiyi açıqlamada Abromoviçin 57 metr uzunluğundakı "Olimpiya" adlı gəminin Putinə başqa bir şəxs tərəfindən verildiyini açıqlayıb. Gəminin məsrəflərinin dövlət büdcəsindən ödəndiyini bildirən "Scarga" gəminin varlığının gizli saxlanıldığını da deyib.**



**Abromoviçin vəkili isə iddiaları rədd edib. Kremlin mətbuat xidmətinin rəhbəri iddiaların əsassız olduğunu bildirib.**

# İmmuniteti möhkəmləndirən 6 sadə məsləhət

**İnsanın immun sistemi mükəmməl bir sistemdir. Güclü immunitet insanı istənilən xəstəlikdən qoruya bilər. Hər gün insanın orqanizminə hava, su, qida ilə milyonlarla müxtəlif mikroblar, viruslar, göbələklər daxil olur. İmmun sistemi isə onları zərərsizləşdirir və nəticədə insan xəstələnmir. Hər gün bizim orqanizmdə xərçəng hüceyrələri yaranır. İmmun sistemi isə onları zərərsizləşdirir. Həkimlərin fikrinə görə, immunitetin səviyyəsi insanın irsiyyətindən (50%) və həyat tərzindən (50%) asılıdır. İrsiyyəti dəyişmək mümkün olmasa da, həyat tərzini dəyişmək mümkündür. İmmun sisteminin normal fəaliyyəti üçün bu sadə qaydalara əməl edin:**

**1. Düzgün qidalanın.** Meyvə-tərəvəz, göyərti, süd məhsulları, qoz-fındıq, balıq, paxlalılar (noxud, lobya, mərci), bitki yağları immun sisteminin normal fəaliyyəti üçün ən vacib məhsullar sayılır. Əksinə, çoxlu miqdarda şirniyyatların, şəkərin qəbulu immun sisteminə çox mənfi təsir edir. Uzunmüddətli pəhrizlər immun sistemini zəiflədir.

**2. Kifayət qədər yatın və dincəlin.** Xroniki yorğunluq, yuxusuzluq insanın immun sisteminə mənfi təsir edir.



**3. Stresdən uzaq olun.** Xroniki stress bir çox xəstəliklər və pozulmaların (o cümlədən xərçəng xəstəliklərinin) risk faktoru sayılır. Bu səbəbdən mümkün qədər stress vəziyyətlərindən qaçın.

**4. Hər gün ən azı 30 dəqiqə açıq havada gəzin.**

**5. Orqanizmdə olan xroniki infeksiya ocaqları immun sistemini zəiflədir.** Bu səbəbdən belə infeksiya ocaqlarını mütləq və vaxtında müalicə etmək lazımdır.

**6. Havaya uyğun geyinin, özünüzü soyuqdan qoruyun.** Soyuqlama immun sisteminin kəskin zəifləməsinə səbəb olur.




**QOÇ** - Görüşə çıxmaq, yeni işlərə başlamaq, sövdələşmələrdə iştirak etmək üçün səmərəli vaxtdır. Çalışın ki, ürəyinizin səsinə qulaq asasınız. Ağır fiziki işlərdən uzaq olmağa cəhd edin.

**BUĞA** - Nəhayət ki, ulduzlar bürcünüzə maliyyə səxavəti göstərməyə yaxın olacaq. Saat 13-16 arası bu istiqamətdə daha əlverişli şanslar qazana bilərsiniz. Qərarlarınızda qəti olun.

**ƏKİZLƏR** - Yaxşı olar ki, fəaliyyətə ara verib daha çox istirahətlə məşğul olasınız. Bunu etməsəniz, ümumi yorğunluğunuz və daxili süstlüyünüz səngiməyəcək. Səfərə çıxmayın.

**XƏRÇƏNG** - Düşərli bir gün yaşayacaqsınız. Özünüzü nikbin səviyyədə kökləyin. Çalışın ki, ətrafda hər şeyin gözəl olduğunu duyasınız. Bu gündən etibarən taleyinizdə dönüş yaranmalıdır.

**ŞİR** - Məhəbbət aləmində romantik məqamlar yaşamaq istəyirsinizsə, bu təqvimdən maksimum yararlanın. Əmin olun ki, cəhdləriniz boşa çıxmayacaq. Riskli sövdələşmələrdən yayının.

**QIZ** - Daxili sabitliyinizi qorumaq istəyirsinizsə, keçmişdə olanları müzakirə etməyin. Onsuz da olmuşları düzəltmək mümkünsüzdür. Özünüzü sevgiyə həsr edin ki, xilas olasınız.

**TƏRƏZİ** - Mübahisəli gün olsa da, Göy qübbəsi maliyyə durumunuzda irəliləyiş olacağını bildirir. Bir şərtlə ki, kisənizdən etibarsız insanlara borc verməyəsiniz. Yoxsa müflisləşəcəksiniz.

**ƏQRƏB** - Günün birinci yarısında bütün işlərinizi yekunlaşdırmağa çalışın. Çünki sonrakı müddətdə buna imkan tapmayacaqsınız. Ulduzlar nahardan sonra maraqlı görüşlərdən xəbər verir.

**OXATAN** - Günün birinci yarısında müəyyən gərginliklə baş-başa qala bilərsiniz. Odur ki, həmin ərəfədə bütün vacib planlarınızı təxirə salmalısınız. Fəaliyyətdə öz məsuliyyətinizi anlayın.

**OĞLAQ** - Kifayət qədər məhsuldar gündür. Kiminsə işlərinizə mane olacağını ağlınıza gətirməyin. Əksinə, nəzərdə tutduğunuz planların böyük əksəriyyəti öz həllinə yaxınlaşacaq.

**SUTÖKƏN** - Planetiniz olan Uran narahat kosmik bucağa düşdüyündən fəaliyyətinizin səmərə verməyəcəyini bəyan edir. Odur ki, daha çox istirahətə yer ayırmalı, xəstəliyə təslim olmamalısınız.

**BALIQLAR** - Ulduzların düzümü səhhətinizdə problemlər olacağını bəyan edir. Bunun qarşısını almaq üçün ilk növbədə əsəblərinizi qorumalısınız. Nahardan sonra büdcənizdə artım gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnterneti televizordan daha çox sevirlər



**İngiltərədə uşaqlar üzərində akademik araşdırmalar aparan "ChildVise" şirkəti belə nəticəyə gəlib ki, çocuqlar internetdə televiziya qarşısından daha çox zaman keçirir. Araşdırmalara görə, uşaqlar internetdə təxminən 3 saat, televiziya qarşısında isə 2,1 saat vaxt keçirir. 5-15 yaşlı uşaqların gündəlik həyatları haqqında araşdırma aparan mütəxəssislər uşaqların yarım saatdan çox kitab oxumağa vaxt ayırmadığını deyib. Araşdırmaçılar uşaqların kitab oxumağa olan həvəslərinin getdikcə azaldığını deyiblər. Uşaqlar 2012-ci ildə təxminən bir saat kitab oxumağa vaxt ayırdığı halda, hazırda bu müddət yarı-yarıya azalıb.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300